**Azərbaycan Respublikasının**
**İnsan Hüquqları üzrə Müvəkkili**
**(Ombudsman)**

# İŞGƏNCƏLƏR ƏLEYHİNƏ MİLLİ PREVENTİV MEXANİZMİN FƏALİYYƏTİNƏ DAİR

# H E S A B A T

## (2016)

**Bakı – 2017**

Təqdim olunan hesabatda BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolunda nəzərdə tutulmuş Milli Preventiv Mexanizmin funksiyalarını yerinə yetirən təsisat qismində Müvəkkilin 2016-ci il üzrə həyata keçirdiyi fəaliyyət, irəli sürülən təklif və tövsiyələr yer almışdır.

Bu hesabat ümumilikdə Müvəkkilin Milli Preventiv Mexanizm funksiyalarının həyata keçirilməsi prosesində BMT-nin İşgəncələrin Qarşısının Alınması üzrə Komitəsi, İşgəncələrin Qarşısının Alınması üzrə Alt Komitə (SPT) və İşgəncələrin qarşısının alınması üzrə Avropa Komitəsinin (CPT), habelə BMT-nin İnsan Hüquqları Şurasının Universal Dövri İcmal üzrə İşçi Qrupunun Azərbaycan Respublikasının dövrü məruzələri üzrə verilmiş təklif və tövsiyələri nəzərə alınmışdır

Hesabata başçəkmələrin nəticəsi olaraq təhlillər əsasında hazırlanmış məlumatlar, statistik göstəricilər, habelə "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolu əlavə edilmişdir.

**İSBN: 978-9952-9554-8-5**

## MÜNDƏRİCAT

**Ön söz**……………………………………………………………4
Mətndə istifadə olunmuş anlayışlar və ixtisarlar……………………………5

**BÖLMƏ 1.FAKÜLTATİV PROTOKOLA ƏSASLANAN MİLLİ PREVENTİV MEXANİZMİN MANDATI**……………………………..7
*1.1. FP-nin tələbləri*.........................................................................7
*1.2. Milli qanunvericilik*...................................................................8
*1.3. MPM-in fəaliyyət istiqamətləri*...............................................10

**BÖLMƏ 2. MPM-in FƏALİYYƏTİ VƏ PREVENTİV BAŞÇƏKMƏLƏR**...............................................................................12
2.1. Preventiv başçəkmələrin təşkili..................................................12
*2.1.1. Plan üzrə başçəkmələr*...........................................................12
*2.1.2. Plandankənar başçəkmələr*...................................................13
2.2. Başçəkmələrin həyata keçirilməsi..............................................13
*2.2.1. Daxili İşlər Nazirliyinin müəssisələri*....................................15
*2.2.2. Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin müəssisələri*.................31
*2.2.3. Dövlət Təhlükəsizliyi Xidmətinin müəssisələri*...................................47
*2.2.4. Müdafiə Nazirliyinin müəssisələri*.........................................47
*2.2.5. Dövlət Miqrasiya Xidmətinin müəssisələri*...............................48
*2.2.6. Səhiyyə Nazirliyinin müəssisələri*...........................................49
*2.2.7. Təhsil Nazirliyinin müəssisələri*...............................................50
*2.2.8. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müəssisələri*..........60
*2.2.9. Yerli icra hakimiyyəti orqanlarının müəssisələri*...............................62

**BÖLMƏ 3. HÜQUQİ TƏHLİL**…………………………………64

**BÖLMƏ 4. HÜQUQİ MAARİFLƏNDİRMƏ**…………………………71

**BÖLMƏ 5. İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏR VƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIQ**……………………………………75

**BÖLMƏ 6.TƏKLİF VƏ TÖVSİYƏLƏR**………………………………81

*Əlavə 1*…………………………………………………………………..87

*Əlavə 2*...................................................................................................90

# ÖN SÖZ

Məlum olduğu kimi, Azərbaycan Respublikası 2 dekabr 2008-ci ildə BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolunu ratifikasiya etmiş, ölkə Prezidentinin 13 yanvar 2009-cu il tarixli, 112 saylı Sərəncamına əsasən isə Protokolda nəzərdə tutulmuş Milli Preventiv Mexanizmin funksiyalarını həyata keçirən təsisat qismində Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) müəyyən edilmişdir.

Ölkədə hüquqi dövlət quruculuğu prosesi çərçivəsində aparılan hüquqi islahatların məntiqi davamı olan bu yeni funksiyaların icrasından irəli gələn vəzifələrin yerinə yetirilməsi Müvəkkilin fəaliyyətinin əsas istiqamətlərindən birinə çevrilmişdir.

Müvəkkilin müvafiq dövlət qurumları, vətəndaş cəmiyyəti institutları, kütləvi-informasiya vasitələri, beynəlxalq təşkilatlar, xarici ölkələrin Milli İnsan Hüquqları Təsisatları, yerli və beynəxalq ekspertlərlə olan əlaqələri onun MPM qismində fəaliyyətinin də inkişafına, uğurlu və konstruktiv əməkdaşlıq əlaqələrinin qurulmasına, faydalı müzakirələr, treninqlər və təcrübə mübadilələrinin təşkilinə imkan vermişdir.

MPM qismində işgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə fəaliyyətimiz çərçivəsində istər praktik yanaşma, istərsədə qanunvericiliyə təklif və tövsiyələrin verilməsi, habelə təşkilati baxımdan mövcud fəaliyyətin təkmilləşdirilməsi məqsədilə təşəbbüs və töhfələrimizi əsirgəmirik.

Müvəkkilin öz fəaliyyətində preventiv tədbirlərin təşkili, eləcə də maarifləndirmə işlərinin aparılması məsələlərinə müstəqil, qərəzsiz, xüsusi diqqət yetirməsini Paris prinsiplərinə əsasən "A" statusuna malik milli insan hüquqları institutu olması da bir daha təsdiq edir.

Təqdim etdiyimiz bu hesabat Azərbaycan MPM-nin 2016-ci il üzrə fəaliyyətini əhatə etməklə, görülmüş işlər, preventiv başçəkmələr və onların nəticələri, verilmiş təklif və tövsiyələr və onların icrası vəziyyəti, eləcə də MPM-in həyata keçirdiyi hüquqi maarifləndirmə və digər fəaliyyət istiqamətlərinə dair tədbirləri özündə əks etdirir.

Ümidvaram ki, hesabatda qaldırdığımız məsələlələr, verdiyimiz təklif və tövsiyələr Fakültativ Protokolun tələblərinə uyğun şəkildə müvafiq istiqamətlər üzrə fəaliyyətin daha da təkmilləşdirilməsinə öz töhfəsini verəcəkdir.

Hesabatla əlaqədar göndəriləcək təkliflərə görə əvvəlcədən təşəkkür edirik.

**Prof. Elmira SÜLEYMANOVA**
*Azərbaycan Respublikasının*
*İnsan Hüquqları üzrə Müvəkkili*
*(Ombudsman)*

# MƏTNDƏ İSTİFADƏ OLUNMUŞ ANLAYIŞLAR VƏ İXTİSARLAR

**Azadlıqdan məhrum etmə** – şəxsin hər hansı məhkəmə, inzibati və ya digər orqanın qərarı ilə həbsdə saxlanılmasının və ya azadlıqdan məhrum edilməsinin, yaxud öz iradəsi ilə tərk etmə hüququ olmadan dövlət yaxud özəl saxlanma yerinə yerləşdirilməsinin istənilən forması

**Azadlıqdan məhrum edilmiş şəxs** – barəsində azadlıqdan məhrum etmə tətbiq edilmiş şəxs

**Azadlıqdan məhrum etmə yeri** – şəxsin öz iradəsi ilə tərk etmə hüququ olmadan saxlanıldığı və ya saxlanıla bildiyi istənilən yer

**Aparat** – Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Aparatı

**ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı

**BMT** – Birləşmiş Millətlər Təşkilatı

**CÇM** – Cəzaçəkmə müəssisəsi

**CİM** – Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi

**CM** – Azərbaycan Respublikasının Cinayət Məcəlləsi

**DİQ** –Cəzaçəkmə müəssisələrinin Daxili İntizam Qaydaları

**DİN** – Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi

**DMX** – Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti

**DTX** – Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti

**ƏƏSMN** – Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

**ƏN** – Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi

**FP** – "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolu

**HP** – Azərbaycan Respublikasının Hərbi Prokurorluğu

**İQK**– BMT-nin İşgəncələrin Qarşısının Alınması Komitəsi (CAT)

**İQA** – BMT-nin İşgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəzaların qarşısının alınması üzrə Altkomitəsi (SPT)

**İQAK** – Avropa Şurasının İşgəncənin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzanın qarşısının alınması üzrə Komitəsi (CPT)

**İHOSM** – İnzibati həbs olunanların saxlanılma məntəqəsi

**İİV** – İnsanın İmmunçatışmazlığı Virusu

**İşgəncə** – İşgəncə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəza

**İMM** – Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin İxtisaslaşdırılmış müalicə müəssisəsi

**İT** – İstintaq təcridxanası

**KİV** – Kütləvi informasiya vasitələri

**Konstitusiya Qanunu** – "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu

**Konvensiya** – BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyası"

**QİÇS** – Qazanılmış İmmunçatışmazlığı Sindromu

**MM** –Penitensiar Xidmətinin Müalicə müəssisəsi

**MN** – Azərbaycan Respublikasının Müdafiə Nazirliyi

**MPQ** – Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Aparatında İşgəncələrin qarşısının alınması üzrə Milli preventiv qrup

**MPM** – BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolunda nəzərdə tutulmuş milli preventiv mexanizm

**MSY** – Müvəqqəti saxlama yeri

**MTCM** –Penitensiar xidmətinin məntəqə tipli cəzaçəkmə müəssisəsi

**Müvəkkil** – Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman)

**PB** –Polis bölməsi

**PX** – Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti

**RPİ** – Rayon polis idarəsi

**RPŞ** – Rayon polis şöbəsi

**SN** – Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi

**Şöbə** – Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Aparatının İşgəncələrin qarşısının alınması şöbəsi

**ŞPİ** – Şəhər polis idarəsi

**ŞPŞ** – Şəhər polis şöbəsi

**ŞRPŞ** – Şəhər rayon polis şöbəsi

**TN** – Azərbaycan Respublikasının Təhsil Nazirliyi

**TSEK** – Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Tibbi sosial ekspert komissiyası

**TSH** – Tibbi-sanitar hissə

# BÖLMƏ 1.

# FAKÜLTATİV PROTOKOLA ƏSASLANAN MİLLİ PREVENTİV MEXANİZMİN MANDATI

## 1.1. FP-nin tələbləri

Müvəkkil 2016-ci ildə də BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə" Konvensiyasının Fakültativ Protokolunda (FP) nəzərdə tutulmuş milli preventiv mexanizmin (MPM) funksiyalarını yerinə yetirən təsisat qismində müvafiq sahədə fəaliyyətini davam etdirmişdir.

Məlumdur ki, FP[1]-nin əsas məqsədi işgəncələrin qarşısının alınması üçün azadlıqdan məhrum edilmiş şəxslərin saxlanıldığı yerlərə[2] müstəqil beynəlxalq və milli orqanlar tərəfindən müntəzəm başçəkmələrin həyata keçirilməsi sisteminin yaradılmasından ibarətdir. FP konstruktiv dialoqun vacibliyini və tənzimlənən münasibətlərə reaksiyaya verilməsi baxımından, preventiv – qarşısını alma tədbirlərinin görülməsini vurğulayır. FP-nin innovativliyi, həm də onun hər hansı yeni hüquq və ya standartı, yaxud pozulmuş hüquqların bərpasını deyil, mövcud standartın, yəni işgəncəyə məruz qalmamaq hüququnun pozulmasının qarşısının alınmasını əks etdirməsində təzahür edir.

İşgəncələrin qarşısının alınmasının ən əlverişli üsulu kimi, bütün azadlıqdan məhrumetmə yerlərində saxlanılan şəxslərlə rəftar və saxlanma şəraitinin monitorinqi məqsədi ilə müstəqil və müntəzəm başçəkmələr sisteminin yaradılması sözü gedən sənədin ehtiva etdiyi əsas ideyadır. FP-yə əsasən, preventiv mandata malik olan beynəlxalq və milli qurumlar yaradılır (buraya İQA və Milli Preventiv Mexanizmlər (MPM-lər) daxildir). Beynəlxalq səviyyədə yaradılmış İQA BMT-nin yeni nəsil saziş qurumudur.

FP-nin 17-ci maddəsinin tələblərinə görə hər bir iştirakçı dövlət tərəfindən protokolun qüvvəyə minməsindən və ya onun ratifikasiyasından, yaxud ona qoşulmasından sonra bir ildən gec olmayaraq dəstəklənməli, təyin və ya təsis edilməli olan MPM azadlıqdan məhrumetmə yerlərində saxlanılan şəxslərlə rəftar və saxlanma şəraitinin milli səviyyədə müntəzəm monitorinqini aparan qurumdur. MPM-lərin mandatı ən azı aşağıdakıları əhatə edir:

---

[1] "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolu BMT Baş Məclisinin 18 dekabr 2002-ci il tarixli 57/199 saylı qətnaməsi ilə qəbul edilmiş, 22 iyun 2006-cı il tarixdə, 20 dövlət tərəfindən ratifikasiya edildikdən sonra qüvvəyə minmişdir;

[2] FP-nin 4-cü maddəsinin 2-ci bəndinin tələblərinə görə, FP-nin məqsədləri üçün azadlıqdan məhrum etmə dedikdə şəxsin hər hansı məhkəmə, inzibati və ya digər orqanın qərarı ilə həbsdə saxlanılmasının və ya azadlıqdan məhrum edilməsinin, yaxud öz iradəsi ilə tərk etmə hüququ olmadan dövlət, yaxud özəl saxlanma yerinə yerləşdirilməsinin istənilən forması başa düşülür.

- azadlıqdan məhrum edilmiş şəxslərlə rəftarla bağlı məsələlərə müntəzəm olaraq baxılması;

- BMT-nin müvafiq normaları nəzərə alınmaqla azadlıqdan məhrum edilmiş şəxslərlə rəftarın və onların saxlanma şəraitinin yaxşılaşdırılması məqsədi ilə müvafiq qurumlara tövsiyələrin təqdim edilməsi və işgəncələrin qarşısının alınması;

- qüvvədə olan qanunvericilik aktlarına və qanun layihələrinə dair təklif və qeydlərin təqdim edilməsi.[3]

Göstərilən mandatın uğurla həyata keçirilməsi üçün, MPM-lərin yaradılması zamanı onların funksional müstəqilliyinin, habelə işçi heyətinin müstəqilliyinin təmin olunması əsas şərtdir.[4]

FP həmçinin MPM-lərin aşağıdakı əsas hüquqlarını təsbit edir:

- azadlıqdan məhrum edilmiş şəxslərin sayı, onlarla rəftar, habelə onların həbsdə saxlanma şəraiti haqqında, həmçinin azadlıqdan məhrum etmə yerlərinin sayı və yerləşdiyi yer haqqında istənilən məlumatı əldə etmək;

- bütün azadlıqdan məhrum etmə yerlərinə buraxılmaq;

- azadlıqdan məhrum edilmiş şəxslərlə və ya müvafiq məlumat verə biləcək istənilən şəxslə fərdi söhbətlər aparmaq;

- baş çəkmək niyyətində olduqları yerləri və söhbət etmək niyyətində olduqları şəxsləri maneəsiz seçmək;

- İQA ilə əlaqələr qurmaq, ona məlumat ötürmək və onunla görüşmək.[5]

## 1.2. Milli qanunvericilik

FP Azərbaycan Respublikası tərəfindən 15 sentyabr 2005-ci il tarixdə imzalanmış, 02 dekabr 2008-ci il tarixli qanunla ratifikasiya edilmişdir.[6] Həmin qanunun dərc edilməsindən etibarən – 15 yanvar 2009-cu il tarixdən FP Azərbaycan Respublikasına münasibətdə qüvvəyə minmişdir. Həmin tarixdə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı[7] ilə FP-də nəzərdə tutulmuş milli preventiv mexanizmin funksiyalarını yerinə yetirən təsisat qismində Müvəkkil müəyyən edilmişdir.

Yeni və kifayət qədər məsuliyyətli vəzifələr fonunda fəaliyyətin daha səmərəli və keyfiyyətli təşkili zərurəti Müvəkkilin mandatının, eləcə də işçi heyətinin səlahiyyət dairəsinin genişləndirilməsini şərtləndirmişdir. Konsti-

---

[3] FP, maddə 19;

[4] FP, maddə 18(1);

[5] FP, maddə 20;

[6] "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolunun təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu (02.12.2008, № 724-IIIQD);

[7] "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolunun icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (13.01.2009, № 112);

tusiya Qanununa edilən əlavə və dəyişikliklərlə[8] Müvəkkilin səlahiyyət dairəsi, eləcə də müstəqilliyi FP-də MPM-lər üçün nəzərdə tutulmuş tələblərə cavab verən səviyyəyə çatdırılmış, həmçinin Müvəkkilin MPM qismində fəaliyyətinin həyata keçirilməsi məqsədi ilə Aparatda şəffaf prosedurlar əsasında Milli Preventiv Qrupun (MPQ-nin) yaradılması, onun üzvlərinə dair tələblər, habelə onların hüquqları və toxunulmazlığının təminatları kimi məsələlər təsbit edilmişdir.

Konstitusiya Qanununa əsasən, milli preventiv mexanizmin funksiyalarının həyata keçirilməsi zamanı Müvəkkil və MPQ üzvləri istənilən vaxt, maneəsiz və əvvəlcədən xəbərdarlıq etmədən polis bölmələrinə, müvəqqəti saxlama yerlərinə, istintaq təcridxanalarına, CÇM-nə qarnizon hauptvaxtlarına, psixiatriya müəssisələrinə və saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi digər yerlərə daxil olmaq; saxlanılan şəxslərlə, habelə müvafiq məlumatı verə biləcək istənilən şəxslə təkbətək və ya zəruri hesab etdiyi halda mütəxəssisin və ya tərcüməçinin iştirakı ilə görüşmək və söhbət etmək; saxlanılan şəxslərin saxlanılmasının qanuniliyini təsdiq edən, eləcə də həmin şəxslərlə rəftara və onların saxlanma şəraitinə aid olan bütün sənədlərlə tanış olmaq və surətlərini almaq; akt tərtib etmək, həyata keçirdiyi tədbirlərin gedişini və nəticələrini protokollaşdırmaq hüququ vardır.[9] Müvəkkilin, səlahiyyətli dövlət orqanlarına müvafiq tövsiyələr vermək və həmin tövsiyələrə müəyyən edilmiş müddətdə cavablar almaq hüququ da adı çəkilən qanunda müəyyən edilmişdir.[10]

Ötən müddət ərzində Müvəkkilin MPM qismində fəaliyyətinin effektiv təşkili məqsədilə qanunvericilik aktları təkmilləşdirilmiş, Müvəkkilin və MPQ üzvlərinin yuxarıda göstərilən səlahiyyətləri barədə müddəalar müvafiq qaydada normativ hüquqi aktlarda təsbit edilmişdir.[11]

---

[8] "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Konstitusiya Qanunu (24.06.2011, № 163-IVKQD).

[9] Konstitusiya Qanunu, maddə 12.2.1; 18-1.2.1;

[10] Konstitusiya Qanunu, maddə 12.2.1;

[11] Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu (20.04.2012, № 324-IVQD); "Psixiatriya yardımı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu (20.04.2012, № 325-IVQD); Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 886 saylı Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi"nin "Hauptvaxt haqqında" 4 saylı əlavəsində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu (20.04. 2012, № 326-IVQD); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 13 may tarixli 65 nömrəli qərarı ilə təsdiq edilmiş "Açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələri haqqında Nümunəvi Nizamnamə"də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (04.07.2012, № 148); Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Kollegi-yasının 2011-ci il 29 dekabr tarixli 7-N nömrəli Qərarı ilə təsdiq edilmiş "Cəzaçəkmə müəssisələrinin Daxili İntizam Qaydaları"nda dəyişikliklər edilməsi barədə

Ombudsmanın MPQ-nin tərkibi Konstitusiya Qanununun 18-1.1-ci maddəsi əsasında 3 il müddətinə ilk dəfə 26.12.2013-cü ildə, müddətin başa çatması ilə 26.12.2016-cı il tarixdə şəffaf tərzdə ikinci dəfə formalaşdırılmışdır.

Müvəkkilin FP-yə uyğun olaraq MPM qismində funksiyalarının səmərəli həyata keçirilməsinin təmin edilməsi məqsədilə BMT-nin İnsan Hüquqları Şurasının Universal Dövri İcmal üzrə İşçi Qrupunun Azərbaycan Respublikasının dövrü məruzələri üzrə verilmiş, habelə İQK (CAT), İQA (SPT) İQAK-ın(CPT)təklif və tövsiyələri də nəzərə alınmışdır.[12]

## 1.3. MPM-in fəaliyyət istiqamətləri

Azərbaycan MPM-nin fəaliyyəti aşağıdakı dörd əsas istiqamət üzrə həyata keçirilən tədbirlərdən ibarətdir:

- Preventiv başçəkmələr – saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərə mütəmadi olaraq, plan üzrə və ya plandankənar, əvvəlcədən xəbərdarlıq edilmədən baş çəkilməsi;
- Hüquqi təhlil – həyata keçirilən fəaliyyətin, eləcə də bu fəaliyyətlə əlaqədar toplanmış məlumatların, həmçinin aidiyyəti üzrə daxil olmuş təklif və tövsiyələrin, mövcud, yaxud layihədə olan qanunvericilik aktlarının nəzəri-təcrübi təhlili, əldə olunmuş nəticələrin ümumiləşdirilməsi və müvafiq təkliflərin hazırlanması;
- Hüquqi maarifləndirmə – işgəncələrin qarşısının alınması işinin təşviqi məqsədi ilə Aparatın əməkdaşları, MPQ üzvləri, saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərin işçiləri, eləcə də belə yerlərdə saxlanılan şəxslər, habelə aidiyyəti təhsil müəssisələri və akademiyaların tələbə-müdavimləri üçün hüquqi maarifləndirmə tədbirlərinin təşkil olunması, müvafiq əyani vəsaitlərin hazırlanıb paylanılması;
- İctimaiyyətlə əlaqələr və beynəlxalq əməkdaşlıq – yerli, regional və beynəlxalq təşkilatlarla, həmçinin xarici ölkə MPM-ləri ilə informasiya mübadiləsinin aparılmasının, həyata keçirilən tədbirlərdə qarşılıqlı iştirakın, həmçinin birgə tədbirlərin təşkilinin təmin olunması, habelə MPM-in fəaliyyətinin KİV-də işıqlandırılmasının təşkili.

---

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Kollegiyasının Qərarı (13.07.2012, № 3-N); “Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu (22.05.2012, № 352-IVQ); “Polis orqanlarının müvəqqəti saxlama yerlərində saxlanılan şəxslərin mühafizəsi və müşayiəti qaydalarına dair Təlimat”ın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Kollegiyasının Qərarı (14.01.2013, № Q1-001-13);

[12]BMT-nin İnsan Hüquqları Şurası tərəfindən 5 iyul 2013-cü il tarixdə qəbul edilmiş Universal Dövri İcmal üzrə İşçi qrupun məruzəsi, (bənd 103.31).

Göstərilənlərlə yanaşı, qeyd olunmalıdır ki, Azərbaycan MPM-nin fəaliyyəti Müvəkkilin şikayətlərə baxmaq mandatı ilə sıx əlaqələndirilmişdir. Belə ki, Aparata daxil olmuş müraciətlərin araşdırılması zamanı toplanmış məlumatlar, o cümlədən şikayətlərin qurumlar və müəssisələr üzrə xüsusi çəkisi preventiv başçəkmələrin planlaşdırılması və həyata keçirilməsi zamanı yönəldici vasitə qismində istifadə olunmuşdur.

Sadalanan istiqamətlər üzrə Müvəkkilin fəaliyyətinin nəticələri, əldə olunmuş uğurlar, təşəbbüsləri, təklif və tövsiyələri onun MPM qismində fəaliyyətinə dair xüsusi hesabatlarında əks etdirilir. Ötən illərin hesabatları Azərbaycan və İngilis dillərində nəşr etdirilmişdir. İndiyədək hazırlanmış hesabatlarda qanunvericiliyin təkmilləşdirilməsi, eləcə də təşkilati problemlərin həllinə yönəlmiş 200-dən artıq təklif və tövsiyə öz əksini tapmışdır ki, onun da yarıdan çoxu praktik həllini tapmış və ya icraya yönəldilmişdir.

Müvəkkilin MPM qismində fəaliyyəti işgəncə və pis rəftara şərait yaradan halları pisləməklə məhdudlaşmır, qarşısı alınan tədbirlərin gücləndirilməsi məqsədilə görülməli işlərlə bağlı müvafiq təsisatlara tövsiyələr verilir, dövlət qurumları, vətəndaş cəmiyyəti institutları, onları birləşdirən İctimai Komitə və digər təsisatlarla əməkdaşlıqda bu məsələlər və preventiv yanaşmalar diqqətdə saxlanılır.

# BÖLMƏ 2.

# MPM-in FƏALİYYƏTİ VƏ PREVENTİV BAŞÇƏKMƏLƏR

## 2.1. Preventiv başçəkmələrin təşkili

Məlum olduğu kimi, saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərə mütəmadi başçəkmələrin həyata keçirilməsi milli preventiv mexanizmlərin fəaliyyətinin əsas istiqamətidir. Azərbaycan MPM-i də onun üzərinə qoyulan vəzifələrin yerinə yetirilməsi istiqamətində prioritetləri müəyyən edərkən əsasən Fakültativ Protokolun məqsədlərini nəzərə alır[13].

Belə ki, Fakültativ Protokolun 20-ci maddəsinin "a" bəndinə əsasən, Milli Preventiv Mexanizmlərin öz mandatını yerinə yetirə bilməsi məqsədilə, iştirakçı dövlətlər Fakültativ Protokolun 4-cü maddəsinin tətbiqi üçün şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrin və orada saxlanılanların sayı, yerləşdiyi yer haqqında istənilən məlumatı təqdim etməyi öhdələrinə götürürlər.

Bu məlumatlar Müvəkkilin sorğusu əsasında müvafiq dövlət orqanlarından alınır və həmin sorğular üzrə daxil olmuş məlumatlar əsasında hazırlanmış illik plana uyğun olaraq başçəkmələr həyata keçirilir. Zərurət yarandıqda, ilin sonunda müvafiq orqanlarla dəqiqləşdirmələr aparılaraq növbəti il üçün məlumatlar yenilənir.

MPM fəaliyyəti çərçivəsində bütün preventiv başçəkmələr əvvəlcədən xəbərdarlıq etmədən həyata keçirilir və bunları *plan üzrə başçəkmələr* və *plandankənar başçəkmələr* olmaqla iki qrupa bölmək olar.

### *2.1.1. Plan üzrə başçəkmələr*

Plan üzrə başçəkmələr Müvəkkil tərəfindən təsdiq olunan illik plan əsasında həyata keçirilir. İllik planın layihəsi hər ilin sonunda növbəti il üçün MPQ üzvlərinin iştirakı ilə keçirilən iclasda müzakirə olunur, nəticələr protokollaşdırılır, qəbul edilmiş plan təsdiq olunmaq üçün Müvəkkilə təqdim edilir. Planın açıqlanmaması başçəkmələrin effektivliyi baxımından çox əhəmiyyətlidir. Bu baxımdan konfidensiallıq MPQ üzvləri tərəfindən təmin olunur.

Bu və ya digər müəssisənin plana hansı ardıcıllıqla daxil edilməsi, həmçinin müəssisəyə təkrar başçəkmələrin təyin edilməsi həmin müəssisənin rejiminin xüsusiyyəti, ötən illərdə şərait və rəftarla əlaqədar qeydə alınmış hallar, ərazi uyğunluğu, eləcə də Müvəkkilin ünvanına daxil olmuş şikayətlərin təhlili nəticəsində MPQ-yə verilmiş məlumatlar kimi amillər nəzərə alınmaqla aparılır.

---

[13] "İşgəncələrə və digər qəddar, qeyri-insani yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı Konvensiya"nın Fakültativ Protokolu, maddə 1;

Başçəkmənin həyata keçirilməsi üçün sərf olunan vaxt isə müəssisədən, orada saxlanılan şəxslərin sayından, rejim və digər xüsusiyyətlərindən, eləcə də başçəkməyə cəlb olunmuş MPQ üzvlərinin sayından asılı olaraq dəyişir.

### *2.1.2. Plandankənar başçəkmələr*

Plandankənar başçəkmələr əsas etibarilə əvvəlki başçəkmələr zamanı verilmiş tövsiyələrin icrası vəziyyətinin öyrənilməsi, MPM-ə bu və ya digər formada məlumat ötürmüş şəxslərə qarşı təqib hallarının baş verməsinin qarşısının alınması, o cümlədən saxlanılan şəxslərlə aparılan söhbət zamanı onların əvvəllər saxlanıldıqları müəssisə haqqında verdikləri məlumatların və Müvəkkilin ünvanına daxil olmuş şikayətlərin, qaynar xəttinə daxil olmuş müraciətlərin təhlili, MPQ-yə verilmiş məlumatların araşdırılması, kütləvi informasiya vasitələrində rast gəlinən və MPM-i maraqlandıran informasiyaların yerində yoxlanılması, habelə Müvəkkilin təşəbbüsü ilə həyata keçirilir.

## 2.2. Başçəkmələrin həyata keçirilməsi

Başçəkmələrin effektivliyinin təmin olunması üç əsas mərhələnin əhatə olunmasını tələb edir. Bunlar nəzərə alınaraq Azərbaycan MPM-i tərəfindən başçəkmələr aşağıdakı mərhələlər üzrə həyata keçirilir:

- başçəkməyə hazırlıq;
- başçəkmənin həyata keçirilməsi;
- başçəkmədən sonrakı tədbirlər.

*Başçəkməyə hazırlıq* adətən iki iş gününədək davam etməklə zəruri məlumatların toplanılması; başçəkmənin məqsədlərinin müəyyən edilməsi; başçəkməni həyata keçirəcək qrupun təşkil edilməsindən ibarət olur.

Hazırlıq zamanı, zəruri məlumatların toplanılması prosesində əvvəlki başçəkmələrdə əldə edilmiş və ya digər mənbələrdən alınmış məlumatlar, Müvəkkilin ünvanına daxil olmuş müraciətlər, KİV-lərdən alınmış məlumatlar, habelə bəşçəkmənin həyata keçiriləcəyi müəssisənin fəaliyyətini tənzimləyən normativ-hüquqi aktlar və beynəlxalq standartlar təhlil edilir.

Başçəkmənin məqsədləri saxlanılma şəraitinin və rəftarın ümumən qiymətləndirilməsindən; saxlanılma şəraiti və rəftarla bağlı konkret halların öyrənilməsindən (məsələn, intizam cəzalarının həyata keçirilməsi, tibbi xidmətin keyfiyyəti və s.); əvvəlki başçəkmələr zamanı aşkar olunmuş halların aradan qaldırılıb-qaldırılmamasının, habelə verilmiş təklif və tövsiyələrin icrası vəziyyətinin yoxlanılmasından; xüsusi diqqət yetirilməli olan məsələlərin dairəsinin müəyyənləşdirilməsindən və digər tədbirlərdən ibarət olmaqla müəyyən edilir.

Başçəkməni həyata keçirəcək qrupun təşkil edilməsi zamanı qrup üzvləri-

nin sayı, ixtisası, cinsi və s. amillər nəzərə alınmaqla başçəkmə qrupunun tərkibi formalaşdırılır, başçəkmənin məqsədindən asılı olaraq başçəkmə və müsahibə suallarının siyahısı, məhkumlarla söhbətin, həyata keçiriləcək tədbirlərin gedişi və nəticələrinin protokollaşdırılması üçün akt formaları, sorğu anketləri və s. hazırlanır.

*Başçəkmənin həyata keçirilməsi* özündə bir neçə mərhələni ehtiva edir:

Əvvəlcə müəssisənin rəhbərliyi ilə ilkin söhbət aparılır, söhbət zamanı qrup üzvləri özlərini təqdim edir, başçəkmənin məqsədi barədə onu məlumatlandırırlar. Daha sonra müəssisə barədə ümumi məlumat alınır.

Müəssisənin rəhbərliyi ilə ilkin söhbətdən sonra müəssisənin binalarına baş çəkilir. Bu zaman müəssisədə saxlanılma şəraiti – müəssisənin binasının, kamera və ya otaqların vəziyyəti, ölçüsü, tutumu, faktiki yerləşmə, işıqlandırma, ventilyasiya, mebel təchizatı, şəxsi gigiyena və sanitariya şəraiti, qidalanma məsələləri qiymətləndirilir; tibbi xidmətlərin təmin olunması vəziyyəti, mövcud sənədləşmə və s. araşdırılır.

Daha sonra sənədlərə baxış keçirilir, saxlanılan şəxslərlə kollektiv və ya təkbətək, konfidensial şəkildə söhbət aparılır. Saxlanılan şəxslərlə kollektiv söhbətlərin aparılması əsas etibarilə başçəkmənin məqsədindən asılıdır. Vəziyyətdən asılı olaraq söhbətlərin hansı şəkildə aparılmasını MPQ üzvləri başçəkmə yerində müəyyən edə, yaxud ilkin razılaşmaya düzəliş edə bilər.

Müəssisə əməkdaşları ilə söhbət də başçəkmənin vacib məsələlərindəndir. MPQ üzvləri başçəkmə həyata keçirərkən saxlanılan şəxslərə görə cavabdehlik daşıyan müəssisə əməkdaşlarının rəftar baxımından yanaşmalarını qiymətləndirmək məqsədi ilə onlarla müsahibələr təşkil edirlər. Bəzi hallarda müəssisələrin personalı ilə söhbətlə yanaşı onlar üçün nəzərdə tutulmuş xüsusi sorğu anketlərindən də istifadə olunur.

Başçəkmənin sonunda müəssisə rəhbəri ilə yekun söhbət aparılaraq MPQ tərəfindən aşkar edilmiş hallarla bağlı məlumat verilir. Yerində aradan qaldırıla biləcək məsələlər onun diqqətinə çatdırılır və müvafiq tövsiyələr verilir. Eyni zamanda nəticələrlə bağlı müvafiq orqanın rəhbərliyinə müraciət ediləcəyi bildirilir.

*Başçəkmədən sonrakı tədbirlər.* MPM-in fəaliyyətinin məqsədi yalnız müvafiq yerlərə başçəkmədən ibarət deyil və müxtəlif müəssisələrdə saxlanılan şəxslərlə rəftarın və onların saxlanılma şəraitinin yaxşılaşdırılmasına istiqamətlənmiş fəaliyyətin təşkili dəbu prosesə daxildir.

Məhz ona görə də başçəkmədən sonra onun nəticələrinə dair hesabat tərtib edilir, rəftar və şəraitin yaxşılaşdırılması üçün tövsiyələr hazırlanaraq müvafiq qurumlara göndərilir.

Adətən MPQ-nin zəruri hesab etdiyi hallarda başçəkmədən sonrakı yaxın dövr ərzində müəssisə ilə əlaqədar verilmiş tövsiyələrin icrası vəziyyətinin yerində yoxlanılması məqsədi ilə təkrar başçəkmə günü təyin edilir və müvafiq olaraq həyata keçirilir.

2016-ci ildə MPQ üzvləri tərəfindən saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərə plan üzrə 254, plandankənar isə 83 olmaqla, cəmi 337 başçəkmə həyata keçirilmişdir.

Müvafiq olaraq DİN-in tabe müəssisələrində 204, ƏN-in müəssisələrində 65, DTX-nin müəssisələrində 4, MN-in müəssisələrində1, DMX-nin müəssisələrində 2, SN-in müəssisələrində 23, ƏƏSMN-in müəssisələrində 6, TN-nin müəssisələrində 27, yerli icra hakimiyyəti orqanlarının müəssisələrində 5 başçəkmə keçirilmişdir.

Şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrdə fərdi qaydada sayca 2000-dən çox şəxslə, habelə bu müəssisələrdə çalışan 500-ə qədər əməkdaşla hüquqi maarifləndirici söhbətlər aparılmışdır.

MPM fəaliyyəti çərçivəsində preventiv başçəkmələr – saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərə mütəmadi olaraq, plan üzrə və ya plandankənar olmaqla və bütün hallarda əvvəlcədən xəbərdarlıq edilmədən həyata keçirilmişdir.

Ötən illərdə olduğu kimi, cari il ərzində də aşkar olunmuş çatışmazlıqların aradan qaldırılması, saxlanılma şəraitinin təkmilləşdirilməsi üçün müəssisə rəhbərlərinə, habelə aidiyyəti nazirliklərə müvafiq təklif və tövsiyələr verilmiş, həmin orqanlar tərəfindən hər bir tövsiyə üzrə uyğun tədbirlər həyata keçirilərək görülmüş işlərin nəticələri barədə MPM-in funksiyalarını həyata keçirən Müvəkkilə məlumat verilmişdir.

Hər il planlı və plandankənar şəkildə şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrdə həyata keçirilən başçəkmələr zamanı müraciət edən çoxsaylı şəxslə təklikdə və konfidensial görüşlər keçirilməklə yanaşı, onların müraciətləri qəbul edilmiş və yerində araşdırılmışdır.MPQ-yə çatdırılan müraciətlər nəzərə alınmaqla müvafiq tədbirlər görülmüş, hüquqi məsləhətlər verilmiş, icraata qəbul edilməsi təmin edilmişdir.

Başçəkmələrdə, habelə saxlanılan şəxslərdən, onların ailə üzvlərindən və vəkillərindən, hüquq müdafiəçilərindən aparata və qaynar xətlərə, eyni zamanda qeyri-hökumət təşkilatlarından və Beynəlxalq Qızıl Xaç Komitəsindən Müvəkkilə ünvanlanmış müraciətlər üzrə aparılmış araşdırmalar da daxil olmaqla, çoxsaylı şəxslər qəbul olunmuşdur.

Bu sahədə olan müraciətlərlə bağlı müvafiq araşdırmalar aparılmış, zərurət yarandıqda isə yoxlanılması üçün Baş Prokurorluğa, Daxili İşlər Nazirliyinə, Ədliyyə Nazirliyinə və digər əlaqədar dövlət qurumlarına müraciət edilmişdir. Araşdırmaların nəticəsi barədə müraciət edən şəxslər hər bir halda rəsmi qaydada, vaxtında, yazılı surətdə cavablandırılmışlar.

### *2.2.1. Daxili İşlər Nazirliyinin müəssisələri*

2016-cı ildə Ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində müvəqqəti saxlanılma yerlərinə, polis bölmələrinə planlı və plandankənar olmaqla 204 başçəkmə həyata keçirilmişdir.Bu müəssisələrdə

691saxlanılan şəxslə fərdi söhbətlər aparılmış, onların saxlanılma şəraiti qiymətləndirilmiş, saxlanıldıqları müddət ərzində, habelə tutularkən pis rəftara məruz qalıb-qalmamaları araşdırılmışdır.

Ölkə prezidentinin Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramında (MFPr) nəzərdə tutulmuş tədbirlərin icrası işinin əlaqələndirilməsi, təbliği və tətbiqi vəziyyətinin monitorinqi və dəyərləndirilməsi məqsədilə regionlarda dövlət qurumları və vətəndaş cəmiyyəti təsisatları nümayəndələrinin iştirakı ilə respublikanın 57 şəhər və rayonunda ictimai dinləmələr zamanı Müvəkkil tərəfindən rayon (şəhər) polis orqanlarının rəhbərliyi və şəxsi heyəti ilə görüşlər keçirilmiş, onlarla hüquqi maarifləndirmə işi aparılmış, insan hüquq və azadlıqlarının təmin olunmasına xüsusi diqqət yetirilməsinin vacibliyi diqqətə çatdırılmış, bu sahədə əməkdaşlıq məsələləri müzakirə edilmiş, təsisatın hüquqi nəşrləri, tədris vəsaitləri, təqdim edilmiş, həmin vəsaitlərin öyrənilməsi, treninq və təlimlərdə istifadə olunması, təcrübədə tətbiqi tövsiyə olunmuşdur. Bununla yanaşı, Ombudsmanın "Qaynar xətt" nömrələrinin əks olunduğu müvafiq elanlar monitorinq edilmiş və olmayan yerlərdə qaynar xəttə dair plakatlar təqdim olunmaqla əlçatanlığı təmin edilmişdır.

Müvəqqəti saxlanılma yerlərinə keçirilmiş başçəkmələr zamanı isə, polis orqanlarına gətirilən şəxslərin bu və ya digər şəkildə pis rəftara məruz qalma ehtimalının olub-olmaması da araşdırma predmeti olmuş və həmin şəxslərə münasibətdə məlumatların konfidensiallığı təmin edilmişdir.

Bu müəssisələrdə insan hüquqlarının daha etibarlı təmin edilməsi istiqamətində tədbirlərin davam etdirildiyi, müvəqqəti saxlama yerlərində mövcud saxlanılma şəraitinin müasir standartlara uyğun olaraq yaxşılaşdırılması, maddi-texniki bazanın yenidən qurulması və təkmilləşdirilməsi istiqamətində işlərin həyata keçirildiyi müşahidə edilmişdir. Bununla yanaşı, saxlanılan şəxslərə qarşı münasibətin yaxşılaşdırılması, müəyyən edilmiş nöqsanların və onlara şərait yaradan halların aradan qaldırılması üçün müvafiq işlərin görüldüyü, MSY-lərin işinə nəzarətin gücləndirildiyi müşahidə edilmişdir.

2016-cı il ərzində respublikanın polis orqanlarının müvəqqəti saxlama yerlərində beynəlxalq normalara və standartlara cavab verən şəraitin yaradılması məqsədilə, Gədəbəy,Qazax, Balakən, Hacıqabul,Yardımlı, Masallı şəhər-rayon polis orqanlarının yeni MSY-lərinin inşa olunduğu,Sabirabad, Şəki və Qəbələ polis orqanlarının MSY-lərində və digərlərində və ya təmir və yenidənqurma işlərinin davam etdirildiyi müşahidə olunmuşdur.

Bunlarla yanaşı, beynəlxalq standartlar əsasında qanunvericiliyin bir sıra normalarının praktik tətbiqinə nail olunmuşdur. Belə ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 18 aprel tarixli, 67 nömrəli qərarı ilə təsdiq edilmiş "Tutulmuş və ya həbs edilmiş şəxslərə tibbi və

psixoloji yardım göstərilməsi, habelə onların tibb müəssisələrində saxlanılması Qaydaları"na əsasən, tibb işçisi müayinələri digər şəxslərin iştirakı olmadan aparır. Müstəsna hallarda həkimin təhlükəsizliyini təmin etmək və saxlanılan şəxsin özünə xəsarət yetirməsinin qarşısının alınması məqsədilə müayinə polis əməkdaşının müşayiəti altında həyata keçirilir.

Bu məsələ ilə bağlı DİN-ə ünvanlanmış müraciətlərə verilmiş cavablarda, müəyyən edilmiş çatışmazlıqların aradan qaldırıldığı, bütün ərazi polis orqanlarının "Tibbi kitabça"larla təchiz edildiyi, ilkin tibbi müayinənin aparılması üçün ərazi üzrə dövlət tibb müəssisələrində ayrıca həkim personalının müəyyənləşdirildiyi, DİN-in SN ilə qarşılıqlı əlaqədə zəruri tədbirlərin görüldüyü barədə məlumatlar yer almışdır.

Qanunvericiliyə uyğun olaraq, tutulmuş və həbs edilmiş şəxslər MSY-yə yerləşdirilməzdən əvvəl həkim müayinəsindən və sanitar təmizləmədən keçirilir, habelə tibbi yardım barədə müraciətlərin və ya belə yardımdan imtinaların rəsmi qeydiyyatı aparılır. Tibbi rəyə əsasən səhhəti ilə əlaqədar saxlanılması məqsədəuyğun sayılmayan tutulmuş şəxslər müşayiət olunmaqla, müalicə olunmaları üçün səhiyyə orqanlarının müalicə müəssisələrinə göndərilir.

Polis orqanlarına gətirilmə, saxlanılma və məsuliyyət tədbirlərinin tətbiqi prosesində qanunçuluğa riayət olunması, insan hüquq və azadlıqlarının təmin edilməsi kimi vacib məsələlər MPM-in təklif və tövsiyələrinə uyğun olaraq, DİN tərəfindən nəzarətdə saxlanılmışdır.

Nəticə etibarı ilə, yuxarıda qeyd olunduğu kimi MSY-lərin çoxunda saxlanma şəraitinin müasir standartlara uyğunlaşdırıldığı, yeni saxlanma yerlərinin inşa edildiyi, ilkin tutulma zamanı kobud rəftara məruz qalma ilə bağlı daxil olan iddiaların azaldığı, bu sahəni tənzimləyən normativ sənədlərin insan hüquqları baxımından təkmilləşdirildiyi, saxlanma yerlərinə nəzarətin və diqqətin artırıldığı, habelə digər müsbət nəticələrin əldə edildiyi müəyyən olunmuşdur.

Aşkar olunmuş pozuntuların araşdırılması ilə bağlı, MPM qismində Müvəkkilin DİN-ə müraciətləri diqqətdə saxlanılmış, pozuntular aradan qaldırılmış, təqsirkar şəxslər qanunvericilik çərçivəsində cəzalandırılmış və bu barədə digər polis orqanları məlumatlandırılmışdır ki, bu da səmərəli əməkdaşlığa mühüm töhfədir.

***Abşeron RPİ-nin MSY-nə*** MPQ üzvləri tərəfindən Fakültativ Protokolun tələblərinə uyğun olaraq əvvəlcədən xəbərdarlıq edilmədən həyata keçirilmiş başçəkmə zamanı Müvəqqəti saxlama yerinin (MSY) bütün kameralarına baxış keçirilmiş, saxlanılan şəxslər fərdi qaydada qəbul edilmiş, habelə müvafiq sənədləşmə və qeydiyyat jurnalları öyrənilmişdir.

Təkbətək qəbul edilmiş saxlanılan şəxslər MSY əməkdaşlarının onlarla rəftarından və müəssisədə saxlanılma şəraitindən şikayət etməmişlər.

Başçəkmə zamanı MSY-nin kameralarda saxlanılan inzibati həbs olun-

muş şəxslərin, o cümlədən təqsirləndirilən şəxslərin hüquq və vəzifələrinin əks olunduğu yazılı lövhələrin asılmasına, saxlanılan şəxslərin gigiyenik vasitələrlə və mələfələrlə təminatının yaxşılaşdırılmasına, kətillərin sayının saxlanılan şəxslərin sayına uyğunlaşdırılmasına, gəzinti yerinin üstünün bir hissəsinin dam örtüyü ilə bağlanmasına və sənədləşmənin aparılması işinin təkmilləşdirilməsinə ehtiyacın olması müəyyən edilərək MSY rəisinin və idarə rəhbərliyinin diqqətinə çatdırılmış, onların aradan qaldırılması istiqamətində müzakirələr aparılaraq müvafiq tövsiyələr verilmişdir.

*Qeyd olunan nöqsanlar milli qanunvericiliklə yanaşı, bir sıra beynəlxalq sənədlərdə əks olunmuş tələblərə əsaslanır.Məsələn, "azadlıqdan məhrum edilmiş şəxslər hüquqlarından xəbərsizdirlərsə,polis tərəfindən həbsə alınmış şəxslərə onların hüquqları barədə gecikdirilmədən və anlaşılan dildə məlumat verilməlidir. Bunun təmin olunması üçün polis tərəfindən həbsə alınmış şəxslərə həbsə alınmalarının başlanğıcında hüquqlarının dəqiq əks olunduğu yazılı formalar sistematik olaraq verilməlidir".[14]Bu baxımdan saxlanılan şəxslərin hüquq və vəzifələrinin əks olunduğu yazılı lövhələrin olmaması ilə bağlı məsələ narahatlıq doğurmaya bilməz.*

*Eyni zamanda saxlanma şəraiti ilə bağlı müvafiq standartlara görə, kameralar dincəlmək üçün vasitələrlə (döşəməyə bərkidilmiş stul və ya skamya ilə)tam təchiz olunmalı, gecəni həbsdə keçirməli olan şəxslər isə təmiz döşəklərlə və örtüklə təmin olunmalıdırlar.*[15]

***Xətai RPİ-nin MSY-də*** əvvəlcədən xəbərdarlıq edilmədən həyata keçirilmiş planlı və plandankənar başçəkmələrdə məqsəd saxlama şəraitinin və rəftarın araşdırılması, "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa və Müvəqqəti saxlama yerlərinin Daxili İntizam Qaydalarına uyğun şəkildə saxlanılan şəxslərin hüquqlarının təmin olunması, o cümlədən sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Başçəkmələr zamanı MSY-də saxlanılan şəxslər MPQ üzvləri tərəfindən fərdi qaydada dinlənilmiş, müraciətləri qəbul edilmiş və cavablandırılmış, onlara hüquqları və Ombudsmanın səlahiyyətləri izah olunmuş, hüquqi məsləhətlər verilmişdir. Bunlarla yanaşı, həmin şəxslərin saxlanılmasının qanuniliyini təsdiq edən, habelə onlara qarşı rəftara və onların saxlanma şəraitinə aid olan sənədlər araşdırılmış, MSY-nin kameralarına baxışlar keçirilmiş, qidalanma, tibbi yardım, gəzinti, görüş, telefon danışıqları, kameradan çıxarılma və sovqat ilə bağlı sənədləşmə yoxlanılmış, mövcud ehtiyaclar öyrənilmişdir.

Saxlanılan şəxslər MSY əməkdaşlarının onlarla rəftarından və müəssisədə saxlanılma şəraitindən şikayət etməmişlər.

---

[14] İQAK-nin fəaliyyətinə dair 2-ci Ümumi Hesabat,CPT/İnf 2002, § 44.
[15] İQAK-nin fəaliyyətinə dair 12-ci Ümumi Hesabat,CPT/İnf 2002, § 47.

Qeyd olunanlarla yanaşı, müəssisəyə əvvəlki başçəkmələr zamanı Ombudsmanın MPM fəaliyyəti çərçivəsində verilmiş, *siqaret çəkən və çəkməyən şəxslərin ayrı saxlanılması, ilkin tibbi yardım üçün nəzərdə tutulmuş ayrıca dolabda dərman preparatlarının saxlanılmasının təşkili və istifadə müddətininə riayət edilməsi, tibb jurnalında və tibbi kitabçalarda müvafiq qeydlərin vaxtında və düzgün aparılması kimi* tövsiyələrin bir çoxunun icra edildiyi məlum olmuşdur.

Lakin *MSY-də saxlanılan şəxslərin gəzinti yerinin üstünün yağışdan və digər təsirlərdən qorunmaq üçün bağlanmalı olan hissəsinin bağlanmadığı, xidməti otaqlarının sayının məhdudluğundan bir otağın bir neçə məqsəd üçün istifadə olunduğu müşahidə olunmuşdur.*

*Beynəlxalq standartlara görə, Polis məntəqəsində 24 saat və daha artıq saxlanılan şəxslərə imkan daxilində hər gün açıq havada fiziki hərəkətlər etmək təklif olunmalıdır. Bu baxımdan gəzinti yerinin müvafiq standartlara cavab verməsi və təmir edilməsi xüsusən vacibdir.*

Başçəkmənin sonunda yuxarıda göstərilən nöqsanların aradan qaldırılması, habelə saxlanma şəraitinin təkmilləşdirilməsinə və rəftar məsələlərinə dair MPQ üzvləri tərəfindən MSY rəisinə müvafiq tövsiyələr verilmişdir.

***Sabunçu RPİ-nin MSY-də*** həyata keçirilmiş başçəkmə çərçivəsində saxlanılan şəxslərin saxlanılmasının qanuniliyini təsdiq edən, habelə həmin şəxslərlə rəftara və onların saxlanma şəraitinə aid olan sənədlər araşdırılmış, MSY-lərin bütün kameralarına baxışlar keçirilmiş, qidalanma, tibbi yardım, gəzinti, görüş, telefon danışıqları, kameradan çıxarılma və sovqat ilə bağlı sənədləşmə yoxlanılmış, mövcud ehtiyaclar öyrənilmişdir.

Başçəkmə zamanı MPQ üzvləri tərəfindən MSY-də saxlanılan əcnəbi vətəndaş - T. M. B ilə fərdi qaydada aparılan söhbət zamanı ona hüquqları və Ombudsmanın səlahiyyətləri izah olunmuş, hüquqi məsləhətlər verilmişdir. O, saxlanma şəraiti və rəftarla bağlı şikayət etməmişdir.

Yekunda MSY-nin rəhbərliyinə "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa və Müvəqqəti saxlama yerlərinin daxili intizam Qaydalarına *uyğun qeydiyyat jurnallarının və tibbi sənədləşmənin aparılması işinin təkmilləşdirilməsi* ilə bağlı müvafiq tövsiyələr verilmişdir.

Ombudsmanın Milli Preventiv Qrupunun (MPQ) üzvləri tərəfindən ***Suraxanı RPİ-nin MSY****-nə* əvvəlcədən xəbərdarlıq etmədən planlı başçəkmə həyata keçirilmişdir.İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyanın Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun tələbləri əsasında təşkil olunmuş başçəkmədə məqsəd saxlanılma şəraitinin və rəftarın araşdırılması, saxlanılan şəxslərin hüquqlarının təmin olunması, o cümlədən sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Başçəkmə zamanı MPQ üzvləri tərəfindən MSY-də saxlanılan şəxslər fərdi qaydada qəbul edilmiş, aparılan söhbət zamanı onlara hüquqları və Ombudsmanın səlahiyyətləri izah olunmuş, hüquqi məsləhətlər verilmişdir. Saxlanılan şəxslər saxlanma şəraiti və rəftarla bağlı şikayət etməmişdir.

Bu müəssisədə də əvvəlki başçəkmələr zamanı saxlanılan şəxslərin hüquqlarının effektiv təmini məqsədilə Ombudsmanının MPM fəaliyyəti çərçivəsində verilmiş tövsiyələrin icra olunduğu, *MSY-nin kameralarında şəraitin müasir standartlara cavab verdiyi, lakin sanitar təmizləmə otağında gigiyenik vəziyyətin yaxşılaşdırılmasına diqqətin artırılmasına ehtiyacın olduğu müşahidə olunmuşdur.*

Başçəkmənin yekununda Suraxanı RPİ-nin və MSY-nin rəhbərliyi ilə milli və beynəlxalq standartlar əsasında saxlanılma şəraiti və rəftar məsələləri ilə bağlı müzakirələr aparılmış, İQAK tövsiyələri, "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu və Müvəqqəti saxlama yerlərinin daxili intizam Qaydalarına uyğun tövsiyələr verilmişdir.

***Nərimanov RPİ-nin MSY-nə*** əvvəlcədən xəbərdarlıq edilmədən planlı başçəkmə həyata keçirilmiş və bu başçəkmə İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyanın Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun tələbləri əsasında təşkil olunmuşdur.

Başçəkmə çərçivəsində MSY-də saxlanılan şəxslər MPQ üzvləri tərəfindən fərdi qaydada qəbul edilmiş, müraciətləri cavablandırılmış, onlara hüquqları və Ombudsmanın səlahiyyətləri izah olunmuş, hüquqi məsləhətlər verilmişdir. Saxlanılan şəxslər müəssisədə şəraitdən və xidmət əməkdaşlarının onlarla rəftarından narazılıq etməmişlər.

MPQ-nin üzvləri tərəfindən MSY əməkdaşlarına ünvanlanan hüquqi maarifləndirmə işi də aparılmışdır. Yekunda MSY rəhbərliyinə "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa və Müvəqqəti saxlama yerlərinin daxili intizam Qaydalarına uyğun şəkildə *ilkin tibbi yardım üçün nəzərdə tutulmuş ayrıca dolabda dərman preparatlarının saxlanılmasının təşkili və istifadə müddətinə riayət edilməsi* ilə bağlı müvafiq tövsiyələr verilmişdir.

***Səbail RPİ-nin MSY-nə*** Ombudsmanın Milli Preventiv Qrupunun üzvləri tərəfindən əvvəlcədən xəbərdarlıq etmədən başçəkmə həyata keçirilmişdir.

Başçəkmə çərçivəsində saxlanılan şəxslərin saxlanılmasının qanuniliyini təsdiq edən, habelə həmin şəxslərlə rəftara və onların saxlanılma şəraitinə aid olan sənədlər araşdırılmış, MSY-lərin bütün kameralarına baxışlar keçirilmiş, qidalanma, tibbi yardım, gəzinti, görüş, telefon danışıqları, kameradan çıxarılma və sovqat ilə bağlı sənədləşmə yoxlanılmış, mövcud ehtiyaclar öyrənilmişdir.

Başçəkmə zamanı MPQ üzvləri tərəfindən MSY-də saxlanılan şəxslərlə - Ə.R. və M.Ş.ilə fərdi qaydada aparılan söhbət zamanı onların müraciətləri cavablandırılmış, hüquqları və Ombudsmanın səlahiyyətləri izah olunmuş, hüquqi məsləhətlər verilmişdir. Saxlanılan şəxslər müəssisədə şəraitdən və xidmət əməkdaşlarının onlarla rəftardan narazılıq etməmişlər.

*MSY-nin kameralarında təbii işıqlanmaya RPİ-nin inzibati binasının quruluşu və yerləşməsi maneə yaratdığından İQAK-nın fəaliyyətinə dair 2-ci Ümumi Hesabatda əksini tapmış tövsiyələrə əsaslanmaqla saxlanılan şəxslərin gəzinti yerində daha çox qalmalarına imkan yaradılması və sənədləşmənin aparılması işinin təkmilləşdirilməsi ilə bağlı müvafiq tövsiyələr verilmişdir.*

Başçəkmə çərçivəsində MSY rəhbərliyinə göstərilən məsələlərə riayət olunması ilə bağlı müvafiq tövsiyələr verilmiş, milli və beynəlxalq standartlar əsasında xidmət əməkdaşlarına ünvanlanan hüquqi maarifləndirmə işi aparılmışdır.

***Səbail RPİ-nin 41-ci Polis bölməsinə*** MPQ üzvləri tərəfindən əvvəlcədən xəbərdarlıq etmədən başçəkmələr həyata keçirmişdir.

Başçəkmədə məqsəd bölmədə saxlanılan şəxslərin hüquqlarının təmin olunması, rəftar məsələlərinin araşdırılması, o cümlədən müvafiq sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Bölmənin inzibati binası yeni istifadəyə verildiyindən, araşdırma məqsədilə saxlanılma kameralarında şəraitinin normal olduğu, başçəkmə zamanı saxlanılan hər hansı bir şəxsin olmadığı məlum olmuşdur.

Sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi məqsədilə polis bölmələrində "Polis orqanlarına gətirilmiş şəxslərin, habelə yetkinlik yaşına çatmayanların qeydiyyatı jurnalları" yoxlanılmışdır. *Jurnalların aparılması zamanı müvafiq bölmələrdə qaralamaların olduğu müşahidə edilmiş* və belə halların aradan qaldırılması məqsədilə bölmə rəhbərliyinə müvafiq tövsiyələr verilmiş, vətəndaşların bölməyə dəvət olunduğu zaman, habelə şübhəli şəxs qismində cəlbetmə zamanı hüquqlarının effektiv təmin olunması ilə bağlı xidmət əməkdaşları ilə hüquqi maarifləndirici söhbətlər aparılmışdır.

***Binəqədi RPİ-nin 4-cü və 6-cı PB-də*** əvvəlcədən xəbərdarlıq etmədən başçəkmələr həyata keçirilmişdir.

İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyanın Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun tələbləri əsasında təşkil olunmuş başçəkmələr zamanı polis bölmələrində, əməkdaşların xidməti otaqlarında saxlanılan şəxs olmamışdır.

*Başçəkmə çərçivəsində hər iki bölmə rəhbərliyinə araşdırma otaqlarında şəraitin təkmilləşdirilməsi, vətəndaşların bölməyə dəvət olunduğu zaman, habelə şübhəli şəxs qismində cəlbetmə zamanı hüquqlarının effektiv təmin olunması ilə bağlı müvafiq tövsiyələr verilmişdir.*

***Yasamal RPİ-nin 26-cı, 27-ci, 28-ci və 29-cu PB-də*** əvvəlcədən xəbərdarlıq etmədən başçəkmələr həyata keçirmişdir.

İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyanın Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun tələbləri əsasında təşkil olunmuş başçəkmələr zamanı polis bölmələrində saxlanılan şəxs olmamış, əməkdaşların xidməti otaqlarına baxışlar keçirilmişdir.

Başçəkmələrdə məqsəd saxlanılma şəraitinin və rəftarın araşdırılması, saxlanılan şəxslərin hüquqlarının təmin olunması, o cümlədən müvafiq sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur. Saxlanılma şəraitinin araşdırılması məqsədilə müvəqqəti saxlama kameralarına baxışlar keçirilmiş, polis bölmələrində "Polis orqanlarına gətirilmiş şəxslərin, habelə yetkinlik yaşına çatmayanların qeydiyyatı jurnalları" üzrə sənədləşmə yoxlanılmışdır.

*26 və 28-ci polis bölmələrində araşdırma məqsədilə saxlama yerinin olmadığı, 29-cu polis bölməsində saxlama yerinin* standartlara cavab vermədiyi, 27-ci *polis bölməsinin inzibati binasının yeni tikilməsinə baxmayaraq saxlama yerində şəraitin təkmilləşdirilməsinə ehtiyacın olduğu müəyyən edilmişdir.*

*Başçəkmələrin yekununda adı çəkilən polis bölmələrinin rəhbərliyinə müvafiq qanunvericiliyə uyğun şəkildə göstərilən nöqsanların, habelə sənədləşmədə olan çatışmazlıqların aradan qaldırılması və təkmilləşdirilməsi ilə bağlı müvafiq tövsiyələr verilmiş,* o cümlədən "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Konstitusiya Qanunu əsasında xidmət əməkdaşlarına ünvanlanan hüquqi maarifləndirmə işi aparılmışdır.

***Nizami Rayon Polis İdarəsinin 25-ci Polis bölməsində*** MPQ üzvləri tərəfindən əvvəlcədən xəbərdarlıq etmədən başçəkmə həyata keçirmişdir.

Başçəkmədə məqsəd bölmədə saxlanılan şəxslərin hüquqlarının təmin olunması, rəftar məsələlərinin araşdırılması, o cümlədən müvafiq sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Bölmənin inzibati binası yeni istifadəyə verildiyindən araşdırma məqsədilə saxlanılma kameralarında şəraitinin normal olduğu, başçəkmə zamanı saxlanılan hər hansı bir şəxsin olmadığı məlum olmuşdur.

Sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi məqsədilə Polis orqanlarına gətirilmiş şəxslərin, habelə yetkinlik yaşına çatmayanların qeydiyyatı jurnalları yoxlanılmışdır. *Jurnalların aparılması zamanı müvafiq bölmələrdə qaralamaların olduğu müşahidə edilmiş* və nöqsanların aradan qaldırılması məqsədilə bölmə rəhbərliyinə müvafiq tövsiyələr verilmiş, habelə vətəndaşların bölməyə dəvət olunduğu, habelə şübhəli şəxs qismində cəlbetmə zamanı hüquqlarının effektiv təmin olunması ilə bağlı xidmət əməkdaşları ilə hüquqi maarifləndirici söhbətlər aparılmışdır.

Başçəkmə çərçivəsində təhsil müəssisəsində uşaq hüquqlarının pozulması ilə bağlı Ombudsmana və ərazi aidiyyəti baxımından bu polis bölməsinə ünvanlanmış müraciətin icra vəziyyəti də araşdırılmışdır. Vətəndaş İ.Ə-nin ərizəsinin müvafiq qaydada qeydiyyata alındığı, onun şikayəti üzrə ekspertizanın təyin olunduğu və müvafiq qaydada araşdırmanın aparıldığı məlum olmuşdur.

***Sumqayıt Şəhər Polis İdarəsinin MSY-nə*** Ombudsmanın Milli Preventiv Qrupunun üzvləri tərəfindən əvvəlcədən xəbərdarlıq etmədən planlı başçəkmə həyata keçirilmişdir.

İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyanın Fakültativ Protokolu və "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Konstitusiya Qanununun tələbləri əsasında təşkil olunmuş başçəkmədə məqsəd saxlanılma şəraitinin və saxlanılan şəxslərlə rəftarməsələlərinin araşdırılması, saxlanılan şəxslərin hüquqlarının təmin olunması, o cümlədən sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Başçəkmələr zamanı MSY-də saxlanılan şəxslər MPQ üzvləri tərəfindən fərdi qaydada dinlənilmiş, müraciətləri qəbul edilmiş və cavablandırılmış, onlara hüquqları və Ombudsmanın səlahiyyətləri izah olunmuş, hüquqi məsləhətlər verilmişdir. Bunlarla yanaşı, həmin şəxslərin saxlanılmasının qanuniliyini təsdiq edən, habelə onlara qarşı rəftara və onların saxlanma şəraitinə aid olan sənədlər araşdırılmış, MSY-nin bütün kameralarına baxışlar keçirilmiş, qidalanma, tibbi yardım, gəzinti, görüş, telefon danışıqları, kameradan çıxarılma və sovqat ilə bağlı sənədləşmə yoxlanılmış, mövcud ehtiyaclar öyrənilmişdir.

Saxlanılan şəxslər MSY əməkdaşlarının onlarla rəftarından və müəssisədə saxlanılma şəraitindən şikayət etməmişlər.

Qeyd olunanlarla yanaşı, müəssisəyə əvvəlki başçəkmələr zamanı Ombudsmanının MPM fəaliyyəti çərçivəsində verilmiş *saxlanılma şəraiti, qeydiyyat jurnallarında, tibbi kitabçalarda müvafiq qeydlərin vaxtında və düzgün aparılması kimi* tövsiyələrin icra edildiyi məlum olmuşdur.

Lakin müəssisədə *sıxlıq da müşahidə olunmuşdur ki, bunun da səbəbi birinci və apellyasiya instansiyası məhkəmələrinin, hərbi prokurorluğun bu şəhərdə yerləməsi, icraatlarında olan işlə əlaqədar gətirilən şəxslərin bir müddət MSY-də saxlanılmasıdır. İnzibati qaydada həbs olunaların da burada saxlandığını nəzərə alsaq sıxlığın daha uzun müddət davam etməsi məsləsi önə çıxır.*

*Başçəkmənin yekununda milli və beynəlxalq standartlar əsasında idarə rəhbərliyi və MSY əməkdaşları ilə saxlanılan şəxslərlə rəftar məsələləri, hüquq müdafiə xidmətlərinə və vəkilə çıxış imkanının əlçatanlığının təmininin daim diqqətdə saxlanılması ilə bağlı hüquqi maarifləndirici söhbətlər aparılmış, habelə yuxarıda göstərilən məsələlərin həlli, sənədləşmədə olan*

*çatışmazlıqların aradan qaldırılması və təkmilləşdirilməsi ilə bağlı müvafiq tövsiyələr verilmişdir.*

***Sumqayıt Şəhər Polis İdarəsinin 1-ci Polis bölməsinə*** də Ombudsmanın Milli Preventiv Qrupunun üzvləri tərəfindən əvvəlcədən xəbərdarlıq etmədən plandankənar başçəkmə həyata keçirilmişdir.

Başçəkmədə məqsəd internet resurslarında vətəndaş A.R.-nin Sumqayıt Şəhər Polis İdarəsinin l-ci Polis bölməsi tərəfindən tutulması, pis rəftara məruz qalması haqqında yayılmış məlumatlar və video çəkilişlərin araşdırılması olmuşdur[16].

Yayılmış video məlumatda A.R. bədən xəsarətlərini göstərmiş, həmin xəsarətlərin Sumqayıt ŞPİ l-ci PB-nin rəisi və əməkdaşları, habelə İdarənin CAŞ-nın rəisi tərəfindən yetirildiyini bildirmişdir.

Başçəkmə çərçivəsində bölmədə saxlanılan şəxslərin hüquqlarının təmin olunması, rəftar məsələləri, o cümlədən müvafiq sənədləşmənin aparılması vəziyyəti də öyrənilmişdir.

Sumqayıt Şəhər Polis İdarəsinin 1-ci Polis bölməsində "Gətirilmiş şəxslərin qeydiyyatı kitabına" baxış zamanı 23 mart 2016-cı il tarixdə saat 11:35-də A.R. (Yayılmış videoda o, polis bölməsinə saat 7 radələrində aparıldığını qeyd etmişdir) və digər 4 şəxsin baş vermiş cinayət hadisəsi ilə əlaqədar Sumqayıt ŞPŞ-nin l-ci Polis bölməsinə gətirildikləri, izahatları alınaraq 14:10-da buraxıldıqları, lakin gətirilmə və buraxılma saatlarında həmin kitabda düzəlişlərin edildiyi müşahidə olunmuşdur.

Aparılmış araşdırmanın nəticəsi və toplanmış materiallar üzrə müvafiq ekspertiza təyin olunmaqla təcili araşdırmanın aparılması ilə bağlı Ombudsman tərəfindən dərhal Baş Prokurorluğa müraciət ünvanlanmışdır.

Sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi məqsədilə Polis orqanlarına gətirilmiş şəxslərin, habelə yetkinlik yaşına çatmayanların qeydiyyatı jurnalları yoxlanılmışdır. *Jurnalların aparılması zamanı müvafiq bölmələrdə qaralamaların olduğu müşahidə edilmiş* və nöqsanların aradan qaldırılması məqsədilə bölmə rəhbərliyinə müvafiq tövsiyələr verilmiş, habelə vətəndaşların bölməyə dəvət olunduğu, habelə şübhəli şəxs qismində cəlbetmə zamanı hüquqlarının effektiv təmin olunması ilə bağlı xidmət əməkdaşları ilə hüquqi maarifləndirici söhbətlər aparılmışdır.

***DİN-in İnzibati Həbs Olunanların Saxlanılma Məntəqəsinə*** başçəkmə həyata keçirilmişdir.

Fakültativ Protokolun və "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Konstitusiya Qanununun tələbləri əsasında təşkil olunmuş başçəkmədə məqsəd saxlanılma şəraitinin və saxlanılan şəxslərlə rəftar məsələlərinin araşdırılması, saxlanılan şəxslərin

[16]http://www.bbc.com/azeri/azerbaijan/2016/03/160329_beaten_by_police

hüquqlarının təmin olunması, o cümlədən sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Başçəkmələr zamanı müəssisədə saxlanılan şəxslər MPQ üzvləri tərəfindən fərdi qaydada dinlənilmiş, müraciətləri qəbul edilmiş və cavablandırılmış, onlara hüquqları və Ombudsmanın səlahiyyətləri izah olunmuş, həmin şəxslərin saxlanılmasının qanuniliyini təsdiq edən, habelə onlara qarşı rəftara və onların saxlanma şəraitinə aid olan sənədlər araşdırılmışdır. Saxlanılma Məntəqəsinin kameralarına baxışlar keçirilmiş, qidalanma, tibbi yardım, gəzinti, görüş, telefon danışıqları, kameradan çıxarılma və sovqat qəbulu ilə bağlı sənədləşmə yoxlanılmış, mövcud ehtiyaclar öyrənilmişdir.

Başçəkmə zamanı MPQ üzvləri İHOSM-də saxlanılan inzibati qaydada həbs olunmuş 15-ə yaxın şəxslə, o cümlədən Ombudsmana ünvanlanmış müraciətlə əlaqədar C.O., S. A. oğlu ilə görüşmüş, onlara göstərilən rəftar və saxlanılma şəraitini araşdırmışlar.[17]

*Başçəkmə zamanı MPQ üzvləri tərəfindən qeyd olunan müəssisədə kameralarda sıxlıq müşahidə olunmuşdur. Belə ki, müəssisənin limiti 58 nəfər olduğu halda, həmin gün müəssisədə 82 nəfərin saxlanıldığı müəyyən edilmişdir. Halbuki, beynəlxalq standartlara görə bütün polis kameraları təmiz və orada yerləşdirilən şəxslərin sayı baxımından kifayət qədər geniş olmalı,adekvat işıqlandırmaya malik olmalıdır.*[18] *Müəssisə rəhbərliyi yaranmış sıxlığı kameraların sayının azlığı ilə əlaqələndirmiş, qanunvericilikdə inzibati həbs müddətinin artırılmasından sonra bu cür sıxlıq hallarının bir neçə dəfə müşahidə olunduğunu qeyd etmişdir.*

Başçəkmənin sonunda saxlanma şəraitinin təkmilləşdirilməsinə və rəftar məsələlərinə dair MPQ üzvləri tərəfindən müəssisə rəisinə müvafiq tövsiyələr verilmiş, qeyd olunan məsələlərin həlli və qəbul edilmiş müraciətlərlə bağlı Ombudsman tərəfindən müvafiq olaraq Baş prokurora və Daxili işlər nazirinə müraciət edilmişdir.

***Qax Rayon Polis Şöbəsinin*** müvəqqəti saxlama yerinə əvvəlcədən xəbərdarlıq etmədən başçəkmə həyata keçirilmişdir.

Ombudsmanın MPM qismində fəaliyyəti çərçivəsində Fakültativ Protokolun və "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Konstitusiya Qanununun tələbləri əsasında təşkil olunmuş başçəkmədə məqsəd saxlanılan şəxslərlə rəftar və onların saxlanılma şəraitinin araşdırılması olmuşdur.

Bu məqsədlə MSY-nin kameralarına baxış keçirilmiş, qidalanma, tibbi yardım, gəzinti, görüş, telefon danışıqları, kameradan çıxarılma və sovqat qəbulu ilə bağlı sənədləşmə yoxlanılmış, gündəlik prokuror nəzarəti üzrə sənədlər, habelə rəftar məsələləri araşdırılmışdır.

---

[17] http://news.milli.az/society/54188.html

[18] QAK-nin fəaliyyətinə dair 12-ci Ümumi Hesabat,CPT/İnf 2002, § 47.

Saxlanılan şəxslər şərait və rəftarla bağlı narazılıq etməmişlər.*Başçəkmə zamanı Qax Rayon Polis Şöbəsinin (RPŞ) və MSY-nin binasında təmirə və təkmilləşdirməyə ehtiyacın olduğu müəyyən edilmişdir.*

Başçəkmənin sonunda saxlanma şəraitinin təkmilləşdirilməsinə və rəftar məsələlərinə dair Ombudsman və MPQ üzvləri tərəfindən müəssisə rəisinə müvafiq tövsiyələr verilmiş, qeyd olunan məsələlərin həlli üzrə müzakirələr aparılmışdır.

***İsmayıllı Rayon Polis Şöbəsinin*** *MSY-nə* Ombudsmanın İşgəncələr əleyhinə Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində başçəkmə keçirilmişdir.[19]MSY-nin istintaq, tanınma, görüş, həkim və ibadət otaqlarına baxış həyata keçirilmiş,müvafiq sənədlərin qanuniliyi yoxlanılmış, saxlanılan şəxslərlə söhbət aparılmış, onlara hüquqları izah edilmişdir.

*Başçəkmə zamanı MSY-nin kameralarında şəraitin yaxşılaşdırılmasına ehtiyacın olduğu müəyyən edilmiş,* saxlanma şəraitinin təkmilləşdirilməsi və rəftar məsələlərinə dair Ombudsman tərəfindən müəssisə rəisinə müvafiq tövsiyələr verilmiş, qeyd olunan məsələlərin həlli üzrə müzakirələr aparılmışdır.

Başçəkmə çərçivəsində İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya və onun Fakültativ Protokolunun müddəaları əsasında polis şöbəsinin əməkdaşları ilə hüquqi maarifləndirici söhbətlər aparılmışdır.

***İmişli Rayon Polis Şöbəsinin*** müvəqqəti saxlama yerinə əvvəlcədən xəbərdarlıq etmədən başçəkmə həyata keçirilmişdir.

Fakültativ Protokolun və "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Konstitusiya Qanununun tələbləri əsasında təşkil olunmuş başçəkmədə məqsəd saxlanılan şəxslərlə rəftar və onların saxlanılma şəraitinin araşdırılması olmuşdur.

Ombudsmanın iştirak etdiyi və Milli Preventiv Mexanizm qismində fəaliyyətinin tərkib hissəsi kimi həyata keçirilən başçəkmə zamanı saxlanılan şəxslərin saxlanılmasının qanuniliyini təsdiq edən və onların saxlanma şəraitinə aid olan sənədlər, habelə rəftar məsələləri araşdırılmışdır. MSY-nin kameralarına baxış keçirilmiş, qidalanma, tibbi yardım, gəzinti, görüş, telefon danışıqları ilə bağlı sənədləşmə yoxlanılmışdır.

*Başçəkmə zamanı MSY-nin binasının yenidən qurulmasına, kameralarında şəraitin yaxşılaşdırılmasına ehtiyacın olduğu müəyyən edilmiş,* saxlanma şəraitinin təkmilləşdirilməsi və rəftar məsələlərinə dair Ombudsman tərəfindən müəssisə rəisinə müvafiq tövsiyələr verilmiş, qeyd olunan məsələlərin həlli üzrə müzakirələr aparılmışdır.

Başçəkmə çərçivəsində İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya və onun Fakültativ

---

[19]http://www.ombudsman.gov.az/az/view/news/131/ombudsman-ismayillida-ictimai-dinlemeler-kechirmishdir

Protokolunun müddəaları əsasında polis şöbəsinin əməkdaşları ilə hüquqi maarifləndirici söhbətlər aparılmışdır.

***Saatlı Rayon Polis Şöbəsinin*** müvəqqəti saxlama yerinə Fakültativ Protokolun və "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Konstitusiya Qanununun tələbləri əsasında başçəkmə təşkil olunmuş, saxlanılan şəxslərlə rəftar və onların saxlanılma şəraiti araşdırılmışdır.

*Başçəkmə zamanı Sabirabad RPŞ-nin MSY təmirə bağlandığından istintaq və məhkəmə ilə bağlı gətirilən şəxslər də burada saxlandığından sıxlıq müşahidə olunmuşdur. MSY-nin binasının yenidən qurulmasına, kameralarında şəraitin yaxşılaşdırılmasına ehtiyacın olduğu da müəyyən edilmiş,* saxlanma şəraitinin təkmilləşdirilməsi və rəftar məsələlərinə dair Ombudsman tərəfindən müəssisə rəisinə müvafiq tövsiyələr verilmiş, qeyd olunan məsələlərin həlli üzrə müzakirələr aparılmışdır.

Başçəkmə çərçivəsində İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya və onun Fakültativ Protokolunun müddəaları əsasında polis şöbəsinin əməkdaşlarına ünvanlanan hüquqi maarifləndirici söhbətlər aparılmışdır.

***Ağsu Rayon Polis Şöbəsinin*** müvəqqəti saxlama yerinə Ombudsmanın Milli Preventiv Mexanizm qismində fəaliyyəti çərçivəsində əvvəlcədən xəbərdarlıq etmədən başçəkmə həyata keçirilmişdir. Başçəkmədə məqsəd saxlanılan şəxslərlə rəftar və onların saxlanma şəraitinin araşdırılması olmuşdur.

Ombudsmanın iştirak etdiyi başçəkmə zamanı saxlanılan şəxslərin saxlanılmasının qanuniliyini təsdiq edən və onların saxlanma şəraitinə aid olan sənədlər, habelə rəftar məsələləri araşdırılmışdır. MSY-nin kameralarına baxış keçirilmiş, qidalanma, tibbi yardım, gəzinti, görüş, telefon danışıqları ilə bağlı sənədləşmə yoxlanılmışdır.

*Başçəkmə zamanı MSY-nin gəzinti yerinin üstünün yağış və digər təsirlərdən qorunmaq üçün bir hissəsinin bağlanılması, habelə* saxlanma şəraitinin təkmilləşdirilməsi və rəftar məsələlərinə dair Ombudsman tərəfindən müəssisə rəisinə müvafiq tövsiyələr verilmişdir. Başçəkmə çərçivəsində İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya və onun Fakültativ Protokolunun müddəaları əsasında polis şöbəsinin əməkdaşları ilə hüquqi maarifləndirici söhbətlər aparılmışdır.

***Ağcabədi Rayon Polis Şöbəsinin*** müvəqqəti saxlama yerinə əvvəlcədən xəbərdarlıq etmədən başçəkmə həyata keçirilmişdir.

Ombudsmanın iştirak etdiyi başçəkmə zamanı saxlanılan şəxslərin saxlanılmasının qanuniliyini təsdiq edən və onların saxlanma şəraitinə aid olan sənədlər, habelə rəftar məsələləri araşdırılmış, MSY-nin kameralarına baxış keçirilmiş, qidalanma, tibbi yardım, gəzinti, görüş, telefon danışıqları ilə bağlı sənədlər yoxlanılmışdır.

*Başçəkmə zamanı MSY-nin binasının köhnə olduğu, lakin təmir olunduğu, xidməti otaqların çatışmaması müəyyən edilmişdir.*

Yekunda göstərilən məsələlərin və sənədləşmədə olan nöqsanların aradan qaldırılması məqsədilə müəssisə rəhbəliyinə müvafiq tövsiyələr verilmişdir.

Başçəkmə çərçivəsində İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya və onun Fakültativ Protokolunun müddəaları əsasında polis şöbəsinin əməkdaşları ilə hüquqi maarifləndirici söhbətlər aparılmışdır.

***Neftçala Rayon Polis Şöbəsinin*** müvəqqəti saxlama yerinə də Ombudsmanın Milli Preventiv Mexanizm qismində fəaliyyəti çərçivəsində əvvəlcədən xəbərdarlıq etmədən başçəkmə həyata keçirilmişdir. Başçəkmədə məqsəd saxlanılan şəxslərlə rəftara və onların saxlanılma şəraitinin araşdırılması olmuşdur.

Ombudsman tərəfindən Milli Preventiv Mexanizm qismində fəaliyyətinin tərkib hissəsi kimi həyata keçirilən başçəkmə zamanı müvafiq sənədləşmə ilə yanaşı, saxlanılan şəxslərlə rəftar məsələləri araşdırılmış, MSY-nin kameralarına, gəzinti yerinə baxış keçirilmiş, qidalanma, tibbi yardım, gəzinti, görüş, telefon danışıqları ilə bağlı sənədləşmə yoxlanılmışdır. Fərdi qaydada qəbul olunmuş şəxslər saxlanılma şəraiti və rəftarla bağlı narazılıq etməmişlər.

*Başçəkmə zamanı MSY-nin binasının köhnə olduğu, standartlara uyğun yenindən qurulmasına, kameralarında şəraitin yaxşılaşdırılmasına ehtiyacın olduğu müəyyən edilmiş,* saxlanma şəraitinin təkmilləşdirilməsi və rəftar məsələlərinə dair Ombudsman tərəfindən müəssisə rəisinə müvafiq tövsiyələr verilmiş, qeyd olunan məsələlərin həlli üzrə müzakirələr aparılmışdır.

***Astara Rayon Polis Şöbəsinin*** müvəqqəti saxlama yerinə MPQ üzvləri tərəfindən əvvəlcədən xəbərdarlıq etmədən planlı başçəkmələr həyata keçirilmişdir. İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyanın Fakültativ Protokolu və "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Konstitusiya Qanununun tələbləri əsasında təşkil olunmuş başçəkmələrdədə məqsəd saxlanma şəraitinin və rəftarın araşdırılması, saxlanılan şəxslərin hüquqlarının təmin olunması, o cümlədən sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Fərdi qaydada qəbul olunmuş şəxslər saxlanılma şəraiti və rəftarla bağlı narazılıq etməmişlər.

*Başçəkmənin yekununda milli və beynəlxalq standartlar əsasında şöbə rəhbərliyi və MSY əməkdaşları ilə saxlanılan şəxslərlə rəftar məsələləri, hüquq müdafiə ximətlərinə çıxış imkanının təmininin daim diqqətdə saxlanılması ilə bağlı hüquqi maarifləndirici söhbətlər aparılmış, habelə sənədləşmədə olan çatışmazlıqların aradan qaldırılması və təkmilləşdirilməsi ilə bağlı müvafiq tövsiyələr verilmişdir.*

***Ağstafa Rayon Polis Şöbəsinin*** müvəqqəti saxlama yerinə də Ombudsmanın Milli Preventiv Mexanizm qismində fəaliyyəti çərçivəsində əvvəlcədən xəbərdarlıq etmədən başçəkmə həyata keçirilmişdir.

Ombudsmanın Milli Preventiv Mexanizm qismində iştirakı ilə həyata keçirilən başçəkmə zamanı müvafiq sənədləşmə ilə yanaşı, saxlanılan şəxslərlə rəftar məsələləri araşdırılmışdır. MSY-nin kameralarına, gəzinti yerinə baxış keçirilmiş, qidalanma, tibbi yardımla bağlı sənədləşmə yoxlanılmışdır. Fərdi qaydada qəbul olunmuş şəxslər saxlanılma şəraiti və rəftarla bağlı narazılıq etməmişlər.

*Qeydiyyat jurnallarına baxış zamanı isə müvafiq qeydlərin düzgün aparılmadığı, nöqsanlara yol verildiyi müəyyən edilmişdir.*

*Başçəkmə zamanı MSY-nin binasının köhnə olduğu, standartlara uyğun yenindən qurulmasına, kameralarında şəraitin yaxşılaşdırılmasına ehtiyacın olduğu da müəyyən edilmiş,* saxlanma şəraitinin təkmilləşdirilməsi və rəftar məsələlərinə dair Ombudsman tərəfindən müəssisə rəisinə müvafiq tövsiyələr verilmiş, qeyd olunan məsələlərin həlli üzrə müzakirələr aparılmışdır.

Başçəkmə çərçivəsində İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya və onun Fakültativ Protokolunun müddəaları əsasında polis şöbəsinin əməkdaşları ilə hüquqi maarifləndirici söhbətlər aparılmışdır.

***Xızı Rayon Polis Şöbəsinin*** müvəqqəti saxlama yerinə əvvəlcədən xəbərdarlıq etmədən başçəkmə həyata keçirilmişdir.

Ombudsmanın MPM qismində fəaliyyəti çərçivəsində Fakültativ Protokolun və "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Konstitusiya Qanununun tələbləri əsasında təşkil olunmuş başçəkmədə məqsəd saxlanılan şəxslərlə rəftarın və onların saxlanma şəraitinin araşdırılması olmuşdur.

Bu məqsədlə MSY-nin kameralarına baxış keçirilmiş, qidalanma, tibbi yardım, gəzinti, görüş, telefon danışıqları, kameradan çıxarılma və sovqat ilə bağlı sənədləşmə yoxlanılmış, gündəlik prokuror nəzarəti üzrə sənədlər, habelə rəftar məsələləri araşdırılmışdır.

Saxlanılan şəxslər şərait və rəftarla bağlı narazılıq etməmişlər. *Başçəkmə zamanı Xızı Rayon Polis Şöbəsinin (RPŞ) və MSY-nin binasının köhnə olduğu, təmirə və təkmilləşdirməyə ehtiyacın olduğu müəyyən edilmişdir.*

Başçəkmə çərçivəsində İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya və onun Fakültativ Protokolunun müddəaları əsasında polis şöbəsinin əməkdaşları ilə hüquqi maarifləndirici söhbətlər aparılmışdır.

Başçəkmənin sonunda saxlanma şəraitinin təkmilləşdirilməsinə və rəftar məsələlərinə dair Ombudsman və MPQ üzvləri tərəfindən müəssisə rəisinə müvafiq tövsiyələr verilmiş, qeyd olunan məsələlərin həlli üzrə müzakirələr aparılmışdır.

***Tovuz Rayon Polis Şöbəsinin*** müvəqqəti saxlama yerinə Ombudsman və onun MPQ-nin üzvləri tərəfindən müxtəlif vaxtlarda əvvəlcədən xəbərdarlıq etmədən planlı və plandankənar başçəkmələr həyata keçirilmişdir.

İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyanın Fakültativ Protokolu və "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Konstitusiya Qanununun tələbləri əsasında təşkil olunmuş başçəkmələrdə də məqsəd saxlanma şəraitinin və rəftarın araşdırılması, saxlanılan şəxslərin hüquqlarının təmin olunması, o cümlədən sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Başçəkmələr çərçivəsində fərdi qaydada qəbul olunmuş şəxslər saxlanılma şəraiti və rəftarla bağlı narazılıq etməmişlər.

*Başçəkmələr zamanı qeydiyyat jurnallarının aparılması vəziyyəti öyrənilmiş və müvafiq qeydlərin düzgün aparılmadığı, nöqsanlara yol verildiyi müəyyən edilmişdir.*

Bu baxımdan saxlanma şəraitinin təkmilləşdirilməsi və rəftar məsələlərinə dair Ombudsman tərəfindən müəssisə rəisinə müvafiq tövsiyələr verilmiş, qeyd olunan məsələlərin həlli üzrə müzakirələr aparılmışdır.

Başçəkmə çərçivəsində İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya və onun Fakültativ Protokolunun müddəaları əsasında polis şöbəsinin əməkdaşları ilə hüquqi maarifləndirici söhbətlər aparılmışdır.

Müvəkkilin MPM qismində fəaliyyəti çərçivəsində, Ombudsman və onun MPQ tərəfindən keçirilən başçəkmələr zamanı aşkar edilmiş nöqsanların preventiv tədbirlərlə yerində müzakirə olunmaqla və ya Müvəkkilin DİN-ə müraciəti nəticəsində həllinə nail olunmuş və uğurlu yanaşma nümayiş etdirilmişdir.

Bu əməkdaşlıq çərçivəsində müraciətlərimiz əsasında müvəqqəti sax-lama yerlərində mövcud saxlanma şəraitinin müasir standartlara uyğun olaraq yaxşılaşdırılması, maddi-texniki bazasının təkmilləşdirilməsi istiqamətində işlərin həyata keçirilməsi, saxlanılan şəxslərə qarşı münasibətin yaxşılaşdırılması, müvafiq qeydiyyat jurnalları üzrə sənədləşmənin aparılması, ilkin tibbi müayinə və yardım sahəsində müəyyən edilmiş nöqsanların və onlara şərait yaradan halların aradan qaldırılması üçün müvafiq işlərin görüldüyü, MSY-lərin işinə nəzarətin gücləndirilməsi ilə bağlı cavablar verilmişdir.

2015-ci ildə MPQ-nin üzvləri tərəfindən Yasamal RPİ-nin MSY-nə başçəkmə zamanı saxlama yerinin binasının qəzalı vəziyyətdə olması, əsas yükdaşıyıcı sütunlarda dərin çatların yarandığı, kameraların özünün və açıldığı dəhlizin çökdüyü müşahidə edilmiş və bununla bağlı Müvəkkilin Daxili işlər nazirinə müraciəti əsasında həmin yerin istifadəsi dərhal dayandırılmışdır. 2016-cı ildə isə tövsiyəmiz əsasında təmirə bağlanmış həmin MSY yenidənqurma işləri başa çatdırılmaqla istifadəyə verilmişdir.

Xidməti fəaliyyətlərində nöqsanlara yol verdiklərinə görə daxili işlər orqanlarının bir qrup əməkdaşları intizam məsuliyyətinə də cəlb olunmuşlar. Məsələn, vətəndaş Ə.R.-ni cinayət işinin istintaqı ilə əlaqədar zərurət olmadığı halda Binəqədi RPİ-yə gətirən və onunla ünsiyyətdə nəzakətsiz davranışa yol verən 5-ci PB-nin rəis müavini E.Əzizov, polis sahə inspektoru F.Ələkbərov və əməliyyat müvəkkili Q.Nəzirov intizam məsuliyyətinə cəlb edilmişlər.

Binəqədi RPİ-nin MSY-də nəzarətsiz qalmasından istifadə edərək orada saxlanılan vətəndaş P.Əliyevin üzərində saxladığı ülgüclə boğaz və sağ qol nahiyəsinələrinə yüngül dərəcəli xəsarət yetirməsi ilə bağlı xidməti təhqiqat aparılaraq xidməti vəzifələrinin icrasına məsuliyyətsiz yanaşdıqlarına görə Binəqədi RPİ MSY-nin aidiyyəti əməkdaşları intizam məsuliyyətinə cəlb edilməsi kimi misalları göstərmək olar.

*Ümumilikə isə, CPT hesabat və məruzələrində qeyd olunduğu kimi, cəmiyyətin təhlükəsizliyinin təmini üçün cinayət törətməkdə şübhəli bilinənləri polisin saxlamaq, müvəqəti həbs etmək və dindirmək səlahiyyətlərinin olması vacibdir. Lakin bu səlahiyyətlərin qorxutma, pis rəftara gətirib çıxarma təhlükəsi olmamalıdır. Polisin öz vəzifəsini yerinə yetirərkən bu təhlükəni mütləq minimuma qədər azaltması olduqca vacibdir.*

*CPT tövsiyyələrində hər bir tutulmuş şəxsin qeydə alındığı, həbsdə saxlanılmanın bütün aspektlərini və həbsə alınanlar barəsində görülən bütün tədbirləri(azadlıqdan məhrumetmənin vaxtı və bu tədbirin səbəbləri, hüquqlar barədə məlumatlandırılmanın vaxtı, xəsarətin, psixi çatışmazlığın və s. əlamətləri, yaxın qohumunun, konsulluq nümayəndəsinin və ya vəkilin saxlanılan şəxslə təmasda olduğu və ya ona baş çəkdiyi vaxt, qidanın təklif olunduğu vaxt, dindirmənin vaxtı, başqa yerə köçürülmənin və ya azad edilmənin vaxtı) əks etdirən əhatəli vahid qeydiyyatın aparılması, polis tərəfindən həbsə alınmış şəxslər üçün əsas təminatların əlçatanlığının təmini olduqca vacibdir.*[20]

### 2.2.2. Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin müəssisələri

Ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində penitensiar müəssisələrdə saxlanılan şəxslərin hüquqlarının təmin edilməsi istiqamətində preventiv başçəkmələr və tədbirlər davam etdirilmişdir.

2016-cı ildə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin tabeliyində olan istintaq təcridxanaları və cəzaçəkmə müəssisələrinə planlı və plandankənar olmaqla 65 başçəkmə həyata keçirilmişdir. Bu müəssisələrdə Müvəkkilin MPM qismində fəaliyyəti çərçivəsində başçəkmələrin keçirilməsi üçün tam şərait yaradılmışdır.

[20] CPT, GR 2, paraqraf 40

Başçəkmələr zamanı 497 şəxslə fərdi söhbətlər aparılmış, onların saxlanma şəraiti, hüquqlarının təmini, şərəf və ləyaqətinin müdafiəsi, işgəncə və pis rəftarın qarşısının alınmasının diqqət mərkəzində olmuşdur. Həbs yerlərində və cəzaçəkmə müəssisələrində saxlanılan şəxslərin sosial təminat, sağlamlığın qorunması, müraciət etmək, hüquqi yardım almaq və digər hüquqlarının təmini vəziyyəti də araşdırma predmeti olmuşdur.

Aparılmış başçəkmələr nəticəsində penitensiar müəssisələrdə məhkumların və həbs edilmiş şəxslərin saxlanma şəraitinin milli qanunvericiliyə və beynəlxalq standartlara uyğun yaxşılaşdırılması istiqamətində işlər davam etdirildiyi, cəzaçəkmə müəssisələri (CÇM) və istintaq təcridxanalarında (İT) müəssisələrin dam örtükləri və sanitar qovşaqlarının yeniləndiyi, yataqxana və cərimə təcridxanalarında şəraitin təkmilləşdirildiyi, istilik sistemlərinin çəkildiyi, telefon danışığı, görüş, sinif, istintaq və vəkil otaqlarının, klubların, yeməkxanalar və gəzinti yerlərinin, TSH-lərin və aptek otaqlarının təmir olunduğu müşahidə edilmişdir.

Yeni penitensiar müəssisələrdə, Gəncə, Lənkəran şəhərlərində inşa edilən penitensiar komplekslərdə, Zabrat qəsəbəsində qadın məhkumlar üçün cəzaçəkmə, habelə tərbiyə müəssisəsində, Umbakı qəsəbəsində həbsxanada layihə-smeta sənədlərinə uyğun yekun tikinti-tamamlanma işlərinin aparıldığına dair məlumatlar Müvəkkilin müəssisələrdə şəraitin yaxşılaşdırılmasına dair müxtəlif məzmunlu müraciətlərinə verilmiş cavablarda qeyd olunmuşdur.

MPM fəaliyyəti çərçivəsində qış və yay aylarında məhkumların saxlanma şəraitində yarana biləcək çətinliklərlə bağlı CÇM və İT-lərin yataqxana və kameralarının havalandırılması, məhkumların içməli su ilə təmin edilməsi vəziyyətinin diqqətdə saxlanılması tövsiyəsi ilə Penitensiar Xidmətə vaxtında müraciətlər edilmişdir. Tövsiyələr nəzərə alınaraq, bu istiqamətdə müvafiq preventiv tədbirlər görülmüş, saxlanma şəraitinin təkmilləşdirilməsi istiqamətində tədbirlər fəaliyyət planına daxil edilmiş, həmçinin yaranmış qısa müddətli çətinliklər aidiyyəti xidmət sahələri tərəfindən aradan qaldırılmışdır.

Pis rəftar və zorakılığa məruz qalma ehtimal olunan və bununla bağlı daxil olmuş məlumatlar yerində araşdırılmış, bu başçəkmələrdə MPQ-nin həkim üzvü də iştirak etmiş və toplanmış məlumatlar əsasında dərhal aidiyyəti üzrə Baş Prokurorluğa müraciətlər edilmiş, qaldırılan məsələlərin nəzarətə götürülərək effektiv araşdırılması tövsiyə edilmişdir.

*FP-yə və Konstitusiya Qanununa uyğun olaraq Müvəkkilin MPM qismində fəaliyyəti çərçivəsində MPQ-nin üzvləri tərəfindən keçirilən preventiv başçəkmələrin nəticəsi olaraq verilmiş təklif və tövsiyələr milli qanunvericiliklə əlaqəli şəkildə, İQK (CAT), İQA (SPT) və İQAK-ın(CPT) hesabatlarına, Avropa Penitensiar Qaydaları, İstanbul Protokolu və digər beynəlxalq standartlara əsaslanmışdır.*

***Bakı İstintaq Təcridxanasına*** Ombudsmanın Milli Preventiv Qrupunun (MPQ) üzvləri tərəfindən 2016-cı il ərzində əvvəlcədən xəbərdarlıq etmədən planlı və plandankənar başçəkmələr həyata keçirilmişdir.

Başçəkmələrdə məqsəd saxlanma şəraitinin və rəftarın, habelə daxil olmuş müraciətlərin araşdırılması, təqsirləndirilən şəxslərin hüquqlarının təmin olunması, o cümlədən müvafiq şəkildə sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

MPQ-nin həkim üzvünün də iştirak etdiyi başçəkmələr çərçivəsində müəssisənin müxtəlif obyektlərində həbs olunmuş şəxslər qəbul edilmiş, rəftar məsələləri və yay rejiminə keçidlə bağlı saxlanma şəraiti, havalandırma, qidalanma, su təminatı, tibbi yardım, habelə əvvəlki başçəkmələr zamanı verilmiş tövsiyələrin icrası üzrə görülmüş işlər yerində araşdırılmışdır.

Başçəkmələr çərçivəsində Müvəkkilə müraciət etmiş, habelə öz xahişləri ilə bir sıra başqa şəxslər də təkbətək qəbul edilmiş, müraciətləri dinlənilmiş və yerində araşdırılmışdır.

Müraciətlərin araşdırılması əsasında həbs edilmiş şəxslərin saxlanılmasının qanuniliyini təsdiq edən sənədlərə, tibbi kitabçalarına baxış keçirilmişdir. Rəftar məsələləri ilə bağlı müraciətlərin araşdırılması zamanı həmin şəxslərin istintaq təcridxanasına gətirildikləri zaman ilkin tibbi müayinədən keçirilməsi və müayinədən sonra müvafiq jurnallarda aparılmış qeydlər, tərtib olunmuş aktlar, yaxınları və vəkili ilə görüş və telefon əlaqəsi imkanlarının yaradılması kimi məsələlər başçəkmələr zamanı araşdırma predmeti olmuşdur. Nəticə olaraq isə toplanmış məlumatlar əsasında dərhal Baş Prokurorluğa və ya aidiyyəti məsələlər üzrə Ədliyyə Nazirliyinə müraciətlər edilmiş, qaldırılan məsələlərin nəzarətə götürülərək effektiv araşdırılması tövsiyə edilmiş və müvafiq tədbirlər görülmüşdür. Alınmış cavablar əsasında isə, müraciət edən hər bir şəxsə rəsmi qaydada yazılı surətdə cavablar verilmişdir.

Eyni zamanda ilkin araşdırma və istintaq prosesində yol verdikləri nöqsanlara görə hüquq mühafizə orqanlarının əməkdaşları, habelə Penitensiar xidmətin və digər dövlət qurumlarının əməkdaşları cəzalandırılmışlar.

Bunlarla yanaşı saxlanılan şəxslərin tibbi müayinə və müalicə ilə bağlı müraciətlərinin yerində təmini mümkün olanlar Tibb-Sanitar hissəsinin baş həkiminin diqqətinə çatıdırılmaqla, digərləri üzrə isə Ədliyyə Nazirliyinə və Tibb Baş İdarəsinə müraciətlər edilməklə həllinə nail olunmuşdur.

*Qəbul edilmiş şəxslər müəssisə əməkdaşlarının rəftarından narazılıq etməmiş, saxlanma şəraiti ilə bağlı qaldırdıqları bir sıra məsələlər,kameralarda sıxlıq, şəraitin yaxşılaşdırılması, isti-soyuq su təminatı, sanitar infrastrukturun yaxşılaşdırılması, görüş* və digər məsələlər üzrə müraciətlər yerində araşdırılmış, bəziləri yerində, digərləri isə Ədliyyə Nazirliyinə və Penitensiar Xidmətə müraciət edilməklə təmin edilmişdir.

*Qanunvericiliyə uyğun şəkildə daxili intizam pozuntusu törədən şəxlər barəsində cərimə təcridxanasına keçirlmə növündə tənbeh tədbiri seçilən şəxslərin sayının azaldılması və daha çox tərbiyəvi söhbətlərə üstünlük verilməsi də bu müəssisəyə tövsiyə olunmuşdu. Bu istiqamətdə müsbət dəyişikliyə nail olunmuş, nəticədə isə daxili intizam pozuntusuna görə cərimə təcridxanasına keçirilənlərin sayı minimuma enmişdir.*

Bütün hallarda həbs olunmuş şəxslərə hüquqları, müvafiq qanunvericiliyin tələbləri, hər birinə qaldırdıqları məsələlərlə bağlı hüquqi məsləhətlər verilmiş, Ombudsmana ünvanlanmış ərizə və müraciətləri qəbul edilmişdir.

Başçəkmələrin yekununda istintaq təcridxanasının rəhbərliyinə milli və beynəlxalq qanunvericiliyə, o cümlədən "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa, İstintaq təcridxanalarının daxili intizam Qaydalarına müvafiq şəkildə saxlanma şəraitinin, tibbi xidmətin və sənədləşmənin aparılması işinin daha da təkmilləşdirilməsi ilə bağlı müvafiq tövsiyələr verilmiş, xidmət əməkdaşlarına ünvanlanan hüquqi maarifləndirmə işi aparılmışdır.

***2 saylı İstintaq Təcridxanasında*** MPQ-nin üzvləri tərəfindən Fakültativ Protokolun tələbləri əsasında planlı və plandankənar olmaqla başçəkmələr həyata keçirilmişdir. Başçəkmələrdə məqsəd daxil olmuş müraciətlərin, saxlanma şəraitinin və rəftarın araşdırılması, saxlanılan şəxslərin hüquqlarının təmin olunması, o cümlədən müvafiq şəkildə sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Başçəkmələr zamanı istintaq təcridxanasının yataqxanalarına, tibb-sanitar hissəsinə, cərimə təcridxanasına, mətbəx, görüş yerlərinə və digər obyektlərə baxışlar keçirilmiş, qidalanma, içməli, isti və soyuq su təminatı, tibbi yardım, gəzinti, görüş, sovqat və telefon danışıqları ilə bağlı sənədləşmə və mövcud vəziyyət araşdırılmışdır.

Başçəkmələr zamanı qəbul edilmiş şəxslər müəssisədəki saxlanma şəraiti, əməkdaşların onlarla rəftarı və göstərilən tibbi yardımla bağlı şikayət etməsələr də, *müəssisədə sıxlıq müşahidə olunmuş, kameralara və digər obyektlərə baxış zamanı istintaq təcridxanasının binalarının köhnə olduğu, yenidənqurma işlərinə ehtiyac olduğu müəyyən edilmiş və* Müvəkkil tərəfindən Ədliyyə Nazirliyinə bununa bağlı müraciətlər edilmişdir. Müraciətə verilmiş cavabda, Gəncə şəhərində yeni penitensiar kompleksin inşasının həyata keçirildiyi və bu nöqsanların aradan qaldırılacağı bildirilmişdir.

Başçəkmələr çərçivəsində saxlanma şəraitinin, tibbi xidmətin və sənədləşmənin aparılması işinin milli və beynəlxalq normalara, o cümlədən istintaq təcridxanalarının Daxili İntizam Qaydalarına müvafiq şəkildə daha da təkmilləşdirilməsi ilə bağlı müəssisə rəhbərliyinə tövsiyələr verilmişdir.

***3 saylı İstintaq Təcridxanasına*** Ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində başçəkmələr keçirilmişdir.

Fakültativ Protokolun və "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Konstitusiya Qanununun tələbləri əsasında təşkil olunmuş başçəkmələrdədə məqsəd saxlanma şəraitinin və rəftarın araşdırılması, saxlanılan şəxslərin hüquqlarının təmin olunması, o cümlədən sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Başçəkmələr zamanı saxlanma şəraiti, qidalanma, ərzaq təminatı araşdırılmış, bu məqsədlə həmin müəssisənin kameralarına, yeməkxanasına baxış keçirilmiş, habelə tibbi yardım, gəzinti, telefon danışığı, hüquqi yardım və digər hüquqlarının təminatı vəziyyəti araşdırılmışdır.

Rəftar məsələlərinin araşdırılması ilə bağlı saxlanılan şəxslərlə baxış keçirilmiş kameralarda təkbətək qaydada görüş keçirilmiş, müraciətləri dinlənilmiş, hər birinə qaldırdıqları məsələlərlə bağlı hüquqi məsləhətlər verilmiş, Ombudsmanın səlahiyyətləri və qanunvericiliyin tələbləri izah olunmuşdur.

Fərdi şəkildə qəbul edilmiş şəxslərlə söhbət zamanı *bir çoxları barələrində həbs qətimkan tədbirinin seçilməsi və başlanmış cinayət işi üzrə istintaqdan şikayətlənmiş, bəziləri isə işlərinin hazırda məhkəmə icraatında olduğunu bildirərək, Ombudsman tərəfindən aidiyyatı məhkəməyə xahiş məktubu göndərilməsi üçün yazılı ərizələrini təqdim etmişlər.* Müraciətlər üzrə aiddiyyatı orqanlara müvafiq sorğular göndərilmiş və hər bir müraciət yazılı şəkildə cavablandırılmışdır.

Başçəkmələr zamanı qəbul edilmiş şəxslər müəssisədəki saxlanma şəraiti, əməkdaşların onlarla rəftarı və göstərilən tibbi yardımla bağlı şikayət etməsələr də, *müəssisədə sıxlıq müşahidə olunmuş, kameralara və digər obyektlərə baxış zamanı istintaq təcridxanasının binalarının köhnə olduğu, yenidənqurma işlərinə ehtiyac olduğu müəyyən edilmişdir.*

*Əvvəlki başçəkmələr zamanı verilmiş tövsiyələr və edilmiş müraciətlər əsasında saxlanma şəraitinin təkmilləşdirilməsi məqsədilə müəssisədə yeni karantin otaqlarında, cərimə təcridxanasında təmirin yekunlaşdırılması və şəraitin təkmilləşdirilməsi istiqamətində işlər MPQ üzvləri tərəfindən müsbət qiymətləndirilmişdir.*

Başçəkmələrin yekununda istintaq təcridxanasının rəhbərliyinə milli və beynəlxalq qanunvericiliyə, o cümlədən "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa, İstintaq təcridxanalarının daxili intizam Qaydalarına müvafiq şəkildə saxlanma şəraitinin, tibbi xidmətin və sənədləşmənin aparılması işinin daha da təkmilləşdirilməsi ilə bağlı müvafiq tövsiyələr verilmiş, xidmət əməkdaşlarına ünvanlanan hüquqi maarifləndirmə işi aparılmışdır.

***1 saylı Cəzaçəkmə Müəssisəsinə*** Ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində başçəkmələr keçirilmişdir.

Fakültativ Protokolun və "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Konstitusiya Qanununun tələbləri əsasında təşkil olunmuş başçəkmələrdədə məqsəd saxlanma şəraitinin və rəftarın araşdırılması, məhkumların hüquqlarının təmin olunması, o cümlədən sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Plandankənar başçəkmələrdə isə məqsəd Ombudsmanın ünvanına, o cümlədən "Qaynar xətt"inə daxil olmuş müraciətlərin, həmçinin saxlanma şəraiti və rəftar məsələlərinin araşdırılması, habelə verilmiş tövsiyələrin icra vəziyyətinin yoxlanılması olmuşdur.

Araşdırma zamanı MPQ-nin üzvləri tərəfindən müəssisənin yataqxanalarına, tibb-sanitar hissəsinə və cərimə kameralarına baxış keçirmiş, Müvəkkilə müraciət edən məhkumlarla yanaşı müəssisənin müxtəlif obyektlərində müraciət edən çoxsaylı məhkumlar qəbul edilmişdir.

*Başçəkmə zamanı qəbul edilmiş şəxslər müəssisədəki saxlanma şəraiti və göstərilən tibbi yardımla bağlı qaldırdıqları məsələlər və müraciətlər yerində təmin edilmişdir. Lakin araşdırma zamanı bir sıra nöqsanlar – cərimə təcridxanasının kameralarında məhkumların hüquq və vəzifələrinin əks olunduğu yazılı lövhənin olmadığı, yataq döşəklərinin vəziyyətinin yaxşılaşdırılmasına ehtiyacın olduğu, kameralarda kətillərin sayının saxlanılan şəxslərin sayına uyğun olmadığı müşahidə olunmuşdur.*

Aşkar edilmiş nöqsanlar müəssisə rəisinin diqqətinə çatdırılmış, sənədləşmə və saxlanma şəraitinin təkmilləşdirilməsi, göstərilmiş nöqsanların müəssisə səviyyəsində dərhal aradan qaldırılmasına dair müvafiq tövsiyələr verilmişdir.

Başçəkmə zamanı Ombudsmana müraciət edən və MPQ üzvləri ilə görüşmək istəyən məhkumlar fərdi qaydada qəbul edilmiş, onlarla konfidensial söhbət aparılmışdır.

Başçəkmənin yekununda müəssisə rəhbərliyinə milli və beynəlxalq qanunvericiliyə, o cümlədən CÇM-lərin Daxili intizam qaydalarına müvafiq şəkildə saxlanma şəraiti və rəftar məsələlərinə dair bəzi tövsiyələr verilmişdir.

***2 saylı Cəzaçəkmə Müəssisəsinə*** Ombudsmanın Milli Preventiv Qrupunun üzvləri tərəfindən həyata keçirilən başçəkmədə məqsəd daxil olmuş müraciətlərin, saxlanma şəraitinin və rəftarın araşdırılması, beynəlxalq standartlara və cəzaçəkmə müəssisələrinin daxili intizam qaydalarına uyğun şəkildə saxlanılan şəxslərin hüquqlarının təmin olunması, o cümlədən müvafiq şəkildə sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Başçəkmə zamanı MPQ üzvləri tərəfindənmüəssisənin tibb-sanitar hissəsi, karantin otağı, cərimə təcridxanası, görüş yerləri və digər obyektlərinə baxış keçirilmiş, saxlanma şəraiti, qidalanma, içməli, isti və soyuq su

təminatı, tibbi yardım, sovqat, gəzinti, görüş və telefon danışıqları ilə bağlı mövcud vəziyyət və sənədləşmə, habelə əvvəlki başçəkmələr zamanı verilmiş tövsiyələrin icrası izrə görülmüş işlər yerində araşdırılmışdır.

Başçəkmə çərçivəsində həmin müəssisədə çoxsaylı məhkumlar fərdi qaydada dinlənilmiş, habelə bir sıra şəxslər öz xahişləri ilə təkbətək qəbul edilmiş, müraciətləri yerində araşdırılmışdır. Ümumilikdə isə qəbul olunmuş məhkumlar saxlanma şəraitindən və rəftardan şikayət etməmişlər.

Qəbul zamanı məhkumlara hüquqları, müvafiq qanunvericiliyin tələbləri, Ombudsmanın səlahiyyətləri izah edilmiş, hər birinə qaldırdıqları məsələlərlə bağlı hüquqi məsləhətlər verilmişdir.

*Söhbət zamanı məhkumlar qanunla nəzərdə tutulmuş üzunmüddətli görüşlərini qisamüddətli görüşlə əvəz olunmasında köməklik göstərilməsini xahiş etmiş, barələrində çıxarılmış məhkəmə hökmündən narazılıqlarını bildirmişlər. Qaldırılmış bütün məsələlər üzrə məhkumlara hüquqi məsləhətlər verilmişdir.*

Başçəkmənin yekununda müəssisə rəhbərliyi ilə milli və beynəlxalq qanunvericiliyə, o cümlədən CÇM-lərin Daxili intizam qaydalarına müvafiq şəkildə saxlanma şəraitinin, tibbi xidmətin, qidanın keyfiyyəti, sənədləşmənin aparılması işinin daha da təkmilləşdirilməsi üzrə müzakirələr aparılmış, xidmət əməkdaşlarının hüquqi maarifləndirilməsi tədbirlərinin sayının artırılması ilə bağlı tövsiyələr verilmişdir.

***4 saylı Cəzaçəkmə Müəssisəsinə*** Ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində MPQ üzvləri tərəfindən plandankənar başçəkmə həyata keçirilmişdir.Azərbaycan MPM-nin fəaliyyətinin təkmilləşdirilməsi də hədəf olaraq seçilmiş Müvəkkilin dəstəklədiyi Tvinninq layihəsi çərçivəsində partnyor təsisat olaraq seçilmiş Portuqaliya Ombudsmanının Milli Preventiv Qrupunun iki üzvü də ekspert qisimdə bu başçəkmədə iştirak etmişdir.

Başçəkmələrdə məqsəd saxlanma şəraitinin və rəftar məsələlərinin araşdırılması olmuşdur. MPQ-nin həkim üzvünün də iştirak etdiyi başçəkmələr çərçivəsində müəssisənin müxtəlif obyektlərində məhkumlar fərdi şəkildə qəbul edilmiş, rəftar məsələləri ilə bağlı müsahibələr aparılmış, saxlanma şəraiti ilə bağlı yataqxanalar, qidalanma, tibbi yardım, habelə əvvəlki başçəkmələr zamanı verilmiş tövsiyələrin icrası üzrə görülmüş işlər yerində araşdırılmışdır.

Başçəkmələr çərçivəsində Müvəkkilə müraciət etmiş şəxslər, habelə bir sıra şəxslər öz xahişləri ilə təkbətək qəbul edilmiş, müraciətləri dinlənilmiş və yerində araşdırılməşdır.

Bunlarla yanaşı saxlanılan şəxslərin tibbi müayinə və müalicə ilə bağlı müraciətləri yerində təmini mümkün olduğundan Tibb-Sanitar hissəsinin baş həkiminin diqqətinə çatıdırlmaqla həllinə nail olunmuşdur.

*Qəbul edilmiş şəxslər müəssisə əməkdaşlarının rəftarından narazılıq etməmiş, saxlanma şəraiti ilə bağlı qaldırdıqları bir sıra məsələlər, sıxlıq, sanitar infrastrukturun yaxşılaşdırılması* və digər məsələlər üzrə müraciətlər yerində araşdırılmışdır.Bu müəssisənin yerləşdiyi binada saxlanma şəraitinin yaxşılaşdırılmasına olan ehtiyaclar nəzərə alınmaqla Müvəkkil tərəfindən Ədliyyə Nazirliyinə müraciətlər edilmişdir. Müraciətə verilmiş cavabda, qadınlar üçün yeni penitensiar müəssisənin inşasının həyata keçirildiyi və tikinti işlərinin başa çatması ilə bu nöqsanların aradan qaldırılacağı bildirilmişdir.

*Qanunvericiliyə uyğun şəkildə daxili intizam pozuntusu törədən şəxlər barəsində cərimə təcridxanasına keçirlmə növündə tənbeh tədbiri seçilən şəxslərin sayının azaldığı və daha çox tərbiyəvi söhbətlərə üstünlük verilməsi müşahidə olunmuşdur.*

Bütün hallarda məhkum olunmuş şəxslərə hüquqları, müvafiq qanunvericiliyin tələbləri, hər birinə qaldırdıqları məsələlərlə bağlı hüquqi məsləhətlər verilmiş, Ombudsmana ünvanlanmış ərizə və müraciətləri qəbul edilmişdir.

***6 saylı Cəzaçəkmə Müəssisəsinə*** Ombudsmanın Milli Preventiv Qrupunun üzvləri tərəfindən həyata keçirilən başçəkmədə məqsəd saxlanma şəraitinin və rəftar məsələlərinin araşdırılması, beynəlxalq standartlara və cəzaçəkmə müəssisələrinin daxili intizam qaydalarına uyğun şəkildə saxlanılan şəxslərin hüquqlarının təmin olunması vəziyyətinin öyrənilməsi olmuşdur.

Azərbaycan MPM-nin fəaliyyətinin təkmilləşdirilməsi də hədəf olaraq seçilmiş Müvəkkilin dəstəklədiyi Tvinninq layihəsi çərçivəsində partnyor təsisat olaraq seçilmiş Yunanıstan Ombudsmanının Milli Preventiv Qrupunun dörd üzvü də ekspert qismində bu başçəkmədə iştirak etmişdir.

Başçəkmə çərçivəsində Azərbaycan MPM-nin cəzaçəkmə müəssisələrində apardığı monitorinqlər xarici həmkarları tərəfindən müşahidə edilmiş və qarşılıqlı təcrübə mübadiləsi aparılmışdır.

Bu məqsədlə Fakültativ Protokolun tələblərinə uyğun olaraq müəssisənin bütün obyektlərinə, o cümlədən cərimə təcridxanasına, tibb-sanitar hissəsinə, karantin otağına, görüş yerlərinə, yeməkxanaya, ibadət yerlərinə baxış keçirilmiş, təsadüfi seçim əsasında bir çox məhkum fərdi qaydada qəbul edilmiş, lazımi sənədlər və qeydiyyat kitabları yoxlanılmışdır.

Başçəkmə zamanı müəssisənin Tibbi-sanitar hissəsində bütün palatalara, stomatoloji kabinetə, manipulyasiya otağına, dərmanların saxlanma otağına, cərimə təcridxanalarının kameralarına baxış keçirilmiş, müvafiq qeydiyyat jurnalları və sənədləşmə öyrənilmişdir.

Ümumilikdə başçəkmə zamanı çoxsaylı məhkum, cərimə təcridxanasında, tibb-sanitar hissəsində olan məhkumlar konfidensial qaydada qəbul edilmiş, onların sənədlərinə baxılmış, hüquqları və Ombudsmanın səlahiy-

yətləri izah olunmuşdur. Məhkumlar saxlanma şəraitindən, müəssisə əməkdaşlarının rəftarından, qidalanmadan və onlara göstərilən tibbi yardımla bağlı narazılıq etməmişlər.

Başçəkmənin yekunu müəssisə rəhbərliyinin və ekspertlərin iştirakı ilə müzakirə olunmuş, *cərimə təcridxanasının və tibbi-sanitar hissənin müvafiq qeydiyyat jurnallarında müəyyən edilmiş nöqsanlar aradan qaldırılması məqsədilə diqqətə çatdırılmış, milli və beynəlxalq qanunvericiliyə, o cümlədən CÇM-lərin Daxili intizam qaydalarına müvafiq şəkildə saxlanma şəraiti və rəftar məsələlərinə dair tövsiyələr verilmişdir.*

***10 saylı Cəzaçəkmə Müəssisəsinə*** Ombudsmanın Milli Preventiv Qrupunun üzvləri tərəfindən həyata keçirilən başçəkmədə məqsəd daxil olmuş müraciətlərin, saxlanma şəraitinin və rəftarın araşdırılması, beynəlxalq standartlara və cəzaçəkmə müəssisələrinin daxili intizam qaydalarına uyğun şəkildə saxlanılan şəxslərin hüquqlarının təmin olunması, o cümlədən müvafiq şəkildə sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Başçəkmə zamanı MPQ üzvləri tərəfindən müəssisənin yaşayış sahəsinə, tibb-sanitar hissəsi, karantin otağı, cərimə təcridxanası, görüş yerləri və digər obyektlərinə baxış keçirilmiş, saxlanma şəraiti, qidalanma, içməli, isti və soyuq su təminatı, tibbi yardım, sovqat, gəzinti, görüş və telefon danışıqları ilə bağlı mövcud vəziyyət və sənədləşmə, habelə əvvəlki başçəkmələr zamanı verilmiş tövsiyələrin icrası üzrə görülmüş işlər yerində araşdırılmışdır.

Başçəkmə çərçivəsində həmin müəssisədə çoxsaylı məhkumlar fərdi qaydada dinlənilmiş, habelə bir sıra şəxslər öz xahişləri ilə təkbətək qəbul edilmiş, müraciətləri yerində araşdırılmışdır. Ümumilikdə isə, qəbul olunmuş məhkumlar saxlanma şəraitindən və rəftardan şikayət etməmişlər.

Qəbul zamanı məhkumlara hüquqları, müvafiq qanunvericiliyin tələbləri, Ombudsmanın səlahiyyətləri izah edilmiş, hər birinə qaldırdıqları məsələlərlə bağlı hüquqi məsləhətlər verilmişdir.

MPQ üzvləri Ombudsmanın ünvanına daxil olmuş müraciətlə bağlı fərdi qaydada qəbul edilmiş məhkumlarla konfidensial söhbət aparmış və onlar barələrində çıxarılmış məhkəmə hökmündən şikayətlənmiş, onlara Ombudsmanın səlahiyyətləri izah edilmiş, hüquqi məsləhət verilmişdir. Əfv olunmalarında köməklik göstərilməsini xahiş edən məhkumlara yazılı ərizə ilə müraciət etmələri tövsiyə olunmuşdur.

Başçəkmənin yekununda müəssisə rəhbərliyi ilə milli və beynəlxalq qanunvericiliyə, o cümlədən CÇM-lərin Daxili intizam qaydalarına müvafiq şəkildə saxlanma şəraitinin, tibbi xidmətin, qidanın keyfiyyəti, sənədləşmənin aparılması işinin daha da təkmilləşdirilməsi üzrə müzakirələr aparılmış, xidmət əməkdaşlarının hüquqi maarifləndirilməsi tərbirlərinin sayının artırılması ilə bağlı tövsiyələr verilmişdir.

***11 saylı Cəzaçəkmə Müəssisəsinə*** Ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində MPQ üzvləri tərəfindən həyata keçirilən

başçəkmədə məqsəd saxlanma şəraitinin və rəftar məsələlərinin araşdırılması, beynəlxalq standartlara və cəzaçəkmə müəssisələrinin daxili intizam qaydalarına uyğun şəkildə saxlanılan şəxslərin hüquqlarının təmin olunması vəziyyətinin öyrənilməsi olmuşdur.

Başçəkmə zamanı MPQ üzvləri tərəfindən müəssisənin yaşayış sahəsinə, tibb-sanitar hissəsi, karantin otağı, cərimə təcridxanası, görüş yerləri və digər obyektlərinə baxış keçirilmiş, saxlanma şəraiti, qidalanma, içməli, isti və soyuq su təminatı, tibbi yardım, sovqat, gəzinti, görüş və telefon danışıqları ilə bağlı mövcud vəziyyət və sənədləşmə, habelə əvvəlki başçəkmələr zamanı verilmiş tövsiyələrin icrası izrə görülmüş işlər yerində araşdırılmışdır.

Başçəkmə çərçivəsində həmin müəssisədə çoxsaylı məhkumlar fərdi qaydada dinlənilmiş, habelə bir sıra şəxslər öz xahişləri ilə təkbətək qəbul edilmiş, müraciətləri yerində araşdırılmışdır. Ümumilikdə isə, qəbul olunmuş məhkumlar saxlanma şəraitindən və rəftardan şikayət etməmişlər.

Qəbul olunmuş şəxslər daha çox barələrində çıxarılmış hökmlərdən narazılıq etmişlər. Məsələn, məhkum E.Ə. ilə konfidensial söhbət zamanı, o, barəsində çıxarılmış məhkəmə hökmündən narazılığını bildirmiş, apellyasiya məhkəməsinə müraciət etməsi üçün müddətin bərpa olunmasında köməklik göstərilməsini xahiş etmişdir.

Qəbul olunmuş eyni məzmunlu digər müraciətlər üzrə də məhkumlara hüquqi məsləhətlər verilmiş, onlara Ombudsmanın səlahiyyətləri izah edilmiş və təmini istiqamətində müvafiq tədbirlər görülmüşdür.

Başçəkmənin sonunda müəssisə rəhbərliyinə milli və beynəlxalq qanunvericiliyə, o cümlədən CÇM-lərin Daxili intizam qaydalarına müvafiq şəkildə saxlanma şəraiti və rəftar məsələlərinə dair bəzi tövsiyələr verilmişdir.

***12 saylı Cəzaçəkmə Müəssisəsinə*** Ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində MPQ üzvləri tərəfindən plandankənar başçəkmə həyata keçirilmişdir. Başçəkmədə məqsəd Ombudsmanın ünvanına daxil olmuş müraciətlərin araşdırılması, müəssisədə məhkumlarla rəftar, qidalanma, sənədləşmənin aparılması, tibbi xidmətin əlçatanlığı və saxlanma şəraitinin öyrənilməsi olmuşdur.

MPQ üzvləri tərəfindən müəssisə rəhbərliyi ilə görüşdən sonra CÇM-in cərimə təcridxanasına baxış keçirilmiş və burada saxlanılanlarla görüşülmüşdür. *Baxışlar zamanı bəzi kameralarda isitmənin qənaətbəxş olmadığı, bəzi kameralarda su kranlarının işləmədiyi məlum olmuşdur.*

*Başçəkmə zamanı qəbul olunmuş şəxslər isə müəssisədən məktublarının göndərilməsində problemlər olduğunu, yeməyin keyfiyyətsiz hazırlandığını bildirmişlər.* Daha sonra CT-də saxlanılan 15 nəfər ilə görüşülmüş və *təkbətək söhbət zamanı məhkum A.B. uzun müddətdir yaşayış sahəsinə keçirilmədiyini, məhkum A.E. müəssisənin əməliyyat üzrə rəisi tərəfindən təzyiqlərə məruz qaldığını bildirmişdir.*

Başçəkmə zamanı məhkumların əksəriyyəti yeməyin keyfiyyətindən narazı olduqlarını bildirmişlər, lakin mətbəxə və yeməkxanaya keçirilən baxış zamanı vəziyyətin qənaətbəxş olduğu və yeməkxananın qeydiyyat jurnalının qaydasında aparıldığı müəyyən edilmişdir. Gəzinti yerlərinin və idman zalının vəziyyətinin normal olduğu və kifayət qədər məhkumun idmana cəlb olunduğu müşahidə edilmişdir. Telefonla danışıq üçün 8 nömrə ayrıldığını və məhkumlara telefon danışığı verilməsinin normal təşkil edildiyini qeyd etmək olar.

Müəssisənin Tibb-sanitar hissəsinə də başçəkmə keçirilmiş, tibbi xidmətin əlçatanlığı məsələsi araşdırılmışdır. Əlilliyi olan şəxslərin, şəkərli diabet, İİV və digər xəstəlik daşıyıcısı olan xəstələrin dərman təminatı, müayinə və müalicəsi məsələsi araşdırılmışdır. Vərəmli xəstələri aşkar etmək üçün məhkumların flüoroqrafiya müayinəsindən keçirildiyi, həmçinin ”Monolit D” şirkəti ilə bağlanmış müqaviləyə əsasən müəssisənin sanitar-epidemioloji vəziyyətinin nəzarətdə saxlanıldığı, həftədə bir dəfə profilaktik tədbirlərin həyata keçirildiyi, eyni zamanda dərman təminatının qənaətbəxş olduğu, hazırda bu müəssisədən PX-in Müalicə Müəssisəsində və İxtisaslaşdırılmış Müalicə Müəssisəsində müalicə olunmaq məqsədilə xəstələrin göndərildiyi bildirilmişdir.

Başçəkmə zamanı MPQ üzvləri tərəfindən müəssisənin yaşayış sahəsinə, karantin otağı, görüş yerləri və digər obyektlərinə baxış keçirilmiş, saxlanma şəraiti, qidalanma, içməli, isti və soyuq su təminatı, telefon danışıqları ilə bağlı mövcud vəziyyət və sənədləşmə, habelə əvvəlki başçəkmələr zamanı verilmiş tövsiyələrin icrası izrə görülmüş işlər yerində araşdırılmışdır.

Başçəkmənin sonunda MPQ üzvləri tərəfindən müəssisə rəisinə saxlanma şəraiti və rəftarla bağlı bəzi tövsiyələr verilmiş və göstərilən bir sıra nöqsanlar müəssisə rəhbərliyi tərəfindən yerində aradan qaldırılmışdır.

***13 saylı Cəzaçəkmə Müəssisəsinə*** Ombudsmanın Milli Preventiv Qrupunun üzvləri tərəfindən plandankənar başçəkmə həyata keçirilmişdir.

Başçəkmələrdə məqsəd daxil olmuş müraciətlərin, məhkumlarla rəftar və onların saxlanma şəraitinin araşdırılması, beynəlxalq standartlara və Cəzaçəkmə müəssisələrinin Daxili intizam Qaydalarına uyğun şəkildə saxlanılan şəxslərin hüquqlarının təmin olunması, o cümlədən müvafiq şəkildə sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi, habelə 13 saylı CÇM-də məhkumlar arasında məişət zəminində baş vermiş münaqişənin araşdırılması olmuşdur.[21]Araşdırma zamanı müəssisənin cərimə təcridxanasının kameralarına və tibbi-sanitar hissəsinə baxış keçirilmiş, burada saxlanılan məhkumlar qəbul olunmuşdur.

MPQ-nin həkim üzvünün də iştirak etdiyi araşdırma çərçivəsində konfidensial şəraitdə qəbul edilmiş məhkumlar 13 saylı CÇM-in yaşayış

[21]http://www.teleqraf.az/index.php/xeber4/9272-13-c%C3%BC-%E2%80%9Czon%E2%80%9Dda-n%C9%99-ba%C5%9F-verib.html

sahəsində məhkumlar arasında məişət zəminində baş vermiş münaqişə ilə bağlı cərimə təcridxanasına keçirildiklərini, müəssisə əməkdaşları tərəfindən hər hansı fiziki təzyiqə və zorakılığa məruz qalmadıqlarını, cərimə təcridxanasındakı saxlama şəraiti və rəftarla bağlı şikayətlərinin olmadığını, hər gün həkim müayinəsindən keçirildiklərini, o cümlədən müəssisəyə heç bir əlavə xüsusi hərbi birləmənin yeridilmədiyini, bu barədə yayılan məlumatların əsassız olduğunu bildirmiş, öz ifadələrini müvafiq aktlarda təsdiq etmişlər.

Bu müəssisənin Tibb-sanitar hissəsində qəbul edilmiş H.N. və H.E. baş vermiş münaqişə zamanı baş nahiyəsinə arxadan vurulan zərbə nəticəsində xəsarət aldıqlarını, həmin zərbələrin necə və kim tərəfindən vurulduğunu görə bilmədiklərini, həmçinin müəssisə əməkdaşları tərəfindən onlara göstərilən tibbi xidmətdən və tibbi-sanitar hissədə saxlanma şəraitindən razı olduqlarını bildirmişlər.

Müəssisə rəhbərliyi fakt üzrə prokurorluqda cinayət işinin başlandığını, məhkəmə-tibb ekspertizasının təyin olunduğunu və lazımi sənədlərin istintaqa verildiyini bildirmişdir.

Qəbul edilmiş digər şəxs ilə söhbət zamanı o, müəssisəyə təyin olunmuş yeni rəhbərliyin müəssisədə saxlanma şəraitinin yaxşılaşdırılması istiqamətində müvafiq işlər apardığını, o cümlədən ona qarşı göstərilən rəftardan narazılığının olmadığını bildirmişdir.

Başçəkmənin yekununda müəssisə rəhbərliyinə milli və beynəlxalq qanunvericiliyə, o cümlədən CÇM-lərin Daxili intizam qaydalarına müvafiq şəkildə saxlanma şəraitinin, tibbi xidmətin və sənədləşmənin aparılması işinin daha da təkmilləşdirilməsi ilə bağlı tövsiyələr verilmişdir.

13 saylı CÇM-də baş vermiş insident ilə əlaqədar Qaradağ Rayon Prokurorluğunda başlanmış cinayət işinin istintaqının nəzarətə götürülərək tam və hərtərəfli araşdırılması, habelə nəticəsi barədə məlumatların Ombudsmana göndərilməsi ilə bağlı Baş Prokurora müraciət olunmuşdur.[22]

***15 saylı Cəzaçəkmə Müəssisəsinə*** həyata keçirilmiş başçəkmədə məqsəd daxil olmuş müraciətlərin, saxlanma şəraitinin və rəftarın araşdırılması, beynəlxalq standartlara və cəzaçəkmə müəssisələrinin daxili intizam qaydalarına uyğun şəkildə saxlanılan şəxslərin hüquqlarının təmin olunması, o cümlədən müvafiq şəkildə sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Başçəkmə zamanı MPQ üzvləri tərəfindənmüəssisənin tibb-sanitar hissəsi, karantin otağı, cərimə təcridxanası, görüş yerləri və digər obyektlərinə baxış keçirilmiş, saxlanma şəraiti, qidalanma, içməli, isti və soyuq su təminatı, tibbi yardım, sovqat, gəzinti, görüş və telefon danışıqları ilə bağlı mövcud vəziyyət

[22]http://www.olke.az/hadise-5/13-sayli-cezacekme-muessisesinde-mehkumlar-arasinda-munaqise-bas-verib-69950

və sənədləşmə, habelə əvvəlki başçəkmələr zamanı verilmiş tövsiyələrin icrası üzrə görülmüş işlər yerində araşdırılmışdır.

Başçəkmə çərçivəsində həmin müəssisədə çoxsaylı məhkumlar fərdi qaydada dinlənilmiş, habelə bir sıra şəxslər öz xahişləri ilə təkbətək qəbul edilmiş, müraciətləri yerində araşdırılmışdır. Ümumilikdə isə qəbul olunmuş məhkumlar saxlanma şəraitindən və rəftardan şikayət etməmişlər.

Qəbul zamanı məhkumlara hüquqları, müvafiq qanunvericiliyin tələbləri, Ombudsmanın səlahiyyətləri izah edilmiş, hər birinə qaldırdıqları məsələlərlə bağlı hüquqi məsləhətlər verilmişdir.

Başçəkmənin yekununda müəssisə rəhbərliyinə milli və beynəlxalq qanunvericiliyə, o cümlədən CÇM-lərin Daxili intizam qaydalarına müvafiq şəkildə saxlanma şəraitinin, tibbi xidmətin və sənədləşmənin aparılması işinin daha da təkmilləşdirilməsi, xidmət əməkdaşlarının hüquqi maarifləndirilməsi tədbirlərinin sayının artırılması ilə bağlı tövsiyələr verilmişdir.

***16 saylı Cəzaçəkmə Müəssisəsinə*** Ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində MPQ üzvləri tərəfindən plandankənar başçəkmə həyata keçirilmişdir. Başçəkmədə məqsəd Ombudsmanın ünvanına daxil olmuş müraciətlərin araşdırılması, müəssisədə məhkumlarla rəftar, qidalanma, sənədləşmənin aparılması, tibbi xidmətin əlçatanlığı və Cəzaçəkmə müəssisələrinin Daxili İntizam Qaydalarına uyğun şəkildə saxlanılan şəxslərin hüquqlarının təmin olunması vəziyyətinin öyrənilməsi olmuşdur.

Başçəkmə zamanı müəssisənin cərimə təcridxanası, karantin otağı və digər obyektlərinə baxış keçirilmiş, saxlanma şəraiti, qidalanma, tibbi yardım, sovqat qəbulu, görüş və telefon danışıqları ilə bağlı mövcud vəziyyət və sənədləşmə, habelə əvvəlki başçəkmələr zamanı verilmiş tövsiyələrin icrası üzrə görülmüş işlər yerində araşdırılmışdır.

Başçəkmə çərçivəsində Müvəkkilə müraciət etmiş məhkumlar, habelə bir sıra şəxslər öz xahişləri ilə təkbətək qəbul edilmiş, müraciətləri dinlənilmiş, saxlanma şəraitinə dair bəzi müraciətlər isə yerində araşdırılaraq təmin edilmişdir. Ümumilikdə isə, qəbul olunmuş məhkumlar saxlanma şəraitindən və rəftardan şikayət etməmişlər.

Yekunda müəssisə rəhbərliyinə milli və beynəlxalq qanunvericiliyə, o cümlədən CÇM-lərin Daxili intizam qaydalarına müvafiq şəkildə saxlanma şəraitinin, tibbi xidmətin və sənədləşmənin aparılması işinin daha da təkmilləşdirilməsi ilə bağlı tövsiyələr verilmişdir.

***Tərbiyə Müəssisəsinə*** Ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində MPQ üzvləri tərəfindən plandankənar başçəkmə həyata keçirilmişdir. Azərbaycan MPM-nin fəaliyyətinin təkmilləşdirilməsində hədəf olaraq seçilmiş Müvəkkilin dəstəklədiyi Tvinninq layihəsi çərçivəsində partnyor təsisat olaraq seçilmiş Portuqaliya Ombudsmanının Milli Preventiv Qrupunun iki üzvü də ekspert qismində bu başçəkmədə iştirak etmişdir.

Başçəkmələrdə məqsəd bu müəssisədə saxlanılan yetkinlik yaşına çat-

mayanların saxlanma şəraitinin və onlarla rəftar məsələlərinin araşdırılması olmuşdur. MPQ-nin həkim üzvünün də iştirak etdiyi başçəkmələr çərçivəsində müəssisənin müxtəlif obyektlərinə baxışlar keçirilmiş, rəftar məsələləri ilə bağlı müsahibələr aparılmış, saxlanma şəraiti ilə bağlı yataqxanalar, qidalanma, tibbi yardım, habelə əvvəlki başçəkmələr zamanı verilmiş tövsiyələrin icrası üzrə görülmüş işlər yerində araşdırılmışdır.

Bunlarla yanaşı saxlanılan şəxslərin tibbi müayinə və müalicə ilə bağlı müraciətləri yerində təmini mümkün olduğundan Tibb-Sanitar hissəsinin baş həkiminin diqqətinə çatdırılmaqla həll olunmuşdur.

Qəbul edilmiş şəxslər müəssisə əməkdaşlarının onlarla rəftarından narazılıq etməmişlər. *Bu müəssisənin yerləşdiyi binanın çox köhnə olması və saxlanma şəraitinin yaxşılaşdırılmasına olan ehtiyaclar nəzərə alınmaqla, Müvəkkil tərəfindən Ədliyyə Nazirliyinə müraciətlər edilmişdir.* Müraciətə verilmiş cavabda, yetkinlik yaşına çatmayanlar üçün yeni penitensiar müəssisənin inşasının həyata keçirildiyi və tikinti işlərinin başa çatması ilə bu nöqsanların aradan qaldırılacağı bildirilmişdir.

***Penitensiar Xidmətinin Müalicə Müəssisəsinə*** Ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində MPQ üzvləri tərəfindən plandankənar başçəkmələr həyata keçirilmişdir. Başçəkmələr Ombudsmanın ünvanına daxil olmuş müraciətlərin araşdırılması, müəssisədə tibbi xidmətin əlçatanlığı və saxlanma şəraitinin öyrənilməsi məqsədini daşımışdır.

Başçəkmələr zamanı müalicə palatalarına baxışlar keçirilmiş və müalicə olunan şəxslərlə fərdi söhbətlər aparılmışdır.

Müalicə palatasında qəbul edilmiş məhkum V.M. ilə söhbət zamanı o, saxlanıldığı 11 saylı Cəzaçəkmə Müəssisəsində və İxtisaslaşdırılmış Müalicə Müəssisəsində olarkən həmin müəssisələrin rəhbərliyi tərəfindən ona qarşı qərəzli münasibət göstərildiyini, təzyiqlərə məruz qaldığını, onun həbsxana rejiminə keçirilməsi ilə bağlı məhkəməyə qərəzli təqdimatlar verildiyini, bu zaman məhkəməyə müvafiq qeydiyyat jurnallarına uyğun gəlməyən saxta sənədlərin təqdim olunduğunu, nəticədə ardıcıl olaraq 3 dəfə həbsxana rejiminə keçirilməsi ilə bağlı qərar qəbul edildiyini bildirmiş, məsələnin obyektiv araşdırılmasında, pozulmuş hüquqlarının bərpa olunmasında köməklik göstərilməsini xahiş etmişdir. Qeyd olunan məsələ araşdırılmış və Ombudsman tərəfindən Ədliyyə Nazirliyinə müvafiq qaydada məktub ünvanlanmaqla müraciət təmin edilmişdir.

Görüşülən digər məhkumlardan biri xərçəng xəstəliyindən əziyyət çəkdiyini, 7 aydır ki, xəstəliyinə görə PX-in MM-də müalicə olunduğunu, bir neçə gündən sonra müalicəsi ilə bağlı Milli Onkologiya Mərkəzinə göndəriləcəyini bildirmiş, xəstəliyini nəzərə alaraq əfv olunmasında köməklik göstərilməsini xahiş etmişdir. Ona müraciəti ilə əlaqədar özünün və ya yaxın qohumlarının Ombudsmana yazılı ərizə ilə müraciət etməsi tövsiyə olunmuşdur.

Məhkum C.İ.bir ildir ki, TSEK tərəfindən ona 2-ci qrup əlillik dərəcəsi təyin edildiyini və buna görə müvafiq pensiya aldığını, lakin növbəti müayinədən keçməsi üçün lazımı sənədlərin (Forma 88) TSEK-a göndərilmədiyini bildirmiş, müvafiq köməklik göstərilməsini xahiş etmişdir. Məsələ ilə bağlı MPQ üzvləri tərəfindən araşdırma aparılmış, müəssisənin baş həkiminə verilmiş tövsiyələr əsasında TSEK-a təqdim edilməsi tələb olunan müvafiq sənədlər toplanmış, növbəti stasionar müalicə kursunun başa çatması ilə məhkumun müraciəti təmin edilmişdir.

Müraciəti ilə əlaqədar Müəssisənin cərimə palatasında qəbul edilmiş E.B. ilə söhbət zamanı o, saxlanıldığı 2 saylı İstintaq Təcridxanasında Gəncə Ağır Cinayətlər Məhkəməsi tərəfindən barəsində çıxarılmış məhkəmə hökmünə etiraz əlaməti olaraq aclıq aksiyası keçirdiyini, həmin səbəbdən də Müalicə Müəssisəsinə köçürüldüyünü bildirmiş, Ali Məhkəməyə müraciət etməsi üçün buraxılmış müddətin bərpa olunmasında köməklik göstərilməsini xahiş edərək, bu barədə yazılı ərizəsini təqdim etmişdir. MPQ üzvləri tərəfindən ona Ombudsmanın səlahiyyətləri izah edilmiş, hüquqi məsləhətlər verilmiş, həmçinin onun səhhətinin diqqətdə saxlanılması müəssisə rəhbərliyinə tövsiyə olunmuş və müraciəti təmin edilmişdir.

Müalicə Müəssisəsinə digər başçəkmədə məqsəd 13 saylı Cəzaçəkmə müəssisəsində məhkumlar arasında baş vermiş iğtişaş nəticəsində xəsarət almış məhkum H.M.un sağlamlıq durumunun və münaqişənin səbəblərinin öyrənilməsi olmuşdur.[23]

Bu məqsədlə MPQ üzvləri məhkum H.M. ilə görüşmüş və aparılan söhbət zamanı o, 13 saylı Cəzaçəkmə müəssisəsində məscidə namaz qılmağa gedərkən məhkumlar arasında məişət zəminində baş vermiş münaqişə zamanı xəsarət aldığını, ayılanda müəssisənin tibb-sanitar hissəsində olduğunu, sonradan isə Müalicə Müəssisəsinə keçirildiyini bildirmişdir. Söhbət zamanı məhkum olaraq cəmi 8 aydır cəza çəkdiyini və bu müddət ərzində saxlanıldığı 13 saylı CCM-in əməkdaşları və digər məhkumlarla normal münasibətdə olduğunu qeyd etmişdir. H.M. Müalicə Müəssisəsində saxlanma şəraitindən, rəftardan və aparılan müalicədən narazılığının olmadığını qeyd etmişdir. Onu müalicə edən həkimlə söhbət zamanı səhhətinin hazırda qənatbəxş olduğu, lakin aldığı kəllə-beyin travmasının ağırlaşmasının mümkünlüyü və davamlı müayinə və müalicəyə ehtiyacı olduğu müəyyən edilmişdir.

Qəbul edilmiş digər şəxslər də Müalicə Müəssisəsinin əməkdaşlarının onlarla rəftarından və saxlanma şəraitindən narazılıq etməmişlər.

Müalicənin gedişi ilə bağlı qaldırdırılan bəzi məsələlər yerində araşdırılmış, baş həkimə müvafiq tövsiyələr verilmişdir.

---

[23]https://www.azadliq.info/160080.html

***Penitensiar Xidmətinin İxtisaslaşdırılmış Müalicə Müəssisəsinə*** Ombudsmanın Milli Preventiv Qrupunun üzvləri tərəfindən plandankənar başçəkmə həyata keçirilmişdir. Başçəkmədə məqsəd saxlanma şəraitinin və rəftarın, daxil olmuş müraciətlərin, habelə 13 saylı CÇM-dən bu müəssisəyə etap olunmuş məhkumların zorakılığa məruz qalmasına dair mətbuatda yayılmış məlumatların araşdırılması olmuşdur.[24]

Araşdırma zamanı müəssisənin cərimə təcridxanasının kameralarına baxış keçirilmiş, burada saxlanılan məhkumlar fərdi qaydada qəbul edilmişdir.

Qəbul zamanı PX-in 13 saylı Cəzaçəkmə Müəssisəsindən bu müəssisəyə köçürülmüş məhkumlar konfidensial qaydada qəbul olunmuş və müraciətləri qəbul edilmişdir.

Toplanmış materiallar və qəbul edilmiş müraciətlər əsasında 13 saylı CÇM-də baş vermiş insident ilə əlaqədar Qaradağ Rayon Prokurorluğunda başlanmış cinayət işinin istintaqının nəzarətə götürülərək tam və hərtərəfli araşdırılması, habelə nəticəsi barədə məlumatların Ombudsmana göndərilməsi ilə bağlı Baş Prokurora müraciət olunmuşdur.[25]

Başçəkmənin yekununda müəssisə rəhbərliyinə milli və beynəlxalq qanunvericiliyə, o cümlədən CÇM-lərin Daxili intizam qaydalarına müvafiq şəkildə saxlanma şəraitinin, tibbi xidmətin və sənədləşmənin aparılması işinin daha da təkmilləşdirilməsi ilə bağlı tövsiyələr verilmişdir.

*Ümumilikdə isə, Müvəkkilin MPM qismində fəaliyyəti çərçivəsində, MPQ-nin üzvləri tərəfindən həyata keçirilən başçəkmələr zamanı aşkar edilmiş nöqsanlar görülmüş preventiv tədbirlər, Müvəkkilin Ədliyyə Nazirliyinə müraciəti nəticəsində həllini tapmış, Penitensiar Xidmət və Tibb Baş İdarəsi tərəfindən əməkdaşlıq və səmərəli yanaşma nümayiş etdirilmişdir.*

*Preventiv tədbirlər məqsədilə edilmiş müraciətlərdə BMT-nin Məhbuslarla rəftara dair Əsas Prinsiplərinə, Məhbuslarla Minimal Standart Davranış Qaydalarına, Avropa Penitensiar Qaydalarına və Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinə və Cəzaçəkmə müəssisələrinin Daxili İntizam qaydalarına uyğun olaraq məhkumlara münasib saxlanma şəraitinin yaxşılaşdırılması və standartlara uyğunlaşdırılması, məhkumların sağlamlıq hüququnun təmin olunması, onların lazımi tibbi yardım almaq hüquqlarının Avropa Penitensiar Qaydalarına və Cəzaçəkmə müəssisələrində tibbi yardımın etik və təşkilatı aspektləri üzrə Avropa Şurası Nazirlər Komitəsinin üzv ölkələrə Tövsiyəsinə (№ R (98) 7) uyğun şəkildə təmin edilməsinin vacibliyi tövsiyə olunmuşdur.*

---

[24]http://www.sherg.az/site/id20820/H%C3%BCquq_m%C3%BCdafi%C9%99%C3%A7il%C9%99ri__d%C9%99_m%C9%99lumat_al%C4%B1b#.WGJBcVOLScw

[25]http://www.olke.az/hadise-5/13-sayli-cezacekme-muessisesinde-mehkumlar-arasinda-munaqise-bas-verib-69950

### *2.2.3. Dövlət Təhlükəsizliyi Xidmətinin müəssisələri*

***DTX-nin Müvəqqəti saxlama yeri və istintaq təcridxanasına*** Ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində Müvəkkilin və onun MPQ-nun üzvlərinin iştirakı ilə 4 başçəkmə həyata keçirilmişdir.

Başçəkmələrdə məqsəd Ombudsmanın ünvanına daxil olmuş müraciətlərin araşdırılması, müəssisədə saxlanılan şəxslərlə rəftar, qidalanma, sənədləşmənin aparılması, tibbi xidmətin əlçatanlığı və "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun şəkildə saxlanılan şəxslərin hüquqlarının təmin olunması vəziyyətinin öyrənilməsi olmuşdur.Müəssisədə başçəkmənin effektiv həyata keçirilməsi üçün müvafiq şərait yaradılmışdır.

Başçəkmələr zamanı saxlanma şəraiti, qidalanma, ərzaq təminatı araşdırılmış, bu məqsədlə həmin müəssisənin kameralarına, mətbəx və ərzaq anbarına baxış keçirilmiş, habelə tibbi yardım, gəzinti, telefon danışığı, hüquqi yardım və digər hüquqlarının təminatı vəziyyəti yoxlanılmışdır.

Rəftar məsələlərinin araşdırılması ilə bağlı baxış keçirilmiş kameralarda saxlanılan şəxslərlə təkbətək qaydada görüş keçirilmiş, müraciətləri dinlənilmiş, hər birinə qaldırdıqları məsələlərlə bağlı hüquqi məsləhətlər verilmiş, Ombudsmanın səlahiyyətləri və qanunvericiliyin tələbləri izah olunmuşdur.

Qəbul edilmiş şəxslər Müvəqqəti saxlama yeri və istintaq təcridxanasının əməkdaşlarının onlarla rəftarından və müəssisədə saxlanma şəraitindən şikayət etməmiş, keyfiyyətli qida, gəzinti və tibbi xidmətdən razılıqlarını bildirmişlər.

Qeyd olunmalıdır ki, Müvəkkilin tövsiyələri də nəzərə alınmaqla Müvəqqəti saxlama yeri və istintaq təcridxanasında tibbi xidmət və saxlanma şəraiti müasir standartlara uyğunlaşdırılmış, kameralar televizorla və lazımi avadanlıqlarla təchiz edilmişdir. Tövsiyələr əsasında həyata keçirilən islahatların tərkib kissəsi kimi müəssisənin ştat vahidinə psixoloq ştatı da əlavə olunmuşdur.

Həyata keçirilmiş başçəkmələrin yekununda müəssisə rəhbərliyi ilə milli və beynəlxalq qanunvericiliyə uyğun şəkildə saxlanma şəraitinin, tibbi xidmətin və sənədləşmənin aparılması işinin daha da təkmilləşdirilməsi ilə bağlı müzakirələr aparılmış və müvafiq tövsiyələr verilmişdir[26].

### *2.2.4. Müdafiə Nazirliyinin müəssisələri*

Ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində MPQ-nin üzvləri tərəfindən MN-in tabeliyində saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrə il ərzində 1 başçəkmə həyata keçirilmişdir.

---

[26]http://www.gununsesi.info/ombudsmanin-%C9%99m%C9%99kdaslari-dtx-nin-istintaq-t%C9%99cridxanasinda-olublar/

***Bakı Hərbi Qarnizonu üzrə Hərbi Polisin Hauptvaxtına*** Ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində MPQ-nin üzvlərinin iştirakı ilə başçəkmə həyata keçirilmişdir.

Başçəkmə zamanı saxlanma şəraiti və rəftar məsələləri araşdırılmış, saxlanılan hərbi qulluqçuların hüquqlarının təmin olunması vəziyyəti öyrənilmişdir.

Başçəkmə çərçivəsində müvafiq sənədləşmə, o cümlədən saxlanma şəraitinin araşdırılması məqsədilə hauptvaxtın bütün obyektlərinə, kameralara, inzibati otaqlara, yeməkxanaya, hamam otağına baxış keçirilmiş, qidalanma, içməli, isti və soyuq su təminatı, tibbi yardım, gəzinti ilə bağlı mövcud vəziyyət yoxlanılmışdır.

Hauptvaxtda saxlanılan hərbi qulluqçular üçün lazımi şərait yaradıldığı müşahidə edilmişdir.

MPQ-nin üzvləri tərəfindən hauptvaxtda saxlanılan hərbi qulluqçular fərdi qəbul olunmuş, buradakı saxlanma şəraitindən və müəssisə əməkdaşları tərəfindən onlara qarşı rəftardan narazılıq etməmişlər. Onlara ünvanlanan hüquqi maarifləndimə işi aparılmış, Müvəkkilin səlahiyyətləri izah olunmuşdur.

Başçəkmənin sonunda hərbi hissə rəhbərliyi və hauptvaxtın hərbi qulluqçuları ilə milli və beynəlxalq qanunvericiliyə, o cümlədən Ombudsman haqqında Konstitusiya Qanununa əsaslanan hüquqi maarifləndirici söhbətlər aparılmış və müvafiq tövsiyələr verilmişdir.

### *2.2.5. Dövlət Miqrasiya Xidmətinin müəssisələri*

Ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti ilə bağlı DMX-nin tabeliyində olan saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi 2 müəssisə var və il ərzində həmin müəssisələrə MPQ-nin üzvləri tərəfindən Fakültativ Protoko-lun tələbləri əsasında 2 başçəkmə həyata keçirilmişdir.

***Yevlax Rayon Qanunsuz Miqrantların Saxlanılma Mərkəzinə*** MPQ-nin üzvləri tərəfindən başçəkmələr həyata keçirilmişdir.

Başçəkmələrdə məqsəd müəssisədə saxlanılan şəxslərlə rəftar, saxlanma şəraiti, qidalanma, sənədləşmənin aparılması, tibbi xidmətin əlçatanlığı və Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinə, habelə beynəlxalq qanunvericiliyə uyğun şəkildə saxlanılan şəxslərin hüquqlarının təmin olunması vəziyyətinin öyrənilməsi olmuşdur.Müəssisədə başçəkmənin effektiv həyata keçirilməsi üçün müvafiq şərait yaradılmışdır.

Başçəkmə zamanı müəssisənin inzibati binasına, iki mərtəbədən ibarət olan könüllü saxlanılanların müvəqqəti saxlanılma binasına, müvəqqəti saxlanılma təcridxanasına  baxış keçirilmiş, müəssisə rəisi və əməkdaşları ilə söhbət aparılmışdır. Başçəkmə zamanı müəssisədə saxlanılan şəxs olmamışdır.

*Yevlax rayon Qanunsuz Miqrantların Saxlanılma Mərkəzində yerləşdirilən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikası Miqrasiya Məcəlləsinin 87.1.20-ci maddəsi ilə nəzərdə tutulmuş telefon əlaqəsindən istifadə etmək hüquqlarının həyata keçirilməsi üçün müvafiq telefon danışığı məntəqəsinin olmaması müşahidə edilmişdir. Mərkəz əməkdaşları telefon danışığına ehtiyac yarandığı təqdirdə mərkəzdə yerləşdirilən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin nəzarət altında şəxsi mobil telefonlarından, şəxsi mobil telefon olmadıqda isə mərkəz əməkdaşlarının şəxsi mobil telefonlarından istifadə etdiklərini bildirmişlər.*

Başçəkmənin yekununda müəssisə rəhbərliyinə milli qanunvericilik və beynəlxalq standartlar əsasında müəssisə rəhbərliyinə müvafiq tövsiyələr verilmişdir.

### *2.2.6. Səhiyyə Nazirliyinin müəssisələri*

Ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində MPQ-nin üzvləri tərəfindən Fakültativ Protokolun tələbləri əsasında MPM yurisdiksiyasına daxil olan SN-in müəssisələrinə 23 başçəkmə həyata keçirilmişdir.

Başçəkmələr milli qanunvericilik, "Psixiatriya yardımı haqqında" Azərbaycan Respublikasının Qanunu, o cümlədən beynəlxalq standartlar, "Əqli qüsurlu şəxslərin hüquqları haqqında Bəyannamə", "Psixi xəstə şəxslərin müdafiəsi və psixiatrik yardımın yaxşılaşdırılması Prinsipləri[27] və İQA (SPT) qaydaları, İQAK-nın 3-cü Ümumi məruzəsində (İQAK/INF (93) 12, maddə 3077) təsbit olunmuş tövsiyələr əsasında həyata keçirilmişdir.

Başçəkmələrdə məqsəd saxlanılan şəxslərlə rəftar, saxlama şəraiti, tibbi yardımın vəziyyəti və saxlanmanın qanuniliyini təsdiq edən sənədlərin araşdırılması olmuş, saxlama şəraiti qiymətləndirilmiş, aşkar olunmuş və yerində aradan qaldırılması mümkün olan məsələlərlə bağlı müəssisə rəhbərliyinə tövsiyələr verilmiş, habelə psixiatriya müəssisələrində saxlanılan şəxslərin hüquqlarının qoruması və gələcəkdə onlara qarşı hər hansı pis rəftar hallarının baş verməsinin qarşısının alınması məqsədilə müəssisə rəhbərliyinə və əməkdaşlarına ünvanlanan hüquqi maarifləndirici söhbətlər aparılmışdır.

Əvvəlki başçəkmələr zamanı verilmiş tövsiyələrin icra vəziyyəti də yoxlanılmış, 1 saylı Respublika Psixiatriya Xəstəxanasında yeni korpusların tikildiyi, dərnəklərin yaradıldığı, yaşıllıqların salındığı, Sumqayıt Şəhər və Salyan Rayonlararası Psixiatriya Xəstəxanalarında isə ümumi vəziyyətin və şəraitin xeyli təkmilləşməsi müşahidə olunmuşdur.

***1 saylı Respublika Psixiatriya Xəstəxanasına*** başçəkmə həyata keçirilmişdir.

Başçəkmə zamanımüəssisədə saxlanılan şəxslərlə rəftar, saxlama şəraiti, tibbi yardımın vəziyyəti və saxlanmanın qanuniliyini təsdiq edən sənədləşmə

---

[27]BMT Baş Assambleyasının 17 dekabr 1991-cı il tarixli 46/119 saylı qətnaməsi ilə qəbul olunmuşdur.

yoxlanılmışdır.Başçəkmə gününə müəssisədə saxlanılan 2062 pasiyentdən 640 nəfəri qadın, 1422 nəfəri isə kişi olmuşdur.

Başçəkmə zamanı, müəssisədə pasiyentlərə şikayət və ya müraciət etmək üçün imkan yaradıldığı, bunun üçün müvafiq qutuların xəstəxana ərazisində quraşdırıldığı, xəstəxananın dərman və ərzaq təchizatının, su,təbii qaz və istilik təminatının normal olduğu müşahidə edilmişdir. Müəssisə rəhbərliyi tərəfindən məhdudlaşdırıcı vasitələrdən nadir hallarda aqressiv pasiyentlərə münasibətdə istifadə olunduğu, izolyasiya otağına salınma təcrübəsindən də imtina edildiyi bildirilmişdir.

*Başçəkmə zamanı müəssisədə sıxlığın olduğu müşahidə edilmiş, həmin vəziyyət xəstəxananın baş həkimi tərəfindən respublikanın digər psixiatriya xəstəxanalarında aparılan təmir işləri ilə bağlı xəstələrin buraya köçürülməsi ilə əlaqələndirilmişdir. Tibbi və yardımçı personalın sayının azlığı, o cümlədən yetkinlik yaşına çatmayan şəxslərə və gənclərə münasibətdə də personalın sayının az olduğu müşahidə edilmişdir.*

Psixiatriya Xəstəxanasında pasiyentlər əmək fəaliyyəti ilə də məşğul olduqları, reabilitasiya məqsədilə dulusçuluq, toxuculuq, rəsmlə məşğul olma təcrübəsindən istifadə edildiyi məlum olmuşdur.

Başçəkmənin sonunda müəssisə rəhbərliyi ilə müzakirələr aparılmış, sənədləşmə işinin təkmilləşdirilməsi istiqamətində müvafiq tövsiyələr verilmişdir.

***Gəncə Şəhər Psixiatriya Xəstəxanasına*** MPQ-nin üzvləri tərəfindən Fakültativ Protokolun tələbləri əsasında keçirilmiş başçəkmə həyata keçirilmişdir. Başçəkmə günündə müəssisədə müalicə alan 91 nəfər kişi olduğu, xəstəxananın qadın şöbəsinin öz fəaliyyətini dayandırdığı və qadın xəstələrin Qazax RPX-na yerləşdirildiyi bildirilmişdir.

Başçəkmə zamanı xəstəxananın ərazisinə, binasına, yeməkxana və mətbəxinə baxış keçirilmiş, xəstəxana binasının hər iki mərtəbəsində yerləşən şöbələrdəki palataların və həkim otaqlarının vəziyyəti yoxlanılmışdır.

*Kişi şöbəsinin ikinci mərtəbədəki sanitar qovşağının və hamamının əsaslı təmirə ehtiyacı olduğu müəyyən edilmişdir. Hər iki mərtəbədəki dəhlizdə xəstələrin ərizə və şikayətləri qutusunun quraşdırıldığı müşahidə edilsə də, pasiyentlərin hüquqları haqqında məlumatların dəhlizdə xəstələrin tanış ola biləcəkləri yerdə yox, şöbə müdirlərinin otağında asıldığı müşahidə edilmişdir. Bu isə BMT-nin "Psixi xəstələrin müdafiəsi və psixiatriya yardımının yaxşılaşdırılması prinsiplərinin"12-ci, "pasiyent bu prinsiplər və milli qanunvericiliklə malik olduqları hüquqları barədə məlumatlandırılmalıdır" prinsipinin tələblərinin pozulması kimi qiymətləndirilə bilər. Müəssisə rəhbərliyinə pasiyentlərin hüquqları haqqında məlumatların dəhlizdə pasiyentlərin tanış ola biləcəkləri yerdə quraşdırılması tövsiyə edilmişdir. Eyni zamanda xəstəxana həkimlərinin iş yükünün çox olduğuna görə xəstəxananın əlavə həkimlərlə təmin edilməsinə və dərman təminatı üçün*

*ayrılan vəsaitin artırılmasına ehtiyac olduğu da müəyyən edilmişdir.*

*Xəstəxananın 2-ci və 3-cü şöbələrinə başçəkmə zamanı həmin şöbələrin kəskin qoxulu, sanitar qovşaqda və hamamda antisanitar şəraitin olduğu, palatalarda əsaslı təmirə ehtiyac olduğu, xəstələrin istirahəti üçün televizor olmadığını, palatalardakı yataqların matraslarının nimdaş, bəzilərinin isə yataq dəstələri ilə təmin edilmədiyi, xəstələrin bəzilərinin geyimlərinin də natəmiz olduğu müşahidə edilmişdir.*

Xəstəxanada mətbəxin ümumi vəziyyəti normal qiymətləndirilsə də, qeyd olunmuşdur ki, gündəlik qida rasionu təkrarlanır və menyu dəyişilmir. *İşgəncələrin qarşısının alınması üzrə Avropa Komitəsinin psixiatriya müəssisələrində pasiyentlərin saxlama şəraiti ilə bağlı müvafiq standartlarına görə qidalanma ən vacib amillərdən biridir. CPT hesab edir ki, qida rasionu keyfiyyət və kəmiyyət baxımından birbirinə adekvat olmalıdır. Bunları nəzərə alaraq menyuda müxtəlifliyin təmin edilməsinə ehtiyac olduğunu qeyd etməliyik.*[28]

Başçəkmə zamanı müəyyən edilmişdir ki, müəssisədə narahat xəstələrin izolyasiya edilməsi üçün "qayğı otağı" adlı otaqdan istifadə olunur. *Qeyd etmək lazımdır ki, müasir psixiatriyada pasiyentlərin izolyasiyası təcrübəsindən getdikcə imtina olunur. İzolyasiyadan istifadə edilməsinə ehtiyac yarandıqda isə bir sıra şərtlər nəzərə alınır: izolyasiyadan nə məqsədlə istifadə olunur, zəruri insani ünsiyyət amili təmin olunurmu,hansı müddətə təyin olunur və s. İzolyasiya heç bir halda cəza tədbiri kimi təyin edilə bilməz. Bu baxımdan pasiyentlərin "qayğı otağı" adlı otaqda izolyasiyası təcrübəsindən istifadə edilməsinə son verilməsi müəssisə rəhbərliyinə tövsiyə edilmişdir*[29].

*Gəncə Şəhər Psixiatriya Xəstəxanasında da həkimlərin iş yükünün çoxluğunu nəzərə alaraq tibbi və yardımçı personalın sayının və dərman təminatı üçün ayrılan vəsaitin artırılmasına ehtiyac olduğu müəyyən edilmişdir.*

Göstərilən çatımazlıqların aradan qaldırılması ilə bağlı Müvəkkil tərəfindən Səhiyyə nazirinə müraciət ünvanlanmış, zərurət olaraq xəstəxana üçün Gəncə şəhərində yeni binanın tikintisinin sürətləndirilməsinin vacibliyi vurğulanmışdır.

***Qazax Rayonlarası Psixiatriya Xəstəxanasına başçəkmə*** zamanı müəssisədə saxlanılan şəxslərlə rəftar, saxlama şəraiti, tibbi yardımın vəziyyəti və saxlanmanın qanuniliyini təsdiq edən sənədləşmə yoxlanılmışdır.

*Qazax Rayonlararası Psixiatriya Xəstəxanasında binanın bir əsrdən artıq mövcud olduğunu, nəmişlik və digər təbii aşınma nəticəsində burada aparılan*

---

[28] Стандарты ЕКПП «Существенные» разделы общих докладов ЕКПП.c 62.CPT/Inf/E (2002) 1 – Rev. 2015

[29] Стандарты ЕКПП «Существенные» разделы общих докладов ЕКПП.c 67.CPT/Inf/E (2002) 1 – Rev. 2015

*cari təmir işlərinin tez bir zamanda sıradan çıxmasını nəzərə alaraq xəstəxana üçün yeni müasir standartlara cavab verən binanın tikintisinə ehtiyac vardır.*

*Başçəkmə zamanı xəstəxanada ibadət otağının, telefon kabinələrinin, kitabxananın yaradılmasına ehtiyac olduğu, həmçinin mətbəxin, camaşırxananın, sanitar qovşaqların mövcud standartlara uyğun olmadığı müəyyən edilmişdir.*

Başçəkmə gününə olan məlumata əsasən 2016-cı ildə xəstəxanada 2 nəfər xəstəlikdən vəfat etmiş, kişi dəfn olunması üçün ailəsinə təhvil verilmiş, kimsəsiz qadın isə xəstəxana rəhbərliyi tərəfindən dəfn edilmişdir.

Pasiyentlərlə görüş zamanı xəstəxana əməkdaşlarının rəftarı ilə maraqlanılmış, rəftarla bağlı hər hansı şikayət daxil olmamışdır.

Xəstəxananın baş həkimi məhdudlaşdırıcı vasitələrlə bağlı sualı cavablandırarkən xüsusi vasitələrin olmaması səbəbindən zərurət halında həkimin qərarı ilə pasiyent sakitləşənə kimi (təxminən 10 dəqiqə) döşək ağı ilə bağlama üsulundan istifadə edildiyini, bu barədə məhdudlaşdırmanın qeydiyyatı jurnalına müvafiq qeydlərin aparıldığını bildirmişdir. Milli Preventiv Qrupun üzvləri tərəfindən adıçəkilən jurnalla yanaşı digər qeydiyyat jurnallarına da baxış keçilmişdir.

MPQ üzvləri tərəfindən əvvəlki başçəkmələr zamanı müəyyən edilmiş bəzi nöqsanların aradan qaldırıldığı xüsusilə vurğulanmalıdır. *Belə ki,ikinci mərtəbədəki və xəstəxananın yeməkxanasındakı təmirsiz və bərbad hissə təmir edilmişdir*. Pasiyentlərin hüquqlarının təmin edilməsi istiqamətində də müvafiq işlər görülmüşdür. Xəstəxanada əvvəlki başçəkmədən sonra ərizə və şikayətlər qutusu quraşdırılmış, pasiyentlərin hüquqları barədə məlumat vərəqələri müəssisənin divarlarına xüsusi formada bərkidilmişdir. *Bu tələb BMT-nin "Psixi xəstələrin müdafiəsi və psixiatriya yardımının yaxşılaşdırılmasının prinsiplərinin" müddəalarına əsaslanır. Pasiyent bu tip informasiyanı anlamaq qabiliyyətinə malik deyilsə, bu halda onun şəxsi nümayəndəsi və ya onun maraqlarını təmsil edən hər hansı şəxs və ya şəxslər qısa zaman ərzində bu hüquqlarla tanış edilməlidir. CPT-nin psixiatriya müəssisələrində saxlanılan pasiyentlərin hüquqlarına dair tövsiyələrində pasiyent psixiatriya müəssisəsinə daxil olan gün ona və onun ailə üzvlərinə müəssisənin daxili qaydaları və pasiyentin hüquqlarının əks olunduğu məlumatların, broşürun təqdim edilməsi tələbi vurğulanır. Bu tip müəssisələrdə də effektiv şikayətlərin verilmə proseduru mövcud olmalı, pasiyent məktublar almaq və göndərmək, telefonla danışmaq imkanına malik olmalıdır.*[30]

Mətbəxin ümumi vəziyyətinin normal olduğu, gigiyena qaydalarına əməl olunduğu, gündəlik qida rasionunda və menyuda müxtəlifliyin təmin edildiyi məlum olmuşdur.

---

[30] Стандарты ЕКПП «Существенные» разделы общих докладов ЕКПП.c 68.CPT/Inf/E (2002) 1 – Rev. 2015

*Başçəkmə zamanı aşkar olunmuş təxirə salınmadan aradan qaldırılması zəruri olan əsas nöqsan və qüsur kimi sanitar qovşaqların əsaslı təmir edilməsi qeyd edilmişdir. İşgəncənin və digər qeyri insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəzanın qarşısının alınması üzrə Avropa Komitəsinin psixiatriya müəssisələrində pasiyentlərin saxlama şəraiti ilə bağlı müvafiq standartlarına görə pasiyentlərin öz təbii ehtiyaclarını ödəməsi üçün müvafiq şərait yaradılmalıdır. Belə ki, pasiyentlərə təbii ehtiyaclarını digər pasiyentlərdən kənarda ödəmək imkanı yaradılmalıdır. Yaşlı və əlil pasiyentlərin tələbatları da nəzərə alınmalıdır. Belə ki, onlar üçün lazımi konstruksiyalı sanitar qovşağın olması vacibdir. Bu qrup şəxslər üçün müəssisələrdə əyləşmək xüsusiyyətləri olan tualetlər olmalıdır.*[31]

Başçəkmənin sonunda xəstəxana rəhbərliyinə saxlama şəraitinin daha da təkmilləşdirilməsi, pasiyentlərin qidalanması zamanı menyuda müxtəlifliyə riayət edilməsi üzrə tövsiyələr verilmiş, yuxarıda qeyd olunan çatımazlıqların aradan qaldırılması ilə bağlı Müvəkkil tərəfindən Səhiyyə nazirinə müraciət ünvanlanmışdır.

***Şəki Rayonlararası Psixiatriya Xəstəxanasına*** başçəkmə zamanı burada müalicə alan 88 xəstə (56 kişi və 32 qadın) olmuşdur.

*Müəssisədə sıxlıq müşahidə edilmiş, otaq sayının kifayət etmədiyi, palatalarda ayrıca istilik sisteminin olmadığı, qızdırıcıların yalnız dəhlizlərdə quraşdırıldığı, müəssisənin təmirsiz və müalicə üçün yararsız olduğu müəyyən edilmişdir. Bu baxımdan Şəki Rayonlararası Psixiatriya Xəstəxanası üçün yeni binanın tikintisinin sürətləndirilməsinə ciddi ehtiyac vardır.*

Xəstəxanada pasiyentlər üçün şikayət və ya müraciət etmək hüququnu reallaşdırmaq üçün müvafiq şərait yaradıldığı, bu məqsədlə ərizə və şikayətlər üçün xüsusi qutuların da quraşdırıldığı müşahidə edilmişdir.

Müəssisə rəhbərliyi tərəfindən gücdən və digər məhdudlaşdırıcı vasitələrdən istifadənin minumuma endirildiyi, qısamüddətli fiksasiyanın aparılmasına ehtiyac yarandığı hallarda tətbiq olunduğu və müvafiq jurnalda qeydiyyatın aparıldığı, izolyasiya otağına salınma və başqa intizam tədbirlərindən istifadə olunmadığı bildirilmişdir.

Müəssisədə şəxsi gigiyena vasitələri ilə pasiyentlərin təminat vəziyyəti və iqlimə uyğun geyimlə təminatı kafi qiymətləndirlə bilər. Hamamda 4 ədəd işlək vəziyyətdə olan duş yerləri mövcuddur. Gigiyena vəziyyəti hamamda kafidir. Şəxslərin çimmə müntəzəmliyi həftədə 12 dəfədir.

Müəssisədə təsərrüfat işləri formasında pasiyentlərin könüllü əmək məşğulluğu təmin edilmişdir.

---

[31] Стандарты ЕКПП «Существенные» разделы общих докладов ЕКПП.с 62.CPT/Inf/E (2002) 1 – Rev. 2015

Yeməkxananın vəziyyəti yaxşı,mətbəxdə gigiyena şəraiti kafidir. Müəssisədə görüş otaqlarının vəziyyəti yaxşıdır, görüşlərin verilməsi müntəzəmliyində məhdudiyyətin olmadığı bildirilmişdir.

*İQAKın psixiatriya müəssisələrində pasiyentlərin saxlama şəraiti ilə bağlı tələblərinə görə hər bir pasiyentə kifayət qədər şəxsi yaşayış sahəsi verilməli, sıxlıq halları olmamalıdır. Bəzi ölkələrdə psixiatriya müəssisələrinin pasiyentlərinin çoxyerlik palatalarda yerləşdirlməsi təcrübəsindən imtina edilməkdədir ki, bu təcrübə müsbət qiymətləndirlməlidir. Pasiyentlərin kiçik qruplarda yerləşdirlməsi onların şəxsi ləyaqət hissinin saxlanılması/bərpası baxımından həlledici faktor sayılır. Bir sıra ölkələrin təcrübəsində pasiyentin öz otaqlarının olması və gün ərzində onun öz otağına daxil olmaq imkanının yaranması da alqışlanmalı haldır. Belə olan halda pasiyent digər pasiyentlərlə birgə kommunal zonalarda olmaq öhdəliyindən də azad olur.*[32].

Başçəkmənin sonunda xəstəxana rəhbərliyinə saxlama şəraitinin daha da təkmilləşdirilməsi, pasiyentlərin qidalanması zamanı menyuda müxtəlifliyə riayət edilməsi üzrə tövsiyələr verilmiş, yuxarıda qeyd olunan çatımazlıqların aradan qaldırılması ilə bağlı Müvəkkil tərəfindən Səhiyyə nazirinə müraciət ünvanlanmışdır.

***Salyan Rayonlararası Psixiatriya Xəstəxanasına*** MPQ üzvləri tərəfindən başçəkmə həyata keçirilmişdir. Başçəkmədə məqsəd müəssisədə saxlanma şəraiti və rəftarın qiymətləndirilməsi, əvvəlki başçəkmələr zamanı aşkar olunmuş çatışmazlıqların aradan qaldırılması vəziyyətinin yoxlanılması olmuşdur.

Salyan Rayonlararası Psixiatriya Xəstəxanasının yeni binası 2013-cü ildən istifadə edilir. İki mərtəbə və bir korpusdan ibarətdir. Qadın və kişi pasiyentlər ayrıayrı mərtəbələrdə saxlanılır. Başçəkmə zamanı 111 nəfər müəssisədə saxlanılırdı ki, onlardan 57 nəfəri kişi, 54 nəfər qadın olmuşdur.

Cari ildə müəssisədə ölüm və intihar halları olmamışdır. Xəstəxanada pasiyentlərin müvafiq hüquqlarından istifadə etməsi üçün müəssisənin girişində "Xəstələrin şikayət qutusu" qoyulmuşdur.

*Müəssisənin təbii qazla təminatı mövcud olmadığı, istilik sistemi ilə təchizatında problemlərin olduğu, palataların fasilələrlə, ancaq gecələr isidildiyi müəyyən edilmişdir ki, bu da müəssisə rəhbərliyi tərəfindən qızdırıcı mühərriklərin işləməsi üçün lazım olan dizel yanacağının çatışmaması, həmin yanacağın alınması üçün ayrılan vəsaitin lazımi qədər köçürülməməsi ilə əlaqələndirilmişdir.*

*Müəssisənin qida və dərman vasitələri ilə təchizatında da çatışmazlıqların olduğu müəyyən edilmiş, başçəkmə zamanı bəzi palatalarda müvafiq işıqlan-*

[32] Стандарты ЕКПП «Существенные» разделы общих докладов ЕКПП.c 63.CPT/Inf/E (2002) 1 – Rev. 2015

*dırılmanın, ventilyasiyanın olmaması, çarpayılarda döşək üzü, balış üzü və mələfələrin natəmiz olması nəzərə çarpmışdır.*

Müəssisənin su ilə təminatı da normaldır. Su ehtiyatlarından istifadə edilməsi üçün su mənbədən təmizləmə rezervuarına, oradan isə təmiz su yeraltı rezervuara vurulur.

Pasiyentlərə qarşı gücdən və digər məhdudlaşdırıcı vasitələrdən istifadə üçün fiksasiyaedici xalatdan istifadə olunur. İzolyasiya otağına salınma təcrübəsi tətbiq edilir.

Psixiatriya müəssisəsinə aid 1 ha torpaq sahəsində tərəvəz və bostan bitkiləri becərilir ki, bu məhsullardan pasiyentlərin qidalanması üçün istifadə olunur. Burada əmək məşğulluğu könüllü xarakter daşıyır. Xəstəxananın əsas korpusundan təxminən 500 metr aralıda yerləşən mətbəxin ümumi vəziyyəti standartlara uyğundur. Gigiyena qaydalarına əməl edilir. Qidalanma qaydası gündə 3 dəfə olmaqla verilir, menyu dəyişkən və müxtəlifdir.

*Mətbəxə baxış keçirilərkən yeməyin keyfiyyətinə hər hansı nəzarətin həyata keçirilmədiyi və yoxlamaların nəticələrini özündə əks etdirən müvafiq qeydiyyat jurnalının olmadığı müəyyən edilmişdir. Müəssisənin baş həkiminə dərhal bu çatışmamazlığın aradan qaldırılması tövsiyə edilmişdir.*

*Müəssisənin kişi şöbəsində də bir sıra nöqsanlar aşkar edilmişdir.Belə ki,bəzi palatalarda işıq lampalarının yanmaması, bəzi çarpayılarda döşək üzü,balış üzü və mələfələrin natəmiz olması nəzərə çarpmışdır. CPT standartlarına görə hər bir pasiyent üçün adekvat işıqlandırma şəraiti yaradılmalıdır. Pasiyentlərin yerləşdikləri palata və istirahət zonalarının işıqlandırılması o səviyyədə həyata keçirilməlidir ki, onların görmə fəaliyyəti stimullaşdırıla bilinsin.*[33]*Xəstəxanadaxili gigiyena və sanitariyanın təmin edilməsi özözlüyündə ən mühüm tələblərdən biri kimi çıxış etməlidir.*

Başçəkmənin sonunda xəstəxana rəhbərliyinə saxlama şəraitinin daha da təkmilləşdirilməsi, pasiyentlərin qidalanması zamanı menyuda müxtəlifliyə riayət edilməsi üzrə tövsiyələr verilmiş, yuxarıda qeyd olunan çatımazlıqların aradan qaldırılması ilə bağlı Müvəkkil tərəfindən Səhiyyə nazirinə müraciət ünvanlanmışdır.

***Quba Rayonlararası Psixonevroloji Reabilitasiya Mərkəzinə*** başçəkmə zamanı isə, ümumi əraziyə, şöbələrə, müşahidə otaqlarına, palatalara, həkim otaqlarına, istirahət və görüş otaqlarına, mətbəxə, yeməkxanalara, hamama, sanitariya qovşaqlarına, anbarlara, qazanxanaya və inzibati binaya baxış keçirilmişdir.

*Başçəkmə zamanı, müəssisənin əsaslı təmirinin başa çatdırıldığı, lakin bəzi texniki problemlər səbəbindən xəstələrin qəbulunun aparılmadığı müəyyən edilmişdir.*

---

[33] Стандарты ЕКПП «Существенные» разделы общих докладов ЕКПП.c 62.CPT/Inf/E (2002) 1 – Rev. 2015

*Bu baxımdan müəssisənin vaxtında lazımi qida və dərman vasitələri ilə təchizatının yaxşılaşdırılması, tikintidən sonra müəyyən edilmiş çatışmazlıqların tez bir zamanda aradan qaldırılması və sanitar normalara uyğunlaşdırılması, başqa xəstəxanalara köçürülmüş xəstələrin digər müəssisələrdə sıxlığın aradan qaldırılması baxımından geri qaytarılması olduqca vacibdir.*

Başçəkmənin sonunda müəssisə rəhbərliyinə müvafiq tövsiyələr verimiş, yuxarıda qeyd olunan çatımazlıqların aradan qaldırılması ilə bağlı Müvəkkil tərəfindən Səhiyyə nazirinə müraciət ünvanlanmışdır.

***Sumqayıt Şəhər Psixiatriya Xəstəxanasına*** Ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində Müvəkkil və MPQ-nin üzvləri tərəfindən Fakültativ Protokolun tələbləri əsasında başçəkmə həyata keçirmişdir. Başçəkmənin əsas məqsədi MPM qismində fəaliyyəti çərçivəsində Müvəkkilin əvvəllər verdiyi tövsiyələrinin icrası vəziyyətini araşdırmaq olmuşdur.Bundan əlavə xəstəxananın ümumi vəziyyəti, xəstələrin qidalanması, pasiyentlərin hüquqlarının təmini vəziyyətini araşdırmaq başçəkmənin məqsədləri sırasında olmuşdur.

*Qeyd olunmalıdır ki, əvvəlki başçəkmələr və verilmiş tövsiyələrdən sonra xəstəxanada ümumi vəziyyət və şərait xeyli təkmilləşmişdir.*

Müəssisədə gigiyenik vasitələrlə təminat və geyimin iqlimə uyğunluğu və təmizliyi qənaətbəxş qiymətləndirilmişdir. Xəstəxananın həyətində ağaclara və gül tinglərinə qulluq, qadınlar tərəfindən bəzək və digər əşyaların hazırlanması formasında əmək məşğulluğu mövcuddur.

Pasiyentlər hər gün saat 17.00-dan 19.00-a qədər görüş otaqlarında ailə üzvləri və yaxınıları ilə görüşmək imkanına malikdirlər. Görüş otaqlarının vəziyyəti yaxşıdır. Pasiyentlərin istirahəti üçün yaxşı şərait yaradıldığını demək mükündür. Müəssisədə yaxşı vəziyyətdə kitabxana, hər istirahət otağında isə televizorların olması müşahidə edilmişdir.

*BMT-nin "Psixi xəstələrin müdafiəsi və psixiatriya yardımının yaxşılaşdırılması prinsiplərinə"görə psixiatriya müəssisələrində saxlanılan hər bir pasiyentin dini etiqad azadlığı vardır (13-cü prinsip,2-ci hissə). Bu baxımdan başçəkmə zamanı müəssisə rəhbərliyinə pasiyentlər üçün ibadət yerinin təşkil edilməsi tövsiyə edilmişdir.*

### *2.2.7. Təhsil Nazirliyinin müəssisələri*

2016-cı il ərzində Ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində MPQ-nin üzvləri tərəfindən Fakültativ Protokolun tələbləri əsasında TN-in tabeliyində olan saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrə planlı və plandankənar olmaqla 27 başçəkmə həyata keçirilmişdir.

***Quba Xüsusi Peşə Məktəbində*** başçəkmə zamanı yataqxanalara, sinif, tərbiyə və istirahət otaqlarına, kitabxanaya, mətbəxə, yeməkxanaya, hamama, inzibati otaqlara və ümumi əraziyə baxış keçirilmiş, saxlanma şəraiti və

müəssisədəki uşaqlarla rəftar, onların təhsil alması və asudə vaxtlarının təşkili məsələsi araşdırılmışdır.

Müəssisədə olan uşaqlar təkbətək qəbul edilmiş, onlarla fərdi söhbətlər aparılmış, rəftar məsələləri, təminatları və saxlama şəraitləri araşdırılmış, hüquqları izah edilmişdir. Uşaqlar müəssisə əməkdaşlarının onlara qarşı rəftarından şikayət etməmişlər.

*Başçəkmə zamanı çətin tərbiyə olunan uşaqlar üçün nəzərdə tutulan bu qapalı tipli təlim-tərbiyə müəssisəsinin binasının ötən əsrin əvvəllərində inşa olunduğu, mərkəzi isitmə sistemi ilə təchiz olunmadığı, hamam və sanitariya qovşaqlarının şəraitsiz və binanın əsaslı təmirə ehtiyacı olduğu məlum olmuşdur.*

*Hazırda Təhsil Nazirliyinin tabeliyində olan Quba xüsusi peşə məktəbinin fəaliyyətinin qanunvericiliklə müasir səviyyədə tənzimlənməsinə, saxlama şəraitinin beynəlxalq standartlara və yetkinlik yaşına çatmayanların maraqlarına uyğun şəkildə təkmilləşdirilməsinə ehtiyac vardır və bu məsələ üzrə təklif və tövsiyələr Müvəkkilin İllik Məruzəsinə daxil edilməklə yanaşı, aidiyyəti üzrə də təqdim olunmuşdur.*

Başçəkmənin yekununda MPQ üzvləri tərəfindən milli qanunvericilik və beynəlxalq standartlar, o cümlədən BMT-nin Uşaq hüquqları Konvensiyası əsasında məktəb direktoruna uşaqlarla rəftar və saxlanma şəraitlərinə, habelə təhsil, sağlamlıq və digər hüquqlarının effektiv təmini və nəzarətdə saxlanılması ilə bağlı müvafiq tövsiyələr verilmişdir.

***Quba Şəhər Valideyn Himayəsindən Məhrum Olmuş Uşaqlar üçün Tam Orta İnternat Məktəbində*** FP-nin tələbləri əsasında başçəkmə keçirmişdir.

MPQ-nin üzvləri tərəfindən keçirilmiş başçəkmə zamanı müəssisənin yataq, sinif və tərbiyə otaqlarına, mətbəxə, hamamxana və inzibati otaqlara, eləcə də ümumi əraziyə baxış keçirilmiş, saxlanma şəraiti və müəssisədəki uşaqlarla rəftar, onların təhsil alması və asudə vaxtlarının təşkili məsələsi araşdırılmışdır.

*İnternat məktəbinin əsas binası bir müddət əvvəl qəzalı vəziyyətdə olduğundan təmir-tikinti işlərinə bağlanmış və internatın kontingenti müvəqqəti olaraq Quba rayonunun Zərdabi qəsəbəsində yerləşən uşaq bağçası binasının bir hissəsinə yerləşdirilmişdi. Həmin vaxt Müvəkkil tərəfindən Milli Preventiv Mexanizm Fəaliyyəti çərçivəsində bu müəssisəyə başçəkmə keçirilmiş, uşaqların yerləşdirildiyi binanın internat məktəbi üçün uyğun olmadığı müəyyənləşdirilmiş və aparılan təmir-tikinti işlərinin tez bir zamanda yekunlaşdırılması ilə bağlı Təhsil Nazirliyinə müvafiq qaydada müraciət edilmişdir.*

*Müraciət əsasında təmir işlərinin tez başa çatdırılması təmin olunmuş və uşaqlar internat məktəbinin yeni təmir olunmuş binasına geri qaytarılmışlar.*

*Təmirdən sonra həmin müəssisəyə keçirilən başçəkmə zamanı müəssisənin*

*saxlama şəraiti ilə bağlı qaz təminatında problemlər olduğu müəyyən edilmiş və Müvəkkilin Fövqəladə Hallar Nazirliyi və AZƏRİQAZ İB-nə müraciəti nəticəsində həmin məsələ də öz müsbət həllini tapmışdır.*

Başçəkmə çərçivəsində müəssisədə saxlanılan uşaqların bir qismi ilə təkbətək söhbətlər aparılmış, müəssisə əməkdaşlarının onlarla rəftarı, təminatı və şəraitlər məsələləri araşdırılmışdır. Uşaqlar internatın şəraitindən, müəssisə əməkdaşlarının onlara qarşı rəftarından şikayət etməmişlər.

Başçəkmənin sonunda MPQ üzvləri tərəfindən milli qanunvericilik və beynəlxalq standartlar, o cümlədən BMT-nin Uşaq hüquqları Konvensiyası əsasında internat məktəbinin rəhbərliyi və əməkdaşları ilə hüquqi maarifləndirici söhbətlər aparılmış, uşaq hüquqlarının həyata keçirilməsi və təmininə diqqətin artırılması və bu sahədə fəaliyyətlərinin təkmilləşdirilməsi ilə bağlı tövsiyələr verilmişdir.

***Gəncə Şəhər Sanatoriya Tipli İnternat Məktəbində*** planlı başçəkmə həyata keçirilmişdir. Başçəkmə zamanı internat məktəbinin ərazisinə, yataqxana və digər təhsil korpuslarına baxış keçirilmiş, müəssisənin hər iki korpusunda əsaslı təmir işlərinin davam etdirildiyi müşahidə edilmişdir.

Məktəbin yataqxanasının birinci mərtəbəsində istilik sisteminin tam çəkilməsi başa çatmadığından, otaqların müvəqqəti olaraq elektrik qızdırıcıları ilə qızdırılması müəyyən edilmişdir. Məktəb rəhbərliyi tərəfindən həmin müəssisədə yerləşən yeməkxana, mətbəx və digər obyektlərin tam təmir olunaraq istifadəyə veriləcəyi bildirilmişdir.

Həmçinin əsaslı təmir işləri yekunlaşandan sonra aztəminatlı ailələrdən olan şagirdlərin yataqxana şəraitində gecələmələrinin də nəzərdə tutulduğu bildirilmişdir.

*Başçəkmə zamanı məktəb şəraitinin təkmilləşdirilməsi, dərslərdə uşaq hüquqları ilə bağlı məşğələlərin keçirilməsi, Müvəkkilin Gəncə regional mərkəzi ilə əməkdaşlıq məktəb rəhbərliyinə tövsiyə edilmişdir.*

MPQ-nin təkrar araşdırmasından sonra internat məktəbinin mətbəx və yeməkxanasının təmir edilərək istifadəyə verildiyi məlum olmuşdur.

Başçəkmənin sonunda MPQ üzvləri tərəfindən milli qanunvericilik və BMT-nin Uşaq hüquqları Konvensiyası əsasında məktəb rəhbərliyinə uşaq hüquqları üzrə məşğələlərin keçirilməsi, əməkdaşların uşaqlarla rəftar məsələlərinin nəzarətdə saxlanılması ilə bağlı tövsiyələr verilmişdir.

***Gəncə şəhər Təhsil İdarəsinin Əqli və Fiziki Cəhətdən Qüsurlu Uşaqlar üçün 45 saylı Xüsusi Məktəbinə*** başçəkmə həyata keçirilmişdir**.** Başçəkmə zamanı məktəbin sinif otaqlarına, müəllimlər otağına, tibb otağına, qazanxanasına, idman zalına və həyətinə baxış keçirilmiş, otaqların təmirli, səliqəli olması, idman zalının idman qurğuları ilə təchiz edilmiş vəziyyətdə olması və digər otaqların istifadəsinə uyğun qaydada inventarlarla təmin edilməsi müşahidə edilmişdir. Məktəbdə şagirdlərlə görüş zamanı şərait və rəftarla bağlı şikayət olmamışdır.

*Bununla yanaşı məktəbə təbii qazın verilməməsi və bu səbəbdən bəzi siniflərin elektrik qızdırıcıları ilə qızıdırlması müşahidə edilmişdir. Bu isə sinif otaqlarının soyuq olmasına və şagirdlərin davamiyyətinin aşağı düşməsinə səbəb olmuşdur. Qazın verilməməsi qış mövsümünə keçmə rejiminin vaxtının tamam olmaması ilə əlaqələndirilmişdir.*

***Goranboy rayonununda yerləşən İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziyaya*** MPQ üzvləri tərəfindən başçəkmə həyata keçirilmişdir. Başçəkmə zamanı müəssisənin yataq, sinif və tərbiyə otaqlarına, mətbəxə, hamamxana və inzibati otaqlara, eləcə də ümumi əraziyə baxış keçirilmiş, saxlama şəraiti və müəssisədəki uşaqlarla rəftar, onların təhsil alması və asudə vaxtlarının təşkili məsələsi araşdırılmışdır.

*Başçəkmə zamanı gimnaziyanın binasının əsaslı təmirinə, şagirdlərin daşınması üçün məktəbin sərnişin avtobusu ilə təmin olunmasına, maddi-texniki avadanlıqlarla təminatına böyük ehtiyacın olduğu müəyyən edilmişdir.*

Başçəkmənin sonunda MPQ üzvləri tərəfindən milli qanunvericilik və BMT-nin Uşaq hüquqları Konvensiyası əsasında məktəb rəhbərliyinə uşaq hüquqları üzrə məşğələlərin keçirilməsi, əməkdaşların uşaqlarla rəftar məsələlərinin nəzarətdə saxlanılması ilə bağlı tövsiyələr verilmişdir.

***Tovuz rayonu Qovlar şəhər İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziyaya*** planlı başçəkmə həyata keçirilmişdir. Məktəb rəhbərliyi tərəfindən məlumat verilmişdir ki, müəssisə 1960-cı ildən fəaliyyət göstərir. Müəssisədə hazırda Qazax, Ağstafa, Tovuz, Şəmkir rayonlarından gələn şagirdlər təhsil alır. Ümumilikdə Gimnaziyada 779 nəfərin təhsil aldığı, şagirdlərin 54 nəfərinin sağlamlıq imkanları məhdud uşaqlar olduğu, 64 nəfərin isə müəssisənin yataqxanasında gecələdiyi məlum olmuşdur.

Hazırda müəssisədə təmir işlərinin aparıldığı, 2 əsas korpusun yenidən əlavə tikililər artırılaraq təmir edildiyi, yeni yataqxana binasının tikildiyi müşahidə edilmişdir. Qeyd edilən təmir işləri ilə əlaqədar Gimnaziyada 2 növbəli tədris sisteminə keçildiyi barədə MPQ üzvlərinə müəssisə rəhbərliyi tərəfindən məlumat verilmişdir.

Başçəkmənin sonunda MPQ üzvləri tərəfindən milli qanunvericilik və beynəlxalq standartlar, o cümlədən BMT-nin Uşaq hüquqları Konvensiyası əsasında Gimnaziya direktoruna müvafiq tövsiyələr verilmişdir.

***Siyəzən Şəhər Ümumi Orta İnternat Məktəbində*** başçəkmə keçirilmişdir. Başçəkmə zamanı yataqxanalara, sinif və tərbiyə otaqlarına, mətbəxə, hamama, inzibati otaqlara, idman zalına və ümumi əraziyə baxış keçirilmiş, saxlama şəraiti və müəssisədəki uşaqlarla rəftar, onların təhsil alması və asudə vaxtlarının təşkili məsələsi araşdırılmışdır.

*Başçəkmə zamanı müəyyən edilmişdir ki, internat məktəbinin hamam otaqları və sanitariya qovşaqlarının əsaslı təmir edilməsinə ehtiyacı vardır. Ümumi ərazidə və yataqxanalarda müəyyən natəmizlik və antisanitariya hallarına rast gəlinmişdir. Aşkar olunmuş nöqsanlar məktəbin direktorunun*

*nəzərinə çatdırılmış, şəraitin yaxşılaşdırılması üçün tövsiyələr verilmişdir.*

Müəssisədə qalan uşaqlardan bir qismi ilə təkbətək söhbətlər aparılmış, onlarla rəftar, təminatları və şəraitləri barədə araşdırma aparılmışdır. Uşaqlara hüquqları izah edilmiş, onlar internatın şəraitindən, müəssisə əməkdaşlarının rəftarından şikayət etməmişlər.

Başçəkmələrin sonunda göstərilən məslələrlə bağlı müəssisə rəhbərliyinə milli və beynəlxalq qanunvericilik əsasında müvafiq tövsiyələr verilmişdir.

***Lənkəran şəhər Qarışıq Tipli Uşaq Evi** və **Lənkəran şəhər İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziyaya*** başçəkmələr həyata keçirilmişdir.

MPQ-nin üzvləri tərəfindən Fakültativ Protokolun tələbləri əsasında keçirilmiş başçəkmələrdə məqsəd uşaqlarla rəftar və hər iki müəssisədə saxlanma şəraitinin araşdırılması olmuşdur. Başçəkmə zamanı yataq, sinif və tərbiyə otaqlarına, mətbəxə, hamama, inzibati otaqlara və ümumi əraziyə baxış keçirilmiş, saxlanma şəraiti və müəssisədəki uşaqlarla rəftar, onların təhsil alması və asudə vaxtlarının təşkili məsələləri araşdırılmışdır.

Müəssisədə olan uşaqlardan bir qismi ilə təkbətək söhbətlər aparılmış, onlara rəftar məsələləri, təminatları və şəraitləri barədə suallar verilmiş, hüquqları izah edilmişdir. Uşaqlar internatın şəraitindən, müəssisə əməkdaşlarının onlara qarşı rəftarından şikayət etməmişlər.

Başçəkmənin sonunda MPQ üzvləri tərəfindən milli qanunvericilik və BMT-nin Uşaq hüquqları Konvensiyası əsasında məktəb rəhbərliyinə uşaq hüquqları üzrə məşğələlərin keçirilməsi, əməkdaşların uşaqlarla rəftar məsələlərinin nəzarətdə saxlanılması ilə bağlı tövsiyələr verilmişdir.

***Zaqatala Şəhər İnternat məktəbində*** MPQ-nin üzvləri tərəfindən Fakültativ Protokolun tələbləri əsasında başçəkmə həyata keçirilmişdir.

Müəssisələrdə keçirilmiş görüşlərdə uşaqlar, müəllimlər və tərbiyəçilərlə ayrı-ayrılıqda söhbətlər aparılmış, həmin müəssisənin bütün obyektlərinə baxışlar keçirilmiş, mövcud şərait və orada saxlanılan uşaqlara qarşı rəftar məsələləri araşdırılmışdır.

Başçəkmənin sonunda Müvəkkilin MPQ-nin üzvləri tərəfindən milli qanunvericilik və beynəlxalq standartlar, o cümlədən BMT-nin Uşaq hüquqları Konvensiyası əsasında məktəb direktoruna müvafiq tövsiyələr verilmişdir.

### *2.2.8. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müəssisələri*

2016-cı il ərzində Ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində MPQ-nin üzvləri olan Müvəkkilin Gəncə Regional Mərkəzinin əməkdaşları tərəfindən Fakültativ Protokolun tələbləri əsasında ƏƏSMN-nin tabeliyində olan müəssisələrə planlı və plandankənar olmaqla 6 başçəkmə həyata keçirilmişdir.

Başçəkmələr milli qanunvericilik, "Psixiatriya yardımı haqqında" Azərbaycan Respublikasının Qanunu, o cümlədən beynəlxalq standartlar, BMT-

nin “Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvesniyası”, “Əqli qüsurlu şəxslərin hüquqları haqqında Bəyannamə”, “Psixi xəstə şəxslərin müdafiəsi və psixiatrik yardımın yaxşılaşdırılması Prinsipləri, BMT-nin ahıl şəxslərə dair Prisipləri, BMT Baş Assambleyasının Əhalinin qocalması problemləri üzrə Beynəlxalq Fəaliyyət Planı üzrə tövsiyələri, CPT[34] və SPT qaydaları əsasında həyata keçirilmişdir.

Göygöl rayonu Qırıxlı kəndində yerləşən ***3 saylı Psixonevroloji Sosial Xidmət Müəssisəsində*** planlı başçəkmə həyata keçirilmişdir.

Başçəkmə zamanı MPQ-nin üzvləri müəssisənin müalicə və yataq otaqlarına, yeməkxana və mətbəxinə, ümumi əraziyə baxış keçirmiş, fiziki imkanları məhdud olan uşaqlar, əlilliyi olan şəxslərlə görüşmüşlər.

Söhbət aparılan şəxslər saxlanma şəraiti və onlara qarşı rəftardan razı qaldıqlarını bildirmişlər.

*Başçəkmənin nəticələrinə əsasən müəssisə binası uzun müddət istifadədə olduğundan divarlarının aşındığı, əksər divarlarda isə, suvaq qatının töküldüyü müşahidə edilmiş, bu baxımdan müəssisənin əsaslı təmirinə, stomatoloji xidmət göstərilməsi üçün stomatoloji kabinet və mütəxəssisə də ehtiyacın olması müəyyən edilmişdir.*

Saxlanma şəraitinin daha da təkmilləşdirilməsi ilə bağlı həmin sosial xidmət müəssisələrinin rəhbərliyinə milli qanunvericilik və beynəlxalq standartlar, habelə BMT-nin “Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiyası” əsasında müvafiq tövsiyələr verilmişdir.

***Gəncə Şəhər Pensiyaçıların Ərazi Sosial Xidməti Mərkəzinə*** Ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində MPQ-nin üzvləri tərəfindən Fakültativ Protokolun tələbləri əsasında başçəkmə həyata keçirilmişdir.

Başçəkmə zamanı MPQ-nin üzvləri tərəfindən müəssisənin yataq otaqlarına, yeməkxana və mətbəxinə, ümumi əraziyə baxış keçirmiş, yaşlı, fiziki imkanları məhdud və əlilliyi olan şəxslər fərdi şəkildə qəbul edilmişlər.

Sosial xismət müəssisəsinin sakinləri saxlanma şəraitindən, müəssisə əməkdaşlarının onlara qarşı rəftarından şikayət etməmişlər.

*Müəssisə rəhbərliyinə aparılan işlər çərçivəsində saxlanma şəraitinin daha da təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması,* habelə BMT-nin “Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiyası” və “Əhalinin qocalması problemləri üzrə Beynəlxalq Fəaliyyət Planı” əsasında müvafiq tövsiyələr verilmişdir.

### *2.2.9. Yerli icra hakimiyyəti orqanlarının müəssisələri*

MPQ-nin üzvləri tərəfindən Fakültativ Protokolun tələbləri əsasında Bakı şəhərində və respublikanın regionlarında, yerli icra hakimiyyəti orqanlarının

[34]https://rm.coe.int/CoERMPublicCommonSearchServices/DisplayDCTMContent?documentId=09000016806fc22b

tabeliyində olan və MPM-in yurisdiksiyasında olan müəssisələrə planlı və plandankənar olmaqla 5 başçəkmə həyata keçirilmişdir.

***Bakı şəhərində yerləşən 2 saylı Uşaq Evinə*** MPQ-nin üzvləri tərəfindən başçəkmə həyata keçirilmişdir. Başçəkmədə məqsəd həmin müəssisədə saxlanılan uşaqların tədris prosesinə hazırlıq vəziyyətinin, oradakı sakinlərin və ilk dəfə bu müəssisələrə qəbul olunan uşaqların saxlanma şəraitinin və onlarla rəftarın araşdırılması olmuşdur.

Müəssisənin 2000-ci ildən fəaliyyət göstərdiyi, limitinin 150 nəfər olduğu, hal-hazırda müəssisədə 147 uşağın yerləşdirildiyi məlum olmuşdur. Müəssisədə günərzi qayğı mərkəzi də açılmışdır ki, orada da 140 uşaq saxlanılır. Qayğı mərkəzi 12 saatlıq iş rejimi ilə çalışır.

Bu müəssisədə saxlanılan uşaqlarla, həmçinin tərbiyəçilərlə təkbətək söhbətlər aparılmışdır. Müəssisədə saxlanılan uşaqlar şəraitdən və müəssisə əməkdaşlarının onlarla rəftarından şikayət etməmişlər. Başçəkmələrin sonunda müəssisə rəhbərlərinə müvafiq tövsiyələr verilmişdir. Başçəkmədə Yunanıstan Ombudsmanının Uşaq hüquqları şöbəsinin əməkdaşı A.Rutsi də iştirak etmişdir.

***Gəncə şəhər Uşaq Evinə*** MPQ-nin üzvləri tərəfindən planlı və plandankənar başçəkmələr həyata keçirilmişdir. Başçəkmə zamanı uşaq evində yaşayan və məktəb yaşında olan uşaqların ümumtəhsil məktəblərində olduqları, həmin vaxt müəssisədə yalnız 3-5 yaş arası azyaşlı uşaqların olduğu müəyyən edilmiş, onların ümumi şəraitləri (geyim, otaqların istiliyi, yataq ləvazimatlarının təmizliyi, əyani vəsaitlər və s.) araşdırılmış, onlarla çalışan əməkdaşlarla görüşlər keçirilmişdir.

Baxış zamanı uşaq evinin yataqxanalarının, psixoloq otağının, rəssamlıq dərnəyinin, kompyuter otağının, mətbəxin, yeməkxananın, anbarın və ümumilikdə müəssisənin təmiz və səliqəli, şəraitin normal olduğu müşahidə edilmişdir.

Başçəkmələr zamanı həmin müəssisənin bütün obyektlərinə baxışlar keçirilmiş, mövcud şərait, aparılan təmir və abadlıq işləri, uşaqların dərs ləvazimatı ilə təminatı məsələləri araşdırılmışdır.

Müəssisə əməkdaşları ilə görüş zamanı onlara uşaqlarla rəftar məsələlərində, milli və beynəlxalq qanunvericiliyin tələbləri əsasında uşaq hüquqlarının, təhsil, sağlamlıq, asudə vaxtlarının səmərəli təşkilinin effektiv təmini ilə bağlı hüquqi məlumatlar və tövsiyələr verilmişdir.

***Şəki Qarışıq Tipli Uşaq Evində*** MPQ-nin üzvləri tərəfindən Fakültativ Protokolun tələbləri əsasında başçəkmələr keçirilmişdir.

Başçəkmə zamanı müəssisənin əsaslı təmirinin zəruri olduğu, dərman preparatları ilə təminatda çətinliklər müəyyən olunmuşdur. Müəyyən olunmuş nöqsanlar müəssisənin tabe olduğu yerli icra hakimiyyətinin və müəssisə rəhbərliyinin diqqətinə çatdırılmış, müvafiq tədbirlərin görülməsi istiqamətində təkliflər verilmişdir.

Müəssisədə olan uşaqlarla təkbətək söhbətlər aparılmış, onlara rəftar məsələləri, təminatları və saxlama şəraitləri barədə suallar verilmiş, hüquqları izah edilmişdir. Uşaqlar müəssisə əməkdaşlarının onlara qarşı rəftarından şikayət etməmişlər.

Başçəkmənin sonunda Müvəkkilin MPQ tərəfindən milli qanunvericilik və beynəlxalq standartlar, o cümlədən BMT-nin Uşaq hüquqları Konvensiyası əsasında müəssisə rəhbərliyi ilə saxlama şəraitinin, ilkin tibbi yardımın göstərilməsi işinin təkmilləşdirilməsi və rəftar məsələləri üzrə söhbətlər aparılmış, tövsiyələr verilmişdir.

# BÖLMƏ 3.

# HÜQUQİ TƏHLİL

Azərbaycan MPM-nin fəaliyyət istiqamətlərindən biri də preventiv başçəkmələr və hüquqi maarifləndirmə tədbirləri zamanı əldə olunmuş məlumatların hüquqi təhlildir. Hüquqi təhlil prosesində həyata keçirilən fəaliyyət, eləcə də bu fəaliyyətlə əlaqədar toplanmış məlumatlar, habelə alınmış tövsiyələrin, mövcud, yaxud layihədə olan qanunvericilik aktlarının nəzəri-təcrübi təhlili, əldə olunmuş nəticələrin ümumiləşdirilməsi aparılır. MPM-in hüquqi təhlil və qüvvədə olan qanunvericilik və qanun layihələrinə dair təklif və qeydlərin təqdim edilməsi hüququ FP-nin 19-cu maddəsində birbaşa təsbit olunmuşdur.

2016-cı ildə də hüquqi təhlil işinin səmərəli təşkil olunması Müvəkkilin MPM fəaliyyəti çərçivəsində qarşısında duran əsas məsələlərdən biri olmuşdur. Ötən illərdə olduğu kimi, 2016-cı ildə də işgəncələrin qarşısının alınmasının təmin olunması məqsədi ilə həyata keçirilmiş fəaliyyətin nəticələri və mövcud normativ-hüquqi bazanın təkmilləşdirilməsi istiqamətində təklif və tövsiyələr işlənib hazırlanmışdır.

MPQ üzvləri tərəfindən başçəkmələr zamanı azadlıqdan məhrum edilmiş şəxslərin qəbul olunması və Müvəkkilə ünvanlanmış şikayətlərlə yanaşı, Ombudsmanın Polisdə qanunsuz saxlama və İşgəncələrlə bağlı 24 saat fəaliyyət göstərən Qaynar Xəttinə edilmiş müraciətlər də hüquqi təhlil üçün informasiya mənbəyi olmuşdur.

Saxlanılan şəxslərin qəbulu, eləcə də aparılmış araşdırmalar zamanı başlanmış cinayət işləri üzrə istintaq orqanları tərəfindən təqsirləndirilən şəxslər barəsində həbs qətimkan tədbirinin seçilməsi ilə bağlı təqdimatlar digər əhali qrupları ilə müqayisədə cinayətkarlığın dinamikası baxımından yetkinlik yaşına çatmayanları, qadınları, ahıl yaşda olan, habelə xəstə şəxsləri də say çoxluğu baxımından əhatə etmişdir.

Eyni zamanda, cinayət işləri üzrə istintaqın əksər hallarda uzun müddət aparılması diqqəti cəlb edən əsas məqamlardan olmuşdur.

Bütün bunlar, həbs qətimkan tədbirinin çox hallarda seçilməsi və bu qətimkan tədbirinin müddətinin birneçə dəfə uzadılması istintaq təcridxanalarında sıxlığın yaranmasına, saxlama şəraiti ilə bağlı çətinliklərə, yetkinlik yaşına çatmayanlar arasında isə kriminal davranışa meylliyin artmasına və kifayət dövlət vəsaitlərinin sərf olunmasına gətirib çıxarır. Bu isə alternativ qətimkan tədbirlərin geniş tətbiqi zərurətini bir daha önə çəkmişdir.

2016-cı ildə də tutulmuş və həbs edilmiş şəxslərin polis orqanlarında öz vəkilləri ilə müvafiq order təqdim olunmasına baxmayaraq görüşlərində maneələrin yaradıldığı müşahidə olunmuşdur. Bu sırada Baş Mütəşəkkil

Cinayətkarlıqla Mübarizə İdarəsini, Sumqayıt Şəhər Polis İdarəsini misal göstərmək olar.

Bununla yanaşı Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin MSY-də saxlanılan həbs edilmiş şəxslərin istintaq təcridxanasına keçirilməsi ilə bağlı müddətdə pozuntulara yol verildiyi, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin və "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikası Qanunun tələblərinin pozulduğu müşahidə edilmişdir. *Belə ki, məhkəmə qərarına əsasən həbs edilmiş şəxs müvəqqəti saxlama yerində 24 saatdan artıq saxlanıla bilməz və bu müddət bitənədək o, istintaq təcridxanasına keçirilməlidir (şəxsin nəqliyyat vasitələri ilə istintaq təcridxanasına aparılması müddəti göstərilən müddətə daxil deyildir)*[35].

*Ümumilikə isə, CPT hesabat və məruzələrində qeyd olunduğu kimi, cəmiyyətin təhlükəsizliyinin təmini üçün cinayət törətməkdə şübhəli bilinənləri polisin saxlamaq, müvəqəti həbs etmək və dindirmək səlahiyyətlərinin olması vacibdir. Lakin bu səlahiyyətlərin qorxutma, pis rəftara gətirib çıxarma təhlükəsi olmamalıdır. Polisin öz vəzifəsini yerinə yetirərkən bu təhlükəni mütləq minimuma qədər azaltması olduqca vacibdir.*

*CPT tövsiyyələrində hər bir tutulmuş şəxsin maneəsiz vəkilə çıxış imkanının, habelə həbsdə saxlanılmanın bütün aspektlərini və həbsə alınanlar barəsində görülən bütün tədbirləri (tutulmanın vaxtı və bu tədbirin səbəbləri, hüquqlar barədə məlumatlandırılmanın vaxtı, xəsarətin, psixi çatışmazlığın və s. əlamətləri, yaxın qohumun, konsulluq nümayəndəsinin və ya vəkilin saxlanılan şəxslə təmasda olduğu və ya ona baş çəkdiyi vaxt, qidanın təklif olunduğu vaxt, dindirmənin vaxtı, başqa yerə köçürülmənin və ya azad edilmənin vaxtı) əks etdirən əhatəli vahid qeydiyyatn aparılması, polis tərəfindən həbsə alınmış şəxslər üçün əsas təminatların əlçatanlığının təmini olduqca vacibdir.*[36]

Başçəkmələr zamanı qəbul edilmiş həbs edilmiş və ya məhkum olunmuş şəxslər cinayət mühakimə icraatı gedişində dövlət hesabına təmin olunmuş vəkillər tərəfindən göstərilən hüquqi yardımın keyfiyyətindən də narazılıq etmiş və bu istiqamətdə tədbirlərin görülməməsindən şikayətlənmişlər.

2016-cı ildə də azadlıqdan məhrum edilmiş şəxslərin penitensiar müəssisələrdə yazışmaları ilə bağlı hüquqlarının reallaşdırılmasında da müəyyən problemlərin olduğu müşahidə edilmişdir. Bu cür hallarla həm cəzaçəkmə müəssisələri, həm də istintaq təcridxanalrında rast gəlinir. Belə ki, azadlıqdan məhrum edilmiş şəxslərin vəkillərinə, cəzaçəkmə müəssisələrinin fəaliyyətinə nəzarəti həyata keçirən orqanlara və Müvəkkilə göndərdikləri müraciətlərin, eləcə də həmin orqanlardan aldıqları cavabların senzuradan keçirilərək konfidensiallığın pozulduğu müəyyən edilmişdir.

---

[35] *http://e-qanun.az/framework/23933*

[36]CPT, GR 2, paraqraf 40

Müvəkkilin ünvanına penitensiar müəssisələrdən daxil olmuş müraciətlərin əksəriyyəti müəssisə rəislərinin imzaladığı müşayiət məktubu ilə daxil olur, təqsirləndirilən şəxsə və ya məhkuma göndərilən bağlı zərfdə olan məktub isə açılaraq məhkuma tanış olması ilə bağlı imza etdirildikdən sonra onların şəxsi işinə əlavə olunur. Halbuki cəzaçəkmə müəssisələrində, istintaq təcridxanalarında, müvəqqəti saxlama yerlərində saxlanılan şəxslər tərəfindən ünvanlanmış şikayətlər senzuradan keçirilmədən 24 saat müddətində Müvəkkilə göndərilməlidir.[37] Oxşar müddəalar "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında"[38] Azərbaycan Respublikasının qanununda və Cəzaların İcra Məcəlləsində[39] də nəzərdə tutulmuşdur.

Beynəlxalq təcrübəyə əsasən şəxsi yazışma sirrinə hörmət hüququ da pis rəftarla bağlı məlumatların müvafiq orqanlara çatdırılmasının təmin edilməsində mühüm əhəmiyyətə malikdir. Azadlıqdan məhrum edilmiş şəxslərin yazışmaq hüququnun təmin olunması üçün dövlətlər bütün imkanları təmin etməlidirlər. Azərbaycan Respublikasında da bu kimi halların qarşısının alınması üçün müvafiq tədbirlərin görülməsi zəruridir.

*CPT pis rəftarla bağlı bütün iddiaların və məlumatların səlahiyyətli müvafiq orqanlara çatdırılmasının təmin edilməsini tövsiyə edir, habelə bununla bağlı əlavə tədbirlər də təklif edir. Belə ki, "şəxslərin şikayətlərini birbaşa müvafiq orqana təqdim edilməsini təmin etməklə yanaşı, dövlət orqanları bu məqsədlə şikayətin alındığı və müraciətin araşdırılacağını təsdiq edən müvafiq formalar tətbiq edilməlidir".*[40]

*Bu baxımdan Müvəkkil pis rəftarın qarşısının alınması yollarından biri kimi azadlıqdan məhrum edilmiş şəxslərin yazışma hüquqlarının təmin edilməsinə və konfidensiallığın təmininə nəzarətin gücləndirilməsini tövsiyə edir.*

Müvəkkil hesab edir ki, "Azərbaycan Respublikasının penitensiar sistemində təhlükəsizlik tədbirləri və onların tətbiq edilmə qaydaları haqqında" Təlimatda xüsusi vasitənin tətbiq edilməsi zamanı penitensiar müəssisə əməkdaşlarının vəzifələrinin təsbit olunmasına, eyni zamanda bu vasitələrin tətbiqi qaydalarının *BMT-nin Məhbuslarla minimal standart davranış qaydalarına, Avropa Penitensiar Qaydalarına, eyni zamanda İQAK-nin standartlarına uyğun təkmilləşdirilməsinə ehtiyac vardır.*[41] *Belə ki, xüsusi*

---

[37] "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu (28.12.2001), maddə 8.5

[38] " Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının qanunu (22.05.2012), maddə 18;

[39] Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi (14.07.2000), maddə 83.2 və 83.5;

[40] İQAK-nin fəaliyyətinə dair 14-cü Ümumi Hesabat, CPT/Inf (2004) 28-38-ci bəndlər;

[41] BMT-nin Məhbuslarla minimal standart davranış qaydaları,bənd 33; Avropa Penitensiar Qaydaları,bənd 68.2 və 68.3.

*vasitələrin tətbiqi zamanı sui-istifadə hallarının yol verilməməsi üçün bu addım əhəmiyyətli olardı.*

Müvəkkilin ünvanına daxil olmuş müraciətlər, başçəkmələr zamanı qəbul edilən şəxslərlə görüşlərin və Ombudsmanın müvafiq Qaynar Xəttinə daxil olmuş zənglərin təhlili göstərir ki, azadlıqdan məhrum edilmiş şəxslərin ailə üzvləri və yaxınlarıyla görüş, sovqat, telefon danışıqlarından istifadə ilə bağlı hüquqlarının pozulması hallarında da rast gəlinir. Belə ki, pis rəftarla bağlı məlumatların çatdırılmasında bu hüquqların reallaşdırılması əhəmiyyətə malikdir. *Müvəkkil hesab edir ki, bu kimi halların nəzarətə götürülməsi və aradan qaldırılması istiqamətində tədbirlərin görülməsi zəruridir.*

Azadlıqdan məhrum etmə yerlərində saxlanılan şəxslərin sayının azaldılması bu gün dünya ölkələrində prioritet məsələlərdən biridir. Burada tərəfimizdən aparılmış araşdırmaların və daxil olmuş müraciətləri təhlil edərkən məhkəmə təcrübəsi ilə də bağlı məsələlər önə çıxmışdır. Belə ki, həbs və azadlıqdan məhrumetmənin ən son zərurət tədbiri olaraq tətbiq edilməsi, cəzanın isə törədilən cinayətə mütənasib olması məsələsinə diqqət yetirilməsi bu gün əsaslı yanaşma tələb edən amillərdəndir.

Burada Probasiya Xidmətini də qeyd etsək, bu fəaliyyətin tətbiqi nəticəsində məhkum olunmuş şəxslər barəsində azadlıqdan məhrumetmə ilə bağlı olmayan alternativ cəzalardan geniş istifadə imkanları və əhəmiyyətli nəticələrə gətirib çıxaran bir sistemin fəaliyyətinə zərurət önə çıxır. Xarici ölkələrin təcrübəsinin təhlili də göstərir ki, probasiya nəticəsində minlərlə şəxs alternativ cəzalar alaraq hər il cəzaçəkmə müəssisələrindən kənarda qalır ki, bu da dövlətin maliyyə xərcləri baxımından qənaət etməsi deməkdir. Məsələn, Qazaxıstan Respublikasında bir probosionerə xərclənən maliyyə vəsaiti bir məhkumun cəzaçəkmə müəssisəsində saxlanılmasına çəkilən xərcdən 20 dəfə azdır.

Ümumilikdə isə, ehtiyac duyulan məsələlərdən biri də cinayətlərin törədilmə səbəbləri ətraflı və hərtərəfli təhlil olunması, insanları cinayətə sövq edən halların aradan qaldırılması üçün kompleks kriminoloji tədqiqatlar aparılmasıdır ki, bu da cinayətkarlığın profilaktikası baxımından olduqca əhəmiyyətlidir. Həm müəssisələrdə, həm də preventiv tədbirlərin həyata keçirilməsi prosesində sosial işçilərin, psixoloqların hazırlanması və bu fəaliyyətə cəlb olunması da məqsədəmüvafiq olardı.

MPM-in monitorinqləri bu nəticəyə gəlməyə əsas verir ki, cəzaçəkmə müəssisələrində məhkumların əmək fəaliyyəti ilə məşğul olması ilə bağlı bəzi çatışmazlıq və problemlər mövcuddur. Bəzi hallarda məhkumların əmək haqlarının almasında da çətinliklər yaranır. Məhkumların islah olunması üçün onların əməklə məşğul olması xüsusi əhəmiyyət daşıyır. *Müvəkkil təklif edir ki, cəzaçəkmə müəssisələrində məhkumların əmək qüvvəsindən istifadə etmək üçün müxtəlif layihələr həyata keçirilməli, məhkumların istehsal etdiyi məhsullar üçün satış bazarları tapmalı, onları bu cür fəaliyyətə stimullaşdırmalıdırlar.*

Eləcə də müəssisələrin özünün də istehsalat baxımından ixtisaslaşması məsələsinə islahatlar prosesində baxılması məqsədə müvafiq olardı. Belə ki, bir çox ölkələrdə bununla bağlı yaradılan nümunəvi modellər məhkumların islah prosesinə, əmək vərdişlərinə yiyələnməsi, habelə reabilitasiya və cəmiyyətə adaptasiya proseslərinə mühüm töhfə verir.

Müvəkkil hesab edir ki, məhkumların davranışının korreksiyası və cəmiyyətə hazırlanması baxımından penitensiar müəssisələrdə orta təhsillə yanaşı, peşə təhsilinin inkişaf etdirilməsinə böyük ehtiyac vardır. Eləcə də, cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası və reabilitasiyası məsələlərinə diqqətin artırılması zərurət olaraq qalmaqdadır.

*Bu baxımdan ƏƏSMN-nin də imkanlarından istifadə edilməklə penitensiar müəssisələrdən azad edilmiş şəxslərin reabilitasiyası və sosial adaptasiyası sahəsində kompleks proqramların həyata keçirilməsi, sosial xidmətlərin inkişaf etdirilməsi uğurlu nəticələr verə bilər.*

Azadlıqdan məhrumetmə yerlərindən azad edilən şəxslərin sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşlar sırasına aid edilərək kvota üzrə ayrılmış iş yerlərində onların məşğulluğunun təmin olunması diqqət mərkəzində saxlanılmasına baxmayaraq təcrübədə problemlərə hələ də qalmaqdadır. Bu kateqoriyadan olan şəxsləri işlə təmin edən özəl müəssisələr, sahibkarlar üçün qanunvericilikdə müəyyən güzəştlərin nəzərdə tutulması məqsədəmüvafiq olardı.

Psixiatriya xəstəxanalarında aparılan monitorinqlərin nəticələri milli qanunvericiliklə yanaşı, beynəlxalq standartlar, BMT-nin "Psixi xəstələrin müdafiəsi və psixiatriya yardımının yaxşılaşdırılması prinsipləri", Ruhi xəstələrin saxlanma şəraitinə və onlara qarşı rəftara dair Avropa Minimum Standartları, BMT-nin İşgəncələrin qarşısının alınması üzrə Alt komitəsinin (SPT) və İşgəncələrin qarşısının alınması üzrə Avropa Komitəsinin (CPT) tövsiyələri əsasında aşağıdakı kimi ümumiləşdirilmişdir.

Bu qəbildən olan müəssisələrdə sıxlığın olması, müalicə-reabilitasiya proqramlarının zəifliyi saxlanma şəraiti ilə yanaşı rəftar məsələləri ilə də bağlı münasibətlərdə də gərginlik yaradır və aradan qaldırılması istiqamətində işlərə, qidalanma və dərman vasitələri ilə təminatın artırılmasına ehtiyac vardır.

Səhiyyə Nazirliyi tərəfindən səhiyyə xərclərinin psixi sağlamlıq xidmətlərinə sərf edilən məbləğinin də digərlərindən faiz nisbəti ilə az olması müşahidə edilmişdir ki, bunun, eləcə də hər pasiyentə münasibətdə ərzaq və dərman xərcləri üçün vəsaitin artırılması olduqca vacibdir. Eləcə də, psixiatriya müəssisələrinin büdcələrinin rayon səhiyyə şöbələri və ya rayon/şəhər mərkəzi xəstəxanalarına ayrılan vəsaitlə birgə deyil, ayrıca verilməsinin təmini və nəzarətə götürülməsi zəruridir və bu sahədə islahatların sürətlənməsi baxımından məqsədəmüvafiq olardı.

Müəssisələrdə sanitar normalara riayət olunmadığı müşahidə edilmişdir.

Bu baxımdan beynəlxalq standartlar əsasında bu qəbildən olan müəssisələr üçün mövcud qaydalara yenidən baxılması və tətbiqinə nəzarətin artırılması olduqca zəruridir.

Psixiatriya müəssisələrdə mövcud ixtisaslı kadr (həkim-psixiatrların, tibb bacılarının) çatışmazlığı, eləcə də digər ixtisasdan olan tibb işçilərinə həyata keçirilən islahatlara baxmayaraq ehtiyac hələ də qalmaqdadır. Burada çalışan orta və kiçik tibb işçilərinin sahənin spesifikliyini nəzərə alaraq qısamüddətli müvafiq peşə kurslarına cəlb edilməsi, həmçinin keyfiyyətinin artırılması məqsədi ilə göstərdikləri xidmətə müvafiq olaraq onların barəsində həvəsləndirmə tədbirlərinin seçilməsi olduqca zəruridir. Bu istiqamətdə də xarici ölkələrin təcrübəsinə əsaslanan yanaşmalara böyük ehtiyac vardır.

Müəssisələrdə xəstələrin diaqnoza uyğun qalma müddətini, təxirəsalınmaz tibbi yardım və müalicə prinsiplərini, onların evə yazılma qaydalarının nizamlanması istiqamətində fəaliyyəti tənzimləyən standartların işlənib hazırlanmasına, stasionara yerləşdirməyə meylliliyin aradan qaldırılması zəruridir.

Psixi pozuntuları olan şəxslər üçün icma əsaslı proqramların, bu tipli yaşayış yerlərinin yaradılması, pasiyentlərin bacarıq və maraqlarını nəzərə almaqla palatadan kənar ərazidə əməklə məşğul olmaları imkanlarının genişləndirilməsi və bu sahədə müvafiq işlərin görülməsi müalicənin effektivliyinə müsbət töhfə verə bildiyindən, yeni yanaşmaların tətbiqinə ehtiyac vardır. Yunanıstan, Portuqaliya və başqa Avropa dövlətlərinin təcrübəsində müalicə-reabilitasiya tədbirlərinin effektivliyi baxımından icma əsaslı proqramların ölkə səviyyəsində tətbiqinə geniş yer verilir. Müəssisələrin yerləşdiyi coğrafi mövqe və yeni inşa olunanlarda bu kimi məsələlərin nəzərə alınması, habelə xarici ölkələrin təcrübəsindən faydalanmaq məqsədəmüvafiq olardı.

Müvəkkilin MPM kimi fəaliyyəti çərçivəsində otən illərdə də qeyd etdiyi kimi, hauptvaxtlarda saxlanılmanı tənzimləyən "Silahlı Qüvvələrinin qarnizon və qarovul xidmətləri Nizamnaməsi"nin 4 saylı əlavəsinin günün tələblərinə cavab verməyən bəzi müddəaları hazırkı vaxtadək qüvvədədir.[42] Belə ki, həmin əlavənin 17 və 21-ci bəndlərində əsgər və zabitlər arasında ayrı-seçkiliyə yol verilmişdir. Müvafiq müddəalardan belə nəticəyə gəlmək olar ki, əsgərlər (matroslar) yataq ləvazimatı ilə təmin edilmədən quru taxtlarda, zabit və gizirlər isə onlardan fərqli olaraq döşəkdə və digər yataq ləvazimatları ilə təmin olunmaqla yatmalıdırlar.

Əlavənin 19-cu bəndinə gəldikdə isə, intizam qaydasında hauptvaxtda ümumi kameralarda saxlanan əsgərlərin (matrosların) sutkada 10 saat işləməyə cəlb olunmasına imkan verən bu norma saxlama ilə bağlı müvafiq

[42] "Azərbaycan Respublikası Silahlı Qüvvələri Qarnizon və qarovul xidmətləri nizamnaməsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Qanuna əsasən, Nizamnamə 1995-ci il yanvarın 1-dən quvvəyə minib.

standartlara uyğun deyildir. Bu qaydalar təcrübədə tətbiq edilməsə də, normativ sənədin qeyd edilən əlavəsinin hazırda qüvvədə olması arzuolunmaz haldır və sənədə yenidən baxılaraq müvafiq dəyişikliklərin həyata keçirilməsi vacib hesab edilir.

Açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələrinin əsas məqsədinin yetkinlik yaşına çatmayanların davranışının korreksiyasını və cəmiyyətə uyğunlaşmasını, o cümlədən onların psixoloji, tibbi və sosial reabilitasiyasını təmin etmək, təhsili üçün şərait yaratmaq olduğunu nəzərə alsaq, başçəkmələr zamanı bu müəssisələrin fəaliyyətinin effektiv olmadığı qənaətinə gəlmək mümkündür. Hazırda isə həmin müəssisələrdən yalnız biri qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsi kimi Quba Xüsusi Peşə Məktəbi fəaliyyət göstərir ki, bu müəssisənin fəaliyyəti günün tələblərinə cavab vermir.

*Hesab edirik ki, fəaliyyəti qanunvericiliklə tənzimlənən bu müəssisələrin yenidən təşkili olduqca zəruridir. Yetkinlik yaşına çatmayanların saxlanılması, təhsili və tərbiyəsi qaydası onların yaşı, habelə psixoloji vəziyyəti və səhhəti nəzərə alınmaqla, habelə hüquq pozuntusu törətmiş həmin şəxslərə ünvanlanan fərdi sosial-psixoloji diaqnostika əsasında psixokorreksiya işi üçün şərait təkmilləşdirilməli, sağlamlaşdırıcı tərbiyə tədbirləri sisteminin, ictimai faydalı işlə məşğulluğun, şagirdlərin asudə vaxtı da daxil olmaqla, günün səmərəli bölgüsünün təşkili, şagirdlərin neqativ hallardan maksimum müdafiəsi isə mütləq təmin edilməlidir.*

Müvəkkil BMT-nin İnsan Hüquqları Şurasının Universal Dövri İcmal üzrə İşçi Qrupunun Azərbaycan Respublikasının dövrü məruzələri üzrə verilmiş təklifləri də diqqətə alaraq, qadınlara münasibətdə “Banqkok qaydaları”nın[43] nəzərə alınmasını təklif edir.[44]

---

[43]BMT-nin “Qadın məhbuslarla davranışa və qadın cinayətkarlara münasibətdə azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəza tədbirlərinə dair qaydaları”;

[44]BMT-nin İnsan Hüquqları Şurası tərəfindən 5 July 2013-cü il tarixdə qəbul edilmiş Universal Dövri İcmal üzrə İşçi qrupun məruzəsi, (bənd 103.95);

## BÖLMƏ 4.

## HÜQUQİ MAARİFLƏNDİRMƏ

Azərbaycan MPM-nin fəaliyyət istiqamətlərindən biri də şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrdə saxlanılan şəxslər və onlarla işləyən xidmət əməkdaşlarına ünvanlanan hüquqi maarifləndirmə işinin təşkilidir. Fakültativ Protokolun preambulası da maarifləndirmə sahəsində tədbirlərin görülməsini və müxtəlif qanunvericilik, inzibati, məhkəmə və digər tədbirlərin birləşdirilməsini tələb edir.

2016-cı il ərzində uşaq evləri və internat müəssisələrində, müxtəlif dövlət qurumlarının, Silahlı Qüvvələrin Elmi-Tədris Mərkəzlərində, hüquq mühafizə orqanlarının Akademiyalarında, hərbi hissələrdə, cəzaçəkmə müəssisələrində milli və beynəlxalq qanunvericiliyin müddəaları, BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sı, digər beynəlxalq standartlar əsasında görüşlər, insan hüquqlarına dair seminarlar və treninqlər təşkil olunmuşdur. Milli və beynəlxalq standartlar əsasında planlı və ardıcıl həyata keçirilən treninqlər MPM-in tanınması, fəaliyyətinin dəstəklənməsi ilə yanaşı, bacarıqların artırılması və hüquqi maarifləndirmə, eləcə də bu qəbildən olan tövsiyələrin icrası baxımından mühüm əhəmiyyət kəsb edir.

Ölkə prezidentinin Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramında (MFP) nəzərdə tutulmuş tədbirlərin icrası işinin əlaqələndirilməsi, təbliği və tətbiqi vəziyyətinin monitorinqi və dəyərləndirilməsi məqsədilə regionlarda dövlət qurumları və vətəndaş cəmiyyəti təsisatları nümayəndələrinin iştirakı ilə respublikanın 57 şəhər və rayonunda ictimai dinləmələr zamanı Müvəkkil tərəfindən rayon (şəhər) polis orqanlarının rəhbərliyi və şəxsi heyəti ilə görüşlər keçirilmiş, onlarla hüquqi maarifləndirmə işi aparılmış, insan hüquq və azadlıqlarının təmin olunmasına xüsusi diqqət yetirilməsinin vacibliyi diqqətə çatdırılmış, bu sahədə əməkdaşlıq məsələləri müzakirə edilmiş, təsisatın hüquqi nəşrləri, tədris vəsaitləri, qaynar xəttə dair plakatlar təqdim edilmiş, həmin vəsaitlərin öyrənilməsi, treninq və təlimlərdə istifadə olunması, təcrübədə tətbiqi tövsiyə olunmuşdur.

BMT-nin İşgəncələrə və digər qəddar, qeyri-insani yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı Konvensiyasının Fakültativ Protokolunun qüvvəyə minməsinin 10 illiyinə həsr edilmiş məlumatlandırma işi hüquqi maarifləndirmə tədbirlərinin əsas mövzularından olmuşdur.

Bu tədbirlərin davamı olaraq, Müvəkkilin təşəbbüsü ilə, "Azərbaycan Respublikasında İnsan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nın 4.1-ci bəndinə müvafiq

olaraq,“İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya”nın və onun Fakültativ Protokolunun tələblərinin hüquq mühafizə orqanlarının, digər aidiyyəti qurumların əməkdaşları, habelə vəkillər və hüquq sahəsində ixtisaslaşan qeyri-hökumət təşkilatlarının nümayəndələri tərəfindən öyrənilməsi işi təşkil olunmuş, bununla bağlı hüquq mühafizə orqanlarının Akademiyalarında, Polis və Ədliyyə Akademiyalarında geniş müzakirələr aparılmışdır.

MPQ üzvləri tərəfindən bu tədbirlər penitensiar müəssisələrdə də davam etdirilmiş, Fakültativ Protokolun müddəaları müəssisələrdə təbliğ olunmuş, Müvəkkilin MPM mandatı, bu çərçivədə görülmüş işlər, şəxslərin öz iradəsi ilə tərk etmədiyi müəssisələrə həyata keçirilən başçəkmələr və nəticələri hüquqi maarifləndirmə tədbirləri zamanı müzakirə mövzularından olmuşdur.

Hüquq mühafizə orqanları, təhsil, səhiyyə, sosial, psixiatriya müəssisələrinin əməkdaşlarının iştiraki ilə Fakültativ Protokolun 10 illiyi ilə əlaqədar silsilə tədbirlər keçirilmiş, dövlət qurumlarına insan hüquqlarının effektiv təmini baxımından verilmiş çoxsaylı təkliflər, mövcud yanaşmalar, çətinliklər və onların həlli yollarıtəqdimatlarla iştirakçılara nümayiş etdirilmişdir.[45]

Fakültativ Protokolun qüvvəyə minməsinin “10 illiyi”nə həsr edilmiş silsilə tədbirlər Ombudsmanın Gəncə, Şəki, Cəlilabad və Qubada yerləşən regional mərkəzləri tərəfindən də respublikanın regionlarında davam etdirilmişdir.

Ötən il olduğu kimi bu il də YUNİSEF, Ədliyyə və Polis Akademiyaları ilə birgə ölkənin regionlarında hüquqi maarifləndirici treninqlər davam etdirilmişdir. Hakimlər, prokurorluq, polis, ədliyyə və yerli icra hakimiyyəti orqanlarının əməkdaşları üçün “Yetkinlik yaşına çatmayanların ədalət mühakiməsi (Yuvenal Ədliyyə) və işgəncələrin qarşısının alınması” mövzusunda maarifləndirmə və bacarıqların artırılması məqsədi daşıyan treninqlərdə MPQ-nin üzvləri də ekspert qismində iştirak etmişlər. Treninqlərdə işgəncələrin qarşısının alınması və preventiv tədbirlərlə bağlı milli qanunvericilik və beynəlxalq standartlar əsasında mühazirələr oxunmuş, mövzu üzrə geniş müzakirələr və hüquqi maarifləndirmə işi aparılmışdır.

Müvəkkilin təşəbbüsü ilə, YUNİSEF-lə əməkdaşlıqda MPQ üzvlərinin və Müvəkkilin regional mərkəzləri əməkdaşları tərəfindən respublikanın regionlarında uşaq hüquqları sahəsində fəaliyyət göstərən məhkəmə, polis, təhsil, səhiyyə, yerli icra hakimiyyəti orqanlarının əməkdaşları üçün “Uşaq hüquqları sahəsində monitorinq bacarıqlarının artırılması” mövzusunda treninqlər davam etdirilmişdir.

Yuvenal ədliyyə sistemində islahatların qanunla münaqişədə olan uşaqlara təsirinin qiymətləndirməsi vəziyyəti, yerli icra hakimiyyəti orqanları

[45]http://ombudsman.gov.az/en/view/news/406/the-ombudsman-office-held-range-of-events-in-relation-to-the-10th-anniversary-of-un-opcat

nəzdində fəaliyyət göstərən Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə Komissiyaların fəaliyyətinə yeni yanaşmalar, xarici ölkələrin bu sahədə müsbət təcrübəsi, mövcud çətinliklər əsas müzakirə mövzularından olmuşdur. Treninqlərdə MPQ-nin rəhbəri iştirak edərək Müvəkkilin uşaqlara qarşı zorakılıqla mübarizə sahəsində, o cümlədən MPM qismində fəaliyyəti, ölkədə yuvenal ədliyyə sisteminə, milli qanunvericiliyin və bu sahədə təcrübənin təkmilləşdirilməsinə, ümumilikdə isə hüquqi islahatlara dəstək vermək məqsədilə həyata keçirdiyi işlər, preventiv tədbirləri, eləcə də bu sahədə mövcud çətinliklər və ehtiyac duyulan tədbirlər haqqında geniş məlumat vermişdir. Tədbirlərdə ədalətli qərarların qəbulu üçün polis, prokurorluq, məhkəmə və digər səlahiyyətli orqanların məlumatlılığının artırılması, hüquqa zidd davranış nümayiş etdirən və saxlanılan yetkinlik yaşına çatmayan şəxslərlə işin təkmilləşdirilməsinə olan ehtiyac, onların sosial adaptasiyası ilə bağlı müzakirələr aparılmışdır.

Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası ilə hüquqi maarifləndirmə, habelə müxtəlif istiqamətlər üzrə qulluğa qəbul olunmuş şəxslərin bilik və bacarıqlarının artırılması istiqamətində səmərəli əməkdaşlıq əlaqələri davam etdirilmişdir.

MPQ üzvləri tərəfindən Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinə, Məhkəmə Ekspertizası Mərkəzinə və Tibb baş idarəsinə ilk dəfə qulluğa qəbul olunmuş müdavimlərin peşə fəaliyyətinə buraxılması ilə bağlı Akademiyada keçirilən icbari təlim kursunda “Ombudsmanın insan hüquqlarının müdafiəsi və Milli Preventiv Mexanizm qismində fəaliyyəti” mövzusunda mühazirələr oxumuşdur. Dinləyicilərə Ombudsmanın təşəbbüsləri və təklifləri nəzərə alınmaqla Azərbaycan Respublikasının milli qanunvericiliyində həyata keçirilən islahatlar, Müvəkkilin insan hüquqlarının müdafiəsi və MPM qismində fəaliyyəti haqqında geniş məlumat verilmiş, habelə Ombudsman haqqında Konstitusiya Qanununun müddəaları tədris olunmuşdur.[46]

Dövlət Miqrasiya Xidmətinin əməkdaşları üçün də MPQ üzvləri tərəfindən İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya və onun Fakültativ Protokolunun müddəaları əsasında treninqlər keçirilmiş və insan hüquqlarının effektiv təmini mövzularında genişmüzakirələr aparılmışdır.

*Qeyd olunanlarla yanaşı Müvəkkilin MPM qismində fəaliyyəti çərçivəsində MPQ-nin üzvlərinin də bacarıqlarının artırılmasına diqqət yetirilmişdir.* Belə ki,Müvəkkil Avropa İttifaqının Avropa Qonşuluq və Tərəfdaşlıq Aləti çərçivəsində Almaniya və Polşa dövlərlərinin partnyorluğunda Tvinninq layihəsini həyata keçirməkdədir.

24 ay davam edən “Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) imkanlarının gücləndirilməsinə dəstək” adlı

---

[46]http://www.gununsesi.info/ombudsmanin-%C9%99m%C9%99kdasi-%C9%99dliyy%C9%99-akademiyasinda-muhazir%C9%99-oxuyub/

Tvinninq layihəsi 4 komponenti (Ombudsman institutunun İşgəncələrə qarşı mübarizə üzrə Milli Preventiv Mexanizm kimi fəaliyyətinin gücləndirilməsi, idarəetmə informasiya sisteminin, uşaq hüquqlarının, əlilliyi olan şəxslərin hüquqlarının və ahılların hüquqlarının müdafiəsi sahəsində Ombudsmanın fəaliyyətinin təkmilləşdirilməsi, İnformasiya əldə etmək haqqında Azərbaycan Respublikası Qanununun implementasiyası sahəsində Ombudsman İnstitutunun imkanlarının gücləndirilməsi, Ombudsmanın mərkəzi aparatı və regional mərkəzinin əməkdaşları üçün səmərəli idarəetmə üzrə təlimlərin keçirilməsi) əhatə etməklə yanaşı, xarici ekspertlərin iştirakı ilə keçirilən treninqlərdə aparat əməkdaşları və MPQ üzvlərinin iştirakı geniş tərkibdə təmin edilmişdir.

Hazırda davam edən bu proqram çərçivəsində də MPM şəbəkələrinin tanınmış ekspertlərinin iştirakı keçirilən treninqlər, görüşlər, təcrübə mübadilələri Azərbaycan MPM-nin potensial imkanlarını daha da gücləndirmiş, Qrup üzvlərinin nəzəri biliklərinin və təcrübi bacarıqlarının artırılmasına xidmət etmişdir.

Fəaliyyət çərçivəsində MPQ-nin yeni üzvlərinin, habelə bu sahədə əməkdaşlıq edilən ekspertlərin, vətəndaş cəmiyyəti üzvlərinin təcrübi bilik və bacarıqlarının artırılmasına davamlı olaraq diqqət yetirilməkdədir.

Tvinninq layihəsi çərçivəsində MPQ üzvləri üçün Polşa, Almaniya, Yunanıstan, Portuqaliyadan olan ekspertlər tərəfindən "Həbsxanada preventiv başçəkməni necə aparmalı","Ombudsman: müasir və çevik nəzarət mexanizmi kimi", "Hesabatların yazılması", "İnsan hüquqlarına dair beynəlxalq təşkilatlarla əməkdaşlıq" mövzularında treninqlər təşkil olunmuş və aktiv müzakirələr aparılmışdır.

Bununla yanaşı CPT-nin üzvü, Yunanıstanın Peloponnese Universitetinin professoru, Yunanıstan Ombudsmanının müavini Vassillis Karydis tərəfindən "MPM-nin qeyri-tibbi personalı tərəfindən şəxsi müsahibələrin aparılması və bədən xəsarətlərinin təsvir edilməsi" mövzusunda təlimlər keçirilmişdir. Şəxsi müsahibə aparma metodologiyası və bədən xəsarətlərinin təsvir olunması ilə bağlı biliklərin artırılması, MPM qismində Yunanıstan Ombudsmanının fəaliyyət təcrübəsi ilə tanışlıq təlimlərin əsas mövzularından olmuşdur.

Layihənin birinci komponentinin (MPM fəaliyyətinin gücləndirilməsi) icrası istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində MPQ-nin bir qrup əməkdaşı Yunanıstanda təcrübə mübadiləsi keçmiş, proqram üzrə müxtəlif qurumlarda, o cümlədən səhiyyə və penitensiar müəssisələrdə görüşlər keçirilmiş, Yunanıstan Ombudsmanının Milli Preventiv Mexanizminin strukturu və fəaliyyəti, eləcə də cəzaçəkmə və psixiatriya müəssisələrinə başçəkmə keçirilməklə formalaşmış ölkə təcrübəsi öyrənilmişdir.

Tvinninq layihəsi çərçivəsində Azərbaycan MPM-nin fəaliyyəti ilə tanış olmuş beynəlxalq ekspertlər Azərbaycanda insan hüquqlarının müdafiəsi istiqamətində həyata keçirilən islahatları və Azərbaycan Ombudsmanının bu sahədə həyata keçirdiyi çoxşaxəli fəaliyyəti, səmərəli əməkdaşlığı müsbət dəyərləndirmişlər.

# BÖLMƏ 5.

# İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏR VƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIQ

Ötən illərdəki müsbət təcrübəni də nəzərə alaraq, Müvəkkil fəaliyyət istiqamətlərinə uyğun yerli, regional və beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlığını davam etdirmişdir.

2016-cı ildə də dövlət orqanları, yerli vətəndaş cəmiyyəti qurumları, o cümlədən QHT-lər, habelə KİV, regional və beynəlxalq təşkilatlarla, xarici ölkə MPM-ləri ilə informasiya və təcrübə mübadiləsinin aparılması, keçirilən tədbirlərdə qarşılıqlı iştirakın təmin olunması, eləcə də birgə tədbirlərin təşkili bu istiqamətdə fəaliyyəti daha da inkişaf etdirmişdir.

Qeyd edilən dövr ərzində Azərbaycan MPM-in fəaliyyəti barədə həm ölkə ictimaiyyəti, həm də beynəlxalq ictimaiyyət mütəmadi olaraq ətraflı məlumatlandırılmışdır.

2016-ci ildə KİV-də başçəkmələrlə əlaqədar 63, maarifləndirmə və digər tədbirlərlə əlaqədar 30 olmaqla, cəmi 93 mətbuat açıqlaması (press-relizlər) yayımlanmışdır.

Ümumilikdə 2009-2016-cı illər ərzində MPM-in fəaliyyəti ilə bağlı 788 mətbuat açıqlaması yayımlanmışdır.

Press-relizlər (mətbuat açıqlamaları), həmçinin MPM-in fəaliyyətinə dair hesabatlar, MPQ-nin tərkibi barədə məlumat, habelə müvafiq normativ-hüquqi aktlar Müvəkkilin rəsmi internet saytında yaradılmış xüsusi bölmədə Azərbaycan və İngilis dillərində yerləşdirilmişdir. Hesabatlar Müvəkkilin rəsmi internet səhifəsində yerləşdirilməklə yanaşı, aidiyyəti dövlət qurumlarına və beynəlxalq təşkilatlara da göndərilmişdir.

Eyni zamanda Müvəkkilin ünvanına, o cümlədən 24 saat fəaliyyət göstərən "Qaynar xətti"nə daxil olmuş müraciətlər və digər məlumatlar, QHT-lərdən, hüquq müdafiəçilərindən, kütləvi informasiya vasitələrindən alınmış, internet saytlarından götürülmüş informasiyalar bilavasitə yerində, yaxud bu və ya digər dövlət orqanına yoxlama tapşırığı verilməsi yolu ilə araşdırılması zamanı əldə edilmiş faktlar, toplanmış məlumat və materiallar, habelə şikayətlərin aidiyyət və kəmiyyət göstəriciləri həyata keçirilən başçəkmələr zamanı istifadə olunmuşdur.

Müvəkkilin nümayəndələri KİV-lərdə mütəmadi adları çəkilən, həbsdə saxlanılan və ya təqib olunan şəxslərlə də mütəmadi olaraq görüşmüşlər. Aparılmış araşdırmalar barədə press relizlər KİV-ə göndərilmiş, Müvəkkilin rəsmi internet saytında yerləşdirilmişdir.

2016-cı ildə Azərbaycan MPM-nin işgəncələrin qarşısının alınması sahəsində dövlət orqanları, beynəlxalq təşkilatlar, qeyri-hökumət təşkilatları ilə yanaşı, KİV-lə də səmərəli əməkdaşlıq əlaqələri daha da inkişaf etdirilmişdir.

“Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununun 18-1.1-ci maddəsinə əsasən, həmin Konstitusiya Qanununun 1.2-ci maddəsində nəzərdə tutulmuş Milli Preventiv Mexanizmin funksiyalarını həyata keçirmək üçün Müvəkkil Aparatında yaradılmış MPQ-nin tərkibində əlavə və dəyişikliklərin edilməsi ilə bağlı iclasda qeyri-hökümət təşkilatları və vətəndaş cəmiyyətinin nümayəndələri də iştirak etmişlər. Açıq və şəffaf seçkilər qaydasında MPQ-nin yeni tərkibi seçilmişdir. MPQ-nin yeni tərkibinə Ombudsman Aparatının əməkdaşları ilə yanaşı, vətəndaş cəmiyyətinin bir neçə nümayəndəsi də ekspert qismində cəlb edilmişdir.

Müvəkkil fəaliyyətinin ilk illərindən vətəndaş cəmiyyəti institutları ilə sıx əməkdaşlıq edir. Ölkə təcrübəsində də yenilik Müvəkkilin təşəbbüsü ilə hələ fəaliyyətinin ilk illərində təsisat yanında çoxsaylı vətəndaş cəmiyyəti institutlarını özündə birləşdirən “Ekspertlər şurası” yaradılmış və bu günədək fəaliyyət göstərməkdərir. Əvvəlki bəndlərdə qeyd olunduğu kimi, MPM-in fəaliyyəti çərçivəsində də keçirilən başçəkmə və hüquqi maarifləndirmə tədbirlərində, o cümlədən müvafiq dövlət qurumlarının iştirakı ilə keçirilən görüşlərdə, qanunvericiliklə bağlı müzakirələrdə, müvafiq hesabatların hazırlanması prosesində vətəndaş cəmiyyətinin üzvlərinin cəlb olunması və ekspertlərin iştirakı mütəmadi olaraq təmin olunur.

Bu fəaliyyət çərçivəsində vətəndaş cəmiyyəti üzvlərindən ibarət tərkibdə Ədliyyə Nazirliyi yanında yaradılmış İctimai Komitə ilə də sıx əməkdaşlıq edilir. Ekspert qismində cəlb olunmuş Komitə üzvləri MPM-in işində yaxından iştirak edir

Ombudsmanın MPQ-nin rəhbəri Azərbaycan Respublikası Ədliyyə Nazirliyi yanında İctimai Komitənin Seçkisi Komissiyasının üzvü kimi qeyd edilən dövr ərzində keçirilən müvafiq tədbirlərin iştirakçısı olmuşdur.

***Beynəlxalq əməkdaşlıq.*** 2016-cı il ərzində beynəlxalq əlaqələrin daha da genişləndirilməsi, aparılan təcrübə və fikir mübadilələri Azəbaycan MPM-nin fəaliyyətinin effektiv həyata keçirilməsinə geniş imkanlar açmışdır.

Müvəkkil MPM qismində BMT və onun müqavilə qurumları, o cümlədən CAT, SPT, habelə CPT, Avropa Şurası, Avropa İttifaqı, ATƏT, İşgəncələrin Qarşısının alınması üzrə Assosiasiya (APT) və digər beynəlxalq təşkilatlar, müxtəlif ölkələrin MPM-ləri ilə sıx əməkdaşlıq edir, təcrübə mübadiləsi aparır. Müvəkkilin MPM qismində beynəlxalq əlaqələrinin həyata keçirilməsi istiqamətləri kimi işgəncələrin qarşısının alınması sahəsində müxtəlif səmərəli görüşlərin təşkili, birgə tədbirlərin həyata keçirilməsi, Müvəkkil və MPQ-nin üzvlərinin beynəlxalq tədbirlərdə iştirakı və qarşılıqlı təcrübə mübadilələrini göstərmək olar.

BMT qurumları ilə əməkdaşlıqda MPQ-nin fəaliyyətinin təkmilləşdirilməsi və müxtəlif treninqləri, yuxarıda qeyd olunduğu kimi, Avropa İttifaqının dəstəyi ilə Almaniya və Polşa dövlətlərinin partnyorluğunda həyata keçirilən

Tvinninq proqramı çərçivəsində Azərbaycan MPM-in fəaliyyətinin təkmilləşdirilməsi və MPQ üzvlərinin bacarıqlarının artırılması sahəsində fəaliyyət, CPT, APT, MPM şəbəkələrinin tanınmış ekspertlərinin iştirakı ilə görüşlər, təcrübə mübadilələri bu qəbildəndir.

MPM-in beynəlxalq əməkdaşlıq fəaliyyəti çərçivəsində Müvəkkilin YUNİSEF-in Bakı ofisi ilə ikitərəfli əməkdaşlığı uğurlu olmuş, birgə əməkdaşlıqda bir sıra fəaliyyət, treninq və seminarlar həyata keçirilmiş, MPM-in uşaq hüquqları sahəsində strateji planı inkişaf etdirilmişdir ki, bu da fəaliyyətin effektivliyini daha da artıracaqdır.

Azərbaycan Ombudsmanı Avropa Şurasının ölkə üzrə 2014-2016-cı illər üzrə Fəaliyyət Planınının bir komponenti olaraq, ötən ilin sonundan icrasına başlanılmış "Azərbaycanda penitensiar xidmətin islahatlarına dəstək" adlı layihəyə tərəfdaş çıxmış, layihə üzrə əlaqələndirici qismində Müvəkkilin nümayəndəsi təmsil olunmaqla Penitensiar sistemdə idarəetmənin inkişafı və tibbi xidmətin professionallığının artırılması istiqamətində işlər aparılır. Bununla yanaşı layihə çərçivəsində Avropa Şurasının həbsxanalarda monitorinqlər, habelə tibb sahəsində ixtisaslaşan ekspertlərin, psixiatrların iştirakı ilə 2017-ci ildən etibarən keçiriləcək treninqlərdə də MPQ-nin üzvləri və ekspertləri təmsil olunacaqlar.

Bu fəaliyyət istiqaməti üzrə Avropa İttifaqı ilə əməkdaşlıqda üzv Polşa və Yunanıstandan dəvət olunmuş ekspertlərin iştirakı ilə Azərbaycan MPM-in strateji planı da hazırlanmışdır ki, bu da MPQ-nin başçəkmələri, tövsiyələrin verilməsi, hüquqi təhlillər və fəaliyyət istiqamətləri üzrə effektiv nəticələrin əldə olunmasına imkan verəcəkdir.

*Müvəkkil və MPQ-nin üzvləri qeyd olunduğu dövr ərzində beynəlxalq təşkilatların nümayəndələri, beynəlxalq ekspertlər, xarici həmkarlarla görüşlər keçirmiş və bir sıra mühüm tədbirlərdə iştirak etmişlər.*

İşgəncənin və Qeyri-insani və ya Ləyaqəti Alçaldan Rəftarın və ya Cəzanın Qarşısının Alınması üzrə Avropa Komitəsinin (CPT) nümayəndə heyəti ölkəmizə səfəri çərçivəsində Müvəkkil və MPQ üzvləri ilə görüşmüş, həyata keçirilən başçəkmələr və verilmiş tövsiyələr üzrə geniş müzakirələr aparılmışdır.

Müvəkkil BMT-nin insan hüquqları müdafiəçilərinin vəziyyəti üzrə xüsusi məruzəçisi Mişel Forstu qəbul etmişdir[47]. Görüşdə BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının insan hüquqları üzrə məsul şəxsi Cəmşid Qazıyev də iştirak etmişdir. Görüşün əsas məqsədi Azərbaycanda insan hüquqları müdafiəçilərinin hüquqlarının təmini ilə bağlı Müvəkkilin fəaliyyəti ilə tanışlıq olmuşdur. Müvəkkil qonağı maraqlandıran sualları cavablandıraraq insan hüquqları sahəsində, həmçinin MPM qismində fəaliyyəti haqqında geniş məlumat vermişdir. Başçəkmələr zamanı Ombudsmanın

[47]http://azertag.az/xeber/Ombudsman_Aparatinda_BMT_nin_xususi_meruzechisi_ile_gorus_kechirilib-994133

ünvanına daxil olmuş müraciətlər, saxlanılan şəxslərin hüquqlarının təmin olunması məsələləri əsas müzakirə mövzularından olmuşdur.

2016-cı ildə Müvəkkil AŞ-ın Azərbaycandakı Ofisi rəhbərinin müavini Jöel Mermeti qəbul etmişdir[48]. Görüşdə Ofisin layihə üzrə məsul əməkdaşı da iştirak etmişdir. Beynəlxalq təşkilatlarla, o cümlədən AŞ ilə əməkdaşlıq əlaqələri və onun əhəmiyyətini vurğulayan Müvəkkil, birgə həyata keçirilən fəaliyyət, dövlət orqanları, QHT və KİV nümayəndələri üçün təşkil edilən maarifləndirmə tədbirləri haqqında geniş məlumat vermiş və əməkdaşlığın əvvəlki illərdə olduğu intensivlikdə davamında maraqlı olduğunu bildirmişdir. O, MPM funksiyalarını yerinə yetirən təsisat qismində müəyyən olunması, bu sahədə fəaliyyətin daha səmərəli aparılması üçün ölkədə şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrə baxışlar keçirdiyini vurğulamış, bu istiqamətdə görülmüş işlər haqqında qonağa ətraflı məlumat vermiş, MPM-i insan hüquqlarının səmərəli müafiəsi sahəsində çox mühüm mexanizm kimi qiymətləndirmişdir. Bununla yanaşı, Azərbaycan Ombudsmanının dövlət orqanları, o cümlədən parlamentlə əməkdaşlığı, insan hüquqlarının daha səmərəli müdafiəsi istiqamətində irəli sürdüyü təkliflər və onların təmini vəziyyəti, Konstitusiya Məhkəməsinə göndərilən sorğular barədə ətraflı məlumat verilmişdir.

Müvəkkilin MPM kimi fəaliyyəti çərçivəsində Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycan nümayəndəliyinin Müdafiə işləri üzrə proqram nümayəndələri xanım Anna Leşinskaya və Çingiz Abdicaparovla görüş keçirmişdir[49]. O, ölkə Ombudsmanının beynəlxalq təşkilatlarla, o cümlədən BQXK, bu qurumun ölkəmizdəki nümayəndəliyi ilə səmərəli əməkdaşlıq əlaqələri qurduğunu, müvafiq fəaliyyət istiqamətləri üzrə birgə əməkdaşllığın faydalı olduğunu diqqətə çatdırmışdır. Aparatın şöbə müdiri Ombudsman təsisatının fəaliyyət istiqamətləri, mandatı, MPM funksiyalarını yerinə yetirən təsisat qismində müəyyən olunması, bu sahədə fəaliyyətin daha səmərəli aparılması üçün ölkədə şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrə müntəzəm baxışlar keçirilməsi barədə ətraflı məlumat vermişdir. A. Leşinskaya ətraflı məlumat üçün təşəkkür etmiş, onu maraqlandıran suallarını vermiş və əməkdaşlıq istiqamətlərindən danışmış, gələcək əməkdaşlıq əlaqələri müzakirə olunmuşdur. Qonaqlar Ombudsman təsisatı ilə əməkdaşlıq əlaqələrinin davam etdirilməsində maraqlı olduqlarını qeyd etmiş, səmimi qəbul və məlumat mübadiləsi üçün minnətdarlıqlarını bildirmişlər.

Ombudsman Aparatının nümayəndələri və Ombudsmanın MPQ-nun rəhbəri Avropa Şurası və Milli İnsan Hüquqları İnstitutlarının Avropa Şəbəkəsi tərəfindən təşkil olunmuş "İfadə azadlığının təminində Milli İnsan Hüquqları İnstitutlarının rolu" mövzusunda yüksək səviyyəli seminarda iştirak etmişlər.

[48]http://www.gununsesi.info/ombudsman-joel-mermeti-q%C9%99bul-edib/

[49]http://www.ombudsman.gov.az/az/view/news/230/beynelxalq-qizil-xach-komitesinin-azerbaycandaki-numayendeliyinin-temsilchileri-ombudsman-aparatinda-qebul-edilmishler

Tədbirdə Avropa Şurasının Baş katibi T.Yaqlandın, Avropa Şurası, ATƏT, Avropa Jurnalistlər Federasiyası, Beynəlxalq Ombudsmanlar İnstitutu, Milli İnsan Hüquqları İnstitutlarının Avropa Şəbəkəsinin rəhbər şəxslərinin, müxtəlif ölkələrin ombudsmanlarının və beynəlxalq ekspertlərin məruzələri dinlənilmiş, fikir mübadiləsi aparılmışdır.

Çoxsaylı Milli İnsan Hüquqları Təsisatlarının nümayəndələrinin, müstəqil ekspertlərin, diplomatların da qatıldığı seminarda müstəqil monitorinq mexanizmi olaraq Milli İnsan Hüquqları Təsisatlarının ifadə azadlığının təmini sahəsində fəaliyyəti, vətəndaş cəmiyyəti və jurnalist birlikləri ilə əməkdaşlıq istiqamətləri, beynəlxalq sənədlərin implementasiyası məsələləri, hesabatlılıq, qanunvericiliyin təhlili, media qurumlarının fəaliyyətinin şəffaflığı, plüralizm, sosial medianın dəstəklənməsi və digər mövzularla bağlı müzakirələr aparılmışdır. Aparatın əməkdaşları həmçinin Avropa regionunda fəaliyyət göstərən Milli İnsan Hüquqları Təsisatları nümayəndələrinin iştirakı ilə keçirilən adı çəkilən Şəbəkənin Kommunikasiya üzrə İşçi qrupunun iclasına qatılmışlar. Səfər çərçivəsində Ombudsmanın nəşrləri, illik məruzəsi, Müvəkkilin MPM qismində fəaliyyətinə dair hesabatlarının nüsxələri Avropa Şurasının Ofisinə təqdim olunmuşdur.

MPM-in beynəlxalq əməkdaşlığı çərçivəsində MPM mandatının inkişaf etdirilməsi məqsədilə Milli İnsan Hüquqları Təsistatlarının əməkdaşları üçün Litvanın paytaxtı Vilnüs şəhərində Beynəlxalq Ombudsmanlar İnstitutunun (İOİ), APT-nin və Litva Ombudsmanının birgə təşkilatçılığı ilə “Psixiatriya müəssisələrində monitorinqlər” mövzusunda təşkil olunmuş beynəlxalq seminarda Azərbaycan MPM-nin nümayəndəsi də iştirak etmişdir.[50]

“BMT-nin İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyası” və onun Fakültativ Protokolu əsasında şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrdən olan Psixiatriya müəssisələri üzrə həyata keçirilən başçəkmələr, istinad edilən beynəlxalq standartlar, milli qanunvericilikdə islahatlar, hesabatlılıq, müxtəlif ölkələrin MPM qismində qazandıqları müsbət təcrübə, mövcud resursları, bu fəaliyyət çərçivəsində qarşılaşdıqları çətinliklər və onların həlli yolları geniş müzakirə olunmuş, Beynəlxalq Ombudsmanlar İnstitutunun (İOİ), APT-nin, İQA-nın (SPT), İQAK-ın (CPT) ekspertlərinin təqdimatları dinlənilmişdir.

Seminarda iştirak edən MPQ-nun rəhbəri Azərbaycanda beynəlxalq standartların milli qanunvericiliyə implementasiyası sahəsində həyata keçirilən islahatlar, normativ-hüquqi bazanın təkmilləşdirilməsi, ölkə Ombudsmanının MPM qismində bu proseslərdə fəal iştirakı və həyata keçirdiyi fəaliyyət, illik fəaliyyət planı, verdiyi təkliflər, şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müxtəlif müəssisələrə keçirilən başçəkmələr, ölkədə formalaşmış müsbət

[50]http://www.apt.ch/en/news_on_prevention/workshop-with-ombuds-institutions-on-monitoring-psychiatric-facilities/#.
WRAe29wlG70

təcrübə, eləcə də fəaliyyətin təkmilləşdirilməsi məqsədilə həyata keçirilən Tvinninq, TAİEX proqramları, təcrübə mübadilələri haqqında geniş məlumat vermişdir.

Avropa İttifaqının maliyyələşdirdiyi "Azərbaycanla Mobillik naminə tərəfdaşlığın həyata keçirilməsinə dəstək (MOBİLAZE)" layihəsinin icraçı agentliyi olan Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəz (İCMD) tərəfindən readmissiya olunan Azərbaycan Respublikası vətəndaş-larının reinteqrasiyası ilə bağlı fokus qrup müzakirəsi keçirilmişdir. Tədbirdə müvafiq dövlət qurumlarının və məsələ üzrə maraqlı digər qurumların nümayəndələri, Hollandiya və Bolqarıstandan olan beynəlxalq ekspertlər, İCMD və Aİ-nin Azərbaycandakı nümayəndələri iştirak etmişlər. MPQ rəhbəri də həmin müzakirələrdə iştirak etmiş, mövzu üzrə fikirlərini bölüş-müşdür.

Qeyd olunanlarla yanaşı, beynəlxalq əməkdaşlıq çərçivəsində Müvək-kilin MPM kimi fəaliyyəti ilə bağlı beynəlxalq təşkilatlardan il ərzində daxil olmuş sorğular cavablandırılmış, bu istiqamətdə informasiyalara açıq şəkildə yanaşmalar nümayiş etdirilmişdir.

## BÖLMƏ 6.

## NƏTİCƏ VƏ TÖVSİYƏLƏR

Cəmiyyətdə hüquq mədəniyyətinin inkişafı, insanın nəinki işgəncəyə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəzaya məruz qalmamaq, eləcə də digər hüquqlarının təmin olunması səviyyəsinin artırılmasını şərtləndirir. Ötən dövrdə həyata keçirilmiş fəaliyyət ərzində bir çox təklif və tövsiyələrin irəli sürülməsi nəticəsində hüquq-mühafizə, cəzaları icra edən orqanların, digər dövlət qurumlarının və vəzifəli şəxslərin insan hüquqlarının mahiyyətinə və təmin olunmasına münasibəti müsbətə doğru dəyişmiş, hüquq düşüncəsi yeni məzmunda formalaşmış, idarəetmənin təkmilləşmişdirilməsi istiqamətində addımlar atılmışdır.

Müvəkkil bu istiqamətdə də öz fəaliyyətini "Paris prinsiplərinə" uyğun aşağıdakı şəkildə qurur:

- milli qanunvericilik aktlarının və praktikanın dövlətin iştirakçısı olduğu insan hüquqlarına dair beynəlxalq sənədlərə uyğunlaşdırılması və həyata keçirilməsini təşviq edir;
- dövlətin beynəlxalq sənədlərə qoşulmasını və beynəlxalq normaların milli qanunvericiliyə implementasiyasını, eləcə də müvafiq tədbirlərin görülməsini təşviq edir.
- dövlətin beynəlxalq konvensiyalar üzrə həyata keçirdiyi fəaliyyətlə bağlı BMT qurumlarına, regional təsisatlara təqdim etməli olduğu məruzələrin hazırlanmasına yardım göstərir, müstəqillik prinsipinə uyğun olaraq bu hesabat barədə öz rəyini ifadə edir, habelə əlavə hesabatını təqdim edir.

Bu baxımdan Müvəkkilin MPM qismində fəaliyyətinə dair əvvəlki hesabatlarında təqdim etdiyi təklif və tövsiyələrin yarıdan çoxu öz həllini tapmış və ya icraya yönəldilmişdir. Təqdim olunan bu hesabatda da, əvvəlki təkliflər sırasında öz əksini tapmış, lakin hələ də həllini gözləyən, o cümlədən fəaliyyət prosesində ortaya çıxan yeni təklif və tövsiyələr yer almışdır.

Müvəkkil MPM qismində 2016-cı ildə həyata keçirdiyi fəaliyyətin nəticələrinin təhlili, saxlanılan şəxlərin hüquqlarının effektiv təmini məqsədilə aşağıdakıları təklif edir.

### Normativ hüquqi aktlarla bağlı:

1. Açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələrin fəaliyyətinin yenidən təşkili, bu sahədə normativ hüquqi aktların təkmilləşdirilməsi, yetkinlik yaşına çatmayanların davranışının korreksiyasını və cəmiyyətə uyğunlaşmasını, o cümlədən onların psixoloji, tibbi və sosial reabilitasiyasının təmin edilməsi;

2. Yetkinlik yaşına çatmayanlarla bağlı cinayət işləri üzrə istintaqın peşəkarlıq səviyyəsi daha yüksək olan müstəntiqlər tərəfindən aparılmasına nəzarətin gücləndirilməsi;

3. Təqsirləndirilən şəxslər, xüsusilə də yetkinlik yaşına çatmayanlar, habelə hamilə və südəmər körpəsi olan qadınlara münasibətdə həbsə alternativ qətimkan tədbirlərinin seçilməsinə üstünlük verilməsi və buna nəzarətin gücləndirilməsi;

4. PX-nin Tərbiyə Müəssisəsində saxlanılan yetkinlik yaşına çatmayan şəxslərin islah olunmaları və cəmiyyətə yararlı fərd kimi formalaşmalarının təşviq edilməsi, keyfiyyətli təhsilə və müvafiq peşə kurslarına cəlb edilməsi, onların cəmiyyətə adaptasiyası və asudə vaxtlarının səmərəli təşkili işinin gücləndirilməsi, bu müəssisədə nəzarətçilərinin mülki formada xidmət aparmaları ilə bağlı müvafiq normaların qəbul edilməsi;

5. Tutulmuş və ya həbs edilmiş şəxslərin barəsində olan məlumatların və görüntülərin məhkəmənin qanuni qüvvəyə minmiş hökmü olmadan KİV-də yayımlanmasının qarşısının alınması;

6. Xarici ölkələrin təcrübəsində geniş yer almış və cinayət təqibi prosesində tətbiq olunan Probasiya və Mediasiya institutu modelinin tətbiq edilməsi imkanlarının araşdırılması;

7. Müvafiq icra hakimiyyəti orqanları tərəfindən təsdiq edilmiş "İnzibati həbs olunanların saxlanılma məntəqələri haqqında" müvəqqəti Əsasnamənin və "İnzibati həbs olunanların saxlanılma məntəqələrində" müvəqqəti Daxili İntizam Qaydalarının, "Cəzaçəkmə müəssisələrinin Daxili İntizam Qaydalarının", hazırda layihədə olan "Qanunsuz Miqrantların Saxlanılması Mərkəzlərinin Daxili İntizam Qaydaları"nın Nazirlər Kabineti tərəfindən təsdiq edilməsi;

8. "Silahlı Qüvvələrin qarnizon və qarovul xidmətləri Nizamnaməsi"nin 4 saylı əlavəsinin 17 və 21-ci bəndlərinin beynəlxalq normalara uyğunlaşdırılması.

**Daxili İşlər Nazirliyinə tövsiyələr:**

1. Penitensiar müəssisələrdən azad edilmiş şəxslərin DİN tərəfindən profilaktiki qeydiyyata götürülməsi zamanı əlavə olaraq sosial işçi, psixoloqların bu prosesə cəlb olunması;

2. Profilaktika işinin aparılmasına məsul olan kadrların az olmasının nəzərə alınması və aradan qaldırılması istiqamətində tədbirlərin görülməsi;

3. Polis uşaq inspektorlarının texniki vasitələrlə təmin olunmaları istiqamətində tədbirlərin görülməsi;

4. MSY-də saxlanılan və barələrində həbs qətimkan tədbiri seçilmiş şəxslərin qanunvericiliyin tələblərinə uyğun olaraq 24 saat ərzində İT-yə göndərilməsi, tibb işçilərinin cəlb olunması və sənədləşmənin aparılması işinə

nəzarətin gücləndirilməsi;

5. DİN-in İHOSM-də müşahidə olunan sıxlığın aradan qaldırılması üçün müvafiq tədbirlərin görülməsini;

6. Polis əməkdaşları arasında ”Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında“ Azərbaycan Respublikası Qanununun geniş təbliği və onun monitorinqinin aparılması;

7. Qanunvericiliyə müvafiq şəkildə MSY-də saxlanılan şəxslərin dövlət hesabına maddi-məişət və gigiyenik vasitələrlə təmin olunması işinin yaxşılaşdırılması;

8. MSY-in bəzilərində saxlanma şəraitin yaxşılaşdırılması (Xızı, İmayıllı, İmişli, Saatlı, Neftçala RPŞ).

**Ədliyyə Nazirliyinə tövsiyələr:**

1. CÇM-də və istintaq təcridxanalarında yaranmış sıxlığın aradan qaldırılması istiqamətində tədbirlərin gücləndirilməsi;

2. Bakı şəhəri Zabrat qəsəbəsində inşa edilən məhkum qadınlar üçün cəzaçəkmə, habelə yetkinlik yaşına çatmayanlar üçün tərbiyə müəssisəsinin, Umbakı qəsəbəsində inşa edilən həbsxananın, Gəncə, Lənkəran şəhərlərində inşa edilən penitensiar komplekslərdə tikinti işlərinin sürətləndirilməsi;

3. İntizam tənbehlərinin və xüsusi vasitələrin yalnız zərurət olduğu hallarda tətbiq edilməsi və bu zaman sənədləşmənin ciddi aparılmasına və mütləq şəkildə məhkumun izahatının alınması məsələsinə nəzarətin gücləndirilməsi;

4. Həvəsləndirmə tədbiri kimi və saxlanılan şəxslərin yaxınlarının onlarla müəyyən səbəblərdən görüşə bilməməsini nəzərə alaraq xarici ölkələrin (Polşa Respublikası) təcrübəsindən yararlanaraq əlaqə məqsədilə “Skype” proqramının imkanlarından istifadə edilməsi;

5. PX-in müəssisələrində saxlanılan şəxslərin yazışma və müraciətlərinin konfidensiallığı tələbinin yerinə yetirilməsi istiqamətində tədbirlərin gücləndirilməsi;

6. Məhkumlar üçün ibtidai orta təhsili və peşə təhsilinin həyata keçirilməsi işinin təkmilləşdirilməsi və yenidən təşkilinə dəstək verilməsi;

7. Cəzaçəkmə müəssisələrində məhkumların əməklə islah olunmaları işinə diqqətin artırılması,onların əməyə və peşə vərdişlərinə həvəsləndirilməsi, yeni iş yerlərinin açılması, layihələrin həyata keçirilməsi və müəssisələrin özünün də istehsalat baxımından ixtisaslaşması;

8. Saxlanılan şəxslərin penitensiar müəssisələrdən MSY-lərə (və əks istiqamətə) etap olunarkən bunun üçün nəzərdə tutulmuş müvafiq qatar vaqonlarında sıxlığın və şəraitin qeyri-qənaətbəxş olmasını nəzərə alaraq bu sahədə infrastrukturun yaxşılaşdırılması;

9. Cəzaçəkmə müəssisələrində fəaliyyət göstərən psixoloqlara qarşı məhkumlarda etimad və etibar münasibətlərinin yaranması üçün onların zabit statusundan tibbi personala keçirilməsi ilə bağlı qanunvericilikdə dəyişikliklər edilməsi;

10. ƏN tərəfindən saxlanılan şəxslərə münasibətdə göstərilən hüquqi yardımın keyfiyyətinin yüksəldilməsi, eləcə də vəkillərin və hüquq məsləhətxnalarının sayının artırılması istiqamətində tədbirlərin görülməsi;

11. Məhkəmələrdə saxlanılan şəxslər üçün nəzərdə tutulmuş gözləmə salonlarının müasir tələblərə uyğunlaşdırılması işinin davam etdirilməsi.

12. Probasiya xidmətinin yaradılması və islahatların həyata keçirilməsi.

**Səhiyyə Nazirliyinə tövsiyələr:**

1. Psixiatriya müəssisələrində xəstələrin diaqnoza uyğun qalma müddətini, təxirəsalınmaz tibbi yardım və müalicə prinsiplərini, onların evə yazılma qaydalarının nizamlanması istiqamətində fəaliyyəti tənzimləyən standartların işlənib hazırlanması;

2. Səhiyyə xərclərinin psixi sağlamlıq xidmətlərinə sərf edilən vəsaitin artırılması, eləcə də, psixiatriya müəssisələrinin büdcələrinin rayon səhiyyə şöbələri və ya rayon/şəhər mərkəzi xəstəxanalarına ayrılan vəsaitlə birgə deyil, müstəqil verilməsinin təmini;

3. Müəssisələrdə beynəlxalq standartlar əsasında sanitar normaların təminatı məsələsinə diqqətin artırılması;

4. Psixiatriya müəssisələrində mövcud ixtisaslı kadrların (həkim-psixiatrların, tibb bacılarının) sayının artırılması, burada çalışan orta və kiçik tibb işçilərinin sahənin spesifikliyini nəzərə alaraq qısamüddətli müvafiq peşə kurslarına cəlb edilməsi, həmçinin keyfiyyətinin artırılması məqsədi ilə göstərdikləri xidmətə müvafiq olaraq onların barəsində həvəsləndirmə tədbirlərinin seçilməsi;

5. Psixiatriya sahəsində çalışan tibbi və yardımçı personalın müvafiq qanunvericilik və beynəlxalq standartlar, "Psixi xəstələrin müdafiəsi və psixiatriya yardımının yaxşılaşdırılması prinsipləri"nə və "Ruhi xəstələrin saxlanma şəraitinə və onlara qarşı rəftara dair Avropa Minimum Standartları" əsasında haqqında məlumatlılığının artırılması;

6. Psixi pozuntuları olan şəxslər üçün icma əsaslı proqramların, bu tipli ixtisaslaşmış yerlərinin yaradılması, pasiyentlərin bacarıq və maraqlarını nəzərə almaqla palatadan kənar ərazidə əməklə məşğul olmaları imkanlarının genişləndirilməsi, idman oyunları, musiqi və digər mədəni saatların icrası ilə, asudə vaxtlarının səmərəli təşkil edilməsi və bu sahədə müvafiq işlərin görülməsi müalicənin effektivliyinə müsbət töhfə verə bildiyindən, yeni yanaşmaların tətbiqi;

7. SN tərəfindən stasionar müalicəyə ehtiyacı olmayan və yalnız sosial əlaqələrini itirməsi səbəbindən uzun müddət 1 saylı Respublika Psixiatriya Xəstəxanasında qalan şəxslərin ƏƏSMN-nin tabeliyində olan aidiyyəti sosial müəssislərə köçürülməsi istiqamətində tədbirlərin görülməsi;

8. SN tərəfindən regional psixiatriya müəssisələrinin maddi-məişət vəziyyətinin yaxşılaşdırılması üçün müvafiq tədbirlərin görülməsi;

9. Beynəlxalq təcrübə və standartlara uyğun olaraq psixiatriya xəstəxanalarında pasiyentlərin izolyasiya təcrübəsindən imtina edilməsi işinin təşviqi;

10. Psixiatriya xəstəxanalarında sənədləşmə işlərinin təkmilləşdirilməsi, ibadət və görüş otaqlarının, telefon kabinələrinin, kitabxananın yaradılmasına olan ehtiyacların aradan qaldırılması, ailələri ilə mütəmadi əlaqələrinin təşkili, müəssisələrin ictimailəşməsi;

11. SN tərəfindən psixiatriya müəssisələrinə ictimai nəzarətin həyata keçirilməsi istiqamətində müvafiq tədbirlərin görülməsi.

**Təhsil Nazirliyinə tövsiyələr:**

1. Quba xüsusi peşə məktəbinin fəaliyyətini tənzimləyən normativ aktların təkmilləşdirilməsi və saxlanma şəraitinin beynəlxalq standartlara və yetkinlik yaşına çatmayanların maraqlarına uyğun şəkildə təmini;

2. Qanunvericiliyin tələbləri əsasında yetkinlik yaşına çatmayanların hüquqpozmalarının profilaktikası baxımından açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələrinin fəaliyyətinin yenidən təşkili;

3. İnternat məktəblərində çalışan tərbiyəçi heyətinin peşəkarlıq səviyyəsinin yüksəldilməsi üçün müvafiq peşə kurslarına cəlb edilməsi, eyni zamanda bu məqsədlə orta ixtisas məktəblərində müvafiq tədris ixtisaslarının yaradılması istiqamətində tədbirlərin görülməsi;

4. Saxlanma şəraitinin yaxşılaşdırılması məqsədilə bir sıra müəssisələrin əsaslı təmirinin həyata keçirilməsi (Quba Xüsusi Peşə Məktəbi, Siyəzən şəhər Ümumi Orta İnternat Məktəbi, Goranboy rayon R.Ağakişiyev adına İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziya);

5. Penitensiar müəssisələrdə məhkumlar üçün ibtidai orta təhsili və peşə təhsilinin həyata keçirilməsi, kompüter bilikləri və digər bacarıqların aşılanması işinin təkmilləşdirilməsi və yenidən təşkili.

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə tövsiyələr:**

1. ƏƏSMN-nin də imkanlarından istifadə edilməklə penitensiar müəssisələrdən azad edilmiş şəxslərin reabilitasiyası və sosial adaptasiyası sahəsində kompleks proqramların həyata keçirilməsi, sosial xidmətlərin inkişaf etdirilməsi;

2. Uzun müddətə azadlıqdan məhrum edilmiş şəxslərin resosiallaşdırılması üçün individual proqramların hazırlanması;

3. Cəzaçəkmə müəssisələrindən azad edilmiş şəxslərin məşğulluq probleminin həlli üzrə yeni mexanizmlərin hazırlanması;

4. Penitensiar müəssisələrdən azad edilmiş şəxslərin reabilitasiyası və sosial adaptasiyası" haqqında Azərbaycan Respublikası Qanununun 6-cı maddəsinin tələbləri əsasında sosial adaptasiya mərkəzlərinin yaradılması işinin sürətləndirilməsi;

5. Məhkumlara əlilliyin təyin olunması istiqamətində fəaliyyətinin təkmilləşdirilməsi, milli və beynəlxalq standartlar əsasında işlək mexanizmlərin yaradılması;

6. ƏƏSMN-nin tabeliyində olan əqli qüsurlu, əlilliyi olan və ahıl şəxslər üçün müəssisələrin maddi şəraitinin təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində işlərin davam etdirilməsi;

7. ƏƏSMN-nin tabeliyində olan müvafiq müəssisələrdə saxlanılan şəxslərə göstərilən tibbi xidmətin keyfiyyətinin aşağı, dərman ehtiyatının isə məhdud olmasını nəzərə alaraq müvafiq işlərin görülməsi və göstərilən xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması;

8. Ahıl şəxslərin saxlanma şəraitinin, habelə bu sahədə milli qanunvericilik aktlarının "Ahıl Şəxslərə dair BMT prinsiplərinə" və digər beynəlxalq standartlara uyğunlaşdırılması.

**Dövlət Miqrasiya Xidmətinə ünvanlanan tövsiyə:**

1.Yevlax rayon Qanunsuz Miqrantların Saxlanılma Mərkəzində yerləşdirilən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin telefon əlaqəsindən istifadə etmək hüquqlarının həyata keçirilməsi üçün Mərkəzdə telefon danışığı məntəqəsinin yaradılması.

*Əlavə 1.*

# STATİSTİK GÖSTƏRİCİLƏR

***Diaqram 1. MPM-in başçəkmə həyata keçirdiyi müəssisələrin sayı***




***Diaqram 2. MPM-in 2016-cı ildə həyata keçirdiyi başçəkmələr***



*Diaqram 3. MPM-in 2016-cı ildə həyata keçirdiyi başçəkmələr (müəssisələr üzrə)*




**Diaqram 4: MPM-in həyata keçirdiyi başçəkmələr (illər üzrə)**



**Diaqram 5: MPM-in mətbuat açıqlaması (illər üzrə)**

Başçəkmələrə dair

Maarifləndirmə və digər tədbirlərə dair



*Əlavə 2.*

**İşgəncələrə və digər qəddar, qeyri-insani yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı Konvensiyanın**

## FAKÜLTATİV PROTOKOLU

### Preambula

Hazırkı Protokolun iştirakçı dövlətləri,

İşgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftarın və cəza növlərinin qadağan edildiyini və onların insan hüquqlarının ciddi pozuntuları olduğunu bir daha təsdiq edərək,

İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı Konvensiyanın (bundan sonra "Konvensiya" adlandırılacaq) məqsədlərinə nail olunması və azadlıqdan məhrum edilmiş şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsinin gücləndirilməsi üzrə gələcək tədbirlərin zəruriliyinə əmin olaraq,

Konvensiyanın 2-ci və 16-cı maddələrinin hər bir iştirakçı dövlətin öz yurisdiksiyasında olan hər hansı ərazidə işgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması üçün səmərəli tədbirlərin görülməsini öhdəsinə qoyduğunu xatırlayaraq,

Dövlətlərin bu maddələrin həyata keçirilməsinə görə birbaşa məsuliyyət daşıdığını, azadlıqdan məhrum edilmiş şəxslərin müdafiəsinin gücləndirilməsinin və onların insan hüquqlarına tam riayət olunmasının ümumi vəzifə olduğunu və Konvensiyanın tətbiqi üzrə beynəlxalq qurumların milli tədbirləri tamamladığını və möhkəmləndirdiyini etiraf edərək,

İşgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin səmərəli şəkildə qarşısının alınmasının maarifləndirmə sahəsində tədbirlərin görülməsini və müxtəlif qanunvericilik, inzibati, məhkəmə və digər tədbirlərin birləşdirilməsini tələb etdiyini xatırlayaraq,

Həmçinin, Vyanada 1993-cü ilin iyun ayında keçirilmiş İnsan Hüquqları üzrə Ümumdünya Konfransında işgəncələrin kökünün kəsilməsi üzrə səylərin ilk öncə onun qarşısının alınmasına yönəlməli olduğunu bəyan etdiyini və saxlanma yerlərinə mütəmadi başçəkmə üzrə preventiv sistemin yaradılması məqsədi daşıyan Konvensiyanın fakültativ protokolunun qəbul edilməsinə çağırdığını xatırlayaraq,

Azadlıqdan məhrum edilmiş şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsinin saxlanma yerlərinə mütəmadi başçəkmələrə əsaslanan preventiv xarakter daşıyan qeyri-məhkəmə tədbirləri əsasında gücləndirə bilinməsinə əmin olaraq,

Aşağıdakılar barədə razılığa gəldilər:

## I HİSSƏ

## ÜMUMİ PRİNSİPLƏR

***Maddə 1***

Hazırkı Protokolun məqsədi işgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması üçün azadlıqdan məhrum edilmiş şəxslərin saxlanıldığı yerlərə müstəqil beynəlxalq və milli orqanlar tərəfindən mütəmadi başçəkmələr sisteminin yaradılmasından ibarətdir.

***Maddə 2***

1. Hazırkı Protokolda ifadə olunan funksiyaları yerinə yetirən İşgəncələrə qarşı Komitənin İşgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması üzrə Altkomitə (bundan sonra Qarşısını Alma üzrə Altkomitə adlandırılacaq) yaradılır.

2. Qarşısını Alma üzrə Altkomitə fəaliyyətini Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi çərçivəsində həyata keçirir və onun məqsəd və prinsiplərinin, habelə Birləşmiş Millətlər Təşkilatının azadlıqdan məhrum edilmiş şəxslərlə rəftara aid normalarını rəhbər tutur.

3. Qarşısını Alma üzrə Altkomitə, həmçinin konfidensiallıq, qərəzsizlik, qeyri-seçicilik, universallıq və obyektivlik prinsiplərini rəhbər tutur.

4. Qarşısını Alma üzrə Altkomitə və iştirakçı dövlətlər hazırkı Protokolun həyata keçirilməsində əməkdaşlıq edir.

***Maddə 3***

Hər bir iştirakçı dövlət işgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması məqsədilə milli səviyyədə (milli preventiv mexanizmlər adlandırılan) bir və ya bir neçə başçəkmə orqanını yaradır, təyin edir və ya dəstəkləyir.

***Maddə 4***

1. Hər bir iştirakçı dövlət Hazırkı Protokola, 2-ci və 3-cü maddələrdə qeyd olunan mexanizmlərə uyğun olaraq yurisdiksiyası və nəzarəti altında olan azadlıqdan məhrum edilmiş şəxslərin dövlət orqanının sərəncamı və ya onun göstərişi, yaxud icazəsi və ya susmaqla razılığı əsasında saxlanıldığı və yaxud saxlanıla bildiyi hər bir yerə (bundan sonra saxlanma yerləri adlandırılacaq) başçəkmələrə icazə verir. Zərurət olduqda bu başçəkmələr belə şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsinin gücləndirilməsi məqsədi ilə həyata keçirilir.

2. Hazırkı Protokolun məqsədləri üçün azadlıqdan məhrum etmə dedikdə şəxsin hər hansı məhkəmə, inzibati və ya digər orqanın qərarı ilə həbsdə

saxlanılmasının və ya azadlıqdan məhrum edilməsinin, yaxud öz iradəsi ilə tərk etmə hüququ olmadan dövlət yaxud özəl həbsdə saxlanma yerinə yerləşdirilməsinin istənilən forması başa düşülür.

## II HİSSƏ

## QARŞISINI ALMA ÜZRƏ ALTKOMİTƏ

***Maddə 5***

1. Qarşısını alma üzrə Altkomitə on üzvdən ibarətdir. Hazırkı Protokolun əllinci ratifikasiya fərmanının və ya ona qoşulma haqqında sənədin saxlanma üçün verilməsindən sonra Altkomitənin üzvlərinin sayı iyirmi beş nəfərə qədər artırılır.

2. Qarşısını alma üzrə Altkomitənin üzvləri yüksək mənəvi keyfiyyətlərə malik və ədalət mühakiməsi, xüsusilə də cinayət ədalət mühakiməsi sahəsində, penitensiar sistemdə və ya polis orqanlarında, yaxud azadlıqdan məhrum edilmiş şəxslərlə rəftarla aid istənilən sahələrdə təsdiq edilmiş iş təcrübəsi olan şəxslər sırasından seçilir.

3. Qarşısını alma üzrə Altkomitənin yaradılması zamanı ədalətli coğrafi bölgü və iştirakçı dövlətlərin müxtəlif mədəniyyət formalarının və hüquq sistemlərinin təmsilçiliyinin zərurətinə lazımi diqqət yetirilir.

4. Qarşısını alma üzrə Altkomitənin yaradılması zamanı həmçinin bərabərlik və ayrı-seçkiliyin yolverilməzliyi prinsipləri əsasında tarazlaşdırılmış gender təmsilçiliyinə diqqət yetirilir.

5. Qarşısını alma üzrə Altkomitənin tərkibinə eyni dövlətin birdən çox vətəndaşı daxil ola bilməz.

6. Qarşısını alma üzrə Altkomitənin üzvləri öz funksiyalarını şəxsi qisimdə həyata keçirir, onlar müstəqil və qərəzsiz olmalı və Altkomitənin tərkibində səmərəli işləməyə imkanları olmalıdır.

***Maddə 6***

1. Hər bir iştirakçı dövlət hazırkı maddənin 2-ci bəndinə uyğun olaraq 5-ci maddədə təsbit olunmuş ixtisas və tələblərə cavab verən iki namizədi irəli sürə bilər, bununla belə dövlət həmin namizədlərin ixtisası haqqında ətraflı məlumat təqdim edir.

2. a) Namizədlər hazırkı Protokolun iştirakçı dövlətinin vətəndaşı olmalıdır;

b) irəli sürülmüş iki namizəddən ən azı biri onun namizədliyini irəli sürən iştirakçı dövlətin vətəndaşlığına malik olmalıdır;

c) bir iştirakçı dövlətin vətəndaşı olan iki nəfərdən çox namizəd irəli sürülə bilməz;

d) hər hansı iştirakçı dövlət digər iştirakçı dövlətin vətəndaşını namizəd

kimi irəli sürməkdən əvvəl, o, həmin iştirakçı dövlətə sorğu verir və razılığını alır.

3. Seçkilərin keçirilməsi nəzərdə tutulan iştirakçı dövlətlərin müşavirəsinin başlanmasından ən azı beş ay əvvəl Birləşmiş Millətlər Təşkilatının Baş katibi iştirakçı dövlətlərə üç ay ərzində öz namizədlərini irəli sürmək təklifi ilə məktub göndərir. Baş katib bütün namizədlərin, onları irəli sürmüş iştirakçı dövlətlər göstərilməklə əlifba qaydasında siyahısını təqdim edir.

***Maddə 7***

1. Qarşısını alma üzrə Altkomitənin üzvləri aşağıdakı qaydada seçilir:

a) əsas diqqət hazırkı Protokolun 5-ci maddəsinin tələblərinə və meyarlarına əməl edilməsinə yetirilir;

b) ilk seçkilər hazırkı Protokolun qüvvəyə minməsindən sonra altı ay müddətindən gec olmayaraq keçirilir;

c) iştirakçı dövlətlər Qarşısını alma üzrə Altkomitənin üzvlərini gizli səsvermə yolu ilə seçir;

d) Qarşısını alma üzrə Altkomitənin üzvünün seçkiləri Birləşmiş Millətlər Təşkilatının Baş katibi tərəfindən iki ildə bir dəfə çağırılan iştirakçı dövlətlərin iclaslarında keçirilir. İştirakçı dövlətlərin sayının üçdə iki hissəsi kvorum hesab edilən bu iclaslarda ən çox səs və iştirak edən və səs verən iştirakçı dövlətlərin nümayəndələrinin mütləq səs çoxluğunu toplamış şəxslər Altkomitəyə seçilmiş üzvlər hesab olunur.

2. Seçkilər zamanı hər hansı iştirakçı dövlətin iki vətəndaşının Qarşısını alma üzrə Altkomitənin tərkibində işləmək hüququnu əldə etdiyi təqdirdə, ən çox səs toplamış namizəd Altkomitənin üzvü seçilir. Bu vətəndaşların eyni sayda səs topladığı təqdirdə, aşağıdakı prosedur tətbiq olunur:

a) namizədlərin yalnız biri vətəndaşı olduğu iştirakçı dövlət tərəfindən irəli sürüldüyü təqdirdə bu vətəndaş Qarşısını alma üzrə I Altkomitənin üzvü seçilir;

b) hər iki namizəd vətəndaş olduqları iştirakçı dövlət tərəfindən irəli sürüldüyü təqdirdə, Qarşısını alma üzrə Altkomitənin üzvlüyünə namizədlərdən birinin müəyyən edilməsi üçün ayrıca gizli səsvermə keçirilir;

c) namizədlərdən heç biri vətəndaşı olduğu iştirakçı dövlət tərəfindən irəli sürülmədiyi təqdirdə Qarşısını alma üzrə Altkomitənin üzvlüyünə namizədlərdən birinin müəyyən edilməsi üçün ayrıca gizli səsvermə keçirilir.

***Maddə 8***

Qarşısını alma üzrə Altkomitə üzlərindən birinin vəfat etdiyi və ya istefa verdiyi yaxud hər hansı digər səbəbdən Altkomitə üzvünün funksiyalarını yerinə yetirməsi mümkün olmadığı təqdirdə, onun namizədliyini irəli sürmüş iştirakçı dövlət seçilmək hüququ olan, 5-ci maddədə təsbit olunmuş ixtisasa malik və tələblərə cavab verən şəxsi teyin edir. Bu şəxs səlahiyyətlərin

müxtəlif sahələri arasında müvafiq tarazlığın təmin edilməsi zərurəti nəzərə alınmaqla, iştirakçı dövlətlərin növbəti iclasına qədər olan səlahiyyət müddətinə, onun iştirakçı dövlətlərin çoxluğu tərəfindən təsdiq olunması şərti ilə teyin olunur. Birləşmiş Millətlər Təşkilatı Baş katibinin ehtimal edilən təyinat haqqında bildirişindən sonra altı ay ərzində iştirakçı dövlətlərin yarısı və ya yarısından çoxu tərəfindən belə təyinata qarşı çıxış edilmədiyi təqdirdə təsdiqetmə baş tutmuş hesab olunur.

***Maddə 9***

Qarşısını alma üzrə Altkomitənin üzvləri il 4 müddətinə seçilir. Namizədlikləri irəli sürüldüyü təqdirdə onlar bir dəfə təkrarən seçilə bilərlər. İlk seçkilərdə seçilmiş üzvlərin yarısının səlahiyyət müddəti iki illik müddət bitdikdən sonra başa çatır; ilk seçkilərdən dərhal sonra bu üzvlərin adları 7-ci maddənin 1 d bəndində qeyd olunan iclasın Sədri tərəfindən keçirilən püşk atma yolu ilə müəyyən olunur.

***Maddə 10***

1. Qarşısını alma üzrə Altkomitə öz vəzifəli şəxslərini iki il müddətinə seçir. Onlar təkrarən seçilə bilərlər.

2. Qarşısını alma üzrə Altkomitə öz prosedur qaydalarını müəyyən edir. Bu prosedur qaydalar xüsusilə aşağıdakıları nəzərdə tutur:

a) üzvlərin yarısı üstə gəl bir kvorum təşkil edir;

b) Qarşısını alma üzrə Altkomitənin qərarları iştirak edən üzvlərin səs çoxluğu ilə qəbul olunur;

c) Qarşısını alma üzrə Altkomitənin iclasları qapalı keçirilir.

3. Birləşmiş Millətlər Təşkilatının Baş katibi Qarşısını alma üzrə Altkomitənin ilk iclasını çağırır. İlk iclasdan sonra Qarşısını alma üzrə Altkomitə prosedur qaydalarına müvafiq olan intervalda iclaslarını keçirir. Altkomitə və İşgəncələrə qarşı Komitə ildə bir dəfədən az olmayaraq birlikdə toplaşırlar.

## III HİSSƏ

## QARŞISINI ALMA ÜZRƏ ALTKOMİTƏNİN MANDATI

***Maddə 11***

Qarşısını alma üzrə Altkomitə:

a) 4-cü maddədə qeyd olunan yerlərə baş çəkir və azadlıqdan məhrum edilmiş şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsi ilə bağlı iştirakçı dövlətlərə tövsiyələr təqdim edir;

b) milli preventiv mexanizmlərə münasibətdə:

i) zərurətolduqda, belə mexanizmlərin yaradılmasındaiştirakçı dövlət-lərə məsləhət verir və yardım göstərir;

ii) milli preventiv mexanizmlərlə birbaşa, zərurət olduqda konfidensial şəkildə əlaqə saxlayır və onların potensialının gücləndirilməsi məqsədi ilə peşəkar hazırlıq və texniki yardım sahəsində xidmətlər təklif edir;

iii) azadlıqdan məhrum edilmiş şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsinin gücləndirilməsi üçün ehtiyacların və zəruri tədbirlərin qiymətləndirilməsi işində məsləhət verir və yardım göstərir;

iv) milli preventiv mexanizmlərinin imkanlarının və mandatının gücləndirilməsi məqsədi ilə işgəncələrin və digər qəddar, qeyri-insani yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması üçün iştirakçı dövlətlərə tövsiyə və iradları təqdim edir.

c) işgəncələrin qarşısının alınması məqsədilə Birləşmiş Millətlər Təşkilatının aidiyyəti qurum və mexanizmləri ilə, habelə bütün şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsinin gücləndirilməsi marağından çıxış edən beynəlxalq, regional və milli təsisat və ya təşkilatlarla əməkdaşlıq edir.

***Maddə 12***

Qarşısını alma üzrə Altkomitənin 11-ci Maddədə təsbit olunmuş mandatının həyata keçirə bilməsi üçün iştirakçı dövlətlər aşağıdakıları öhdəsinə götürür:

a) Qarşısını alma üzrə Altkomitəni öz ərazisində qəbul etmək və hazırkı Protokolun 4-cü Maddəsində müəyyən olunmuş saxlanma yerlərinə baş çəkməyə imkan vermək;

b) azadlıqdan məhrum edilmiş şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsinin gücləndirilməsi üçün ehtiyacların və zəruri olan tədbirlərin qiymətləndirilməsi məqsədilə Qarşısını alma üzrə Altkomitə tərəfindən sorğu edilə bilən bütün aidiyyəti məlumatı təqdim etmək;

c) Qarşısını alma üzrə Altkomitə və milli preventiv mexanizmlər arasında əlaqələri təşviq etmək və asanlaşdırmaq;

d) Qarşısını alma üzrə Altkomitənin tövsiyələrini öyrənmək və onların mümkün tətbiqi ilə bağlı dialoq aparmaq.

***Maddə 13***

1. Qarşısını alma üzrə Altkomitə 11-ci Maddədə təsbit olunmuş mandatının həyata keçirilməsi məqsədilə iştirakçı dövlətlərə müntəzəm başçəkmələr proqramını ilk dəfə püşk atma yolu ilə müəyyən edir.

2. Məsləhətləşmələrin keçirilməsindən sonra, Qarşısını alma üzrə Altkomitə öz proqramı haqqında iştirakçı dövlətləri məlumatlandırır ki, onlar təxirə

salınmadan başçəkmələrin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Başçəkmələr Qarşısını alma üzrə Altkomitənin ən azı iki üzvü tərəfindən həyata keçirilir. Zərurət olduqda, bu üzvləri hazırkı Protokolun əhatə etdiyi sahələr üzrə təsdiq olunmuş iş təcrübəsinə və biliklərə malik ekspertlər müşayiət edə bilər. Ekspertlər Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarı və Beynəlxalq Cinayətkarlığın Qarşısının Alınması üzrə Mərkəzi tərəfindən, iştirakçı dövlətlərin irəli sürdüyü təkliflər əsasında hazırlanmış ekspertlər siyahısından seçilir. Bu siyahının hazırlanması zamanı aidiyyəti iştirakçı dövlətlər 5 nəfərdən çox olmayaraq milli ekspert təklif edir. Aidiyyəti iştirakçı dövlət başçəkmə üçün təklif edilmiş ekspertin namizədliyini rədd edə bilər, bundan sonra Altkomitə digər eksperti təklif edir.

4. Qarşısını alma üzrə Altkomitə zəruri hesab etdiyi təqdirdə, müntəzəm başçəkmənin həyata keçirilməsindən sonra növbəti qısa başçəkmə təşkil etməyi təklif edə bilər.

***Maddə 14***

1. Qarşısını alma üzrə Altkomitə mandatını həyata keçirə bilməsi üçün hazırkı Protokolun iştirakçı dövlətləri ona aşağıdakıları təqdim etməyi öhdələrinə götürürlər:

a) 4-cü Maddədə müəyyən olunmuş saxlanma yerlərində olan azadlıqdan məhrum edilmiş şəxslərin sayı, həmçinin belə yerlərin sayı və yerləşdiyi yer haqqında istənilən məlumat məhdudiyyətsiz əldə etmək imkanı;

b) belə şəxslərlə rəftar, habelə onların saxlanma şəraiti haqqında istənilən məlumat məhdudiyyətsiz əldə etmək imkanı;

c) aşağıdakı 2-ci bəndə uyğun olaraq, bütün saxlanma yerlərinə, onların binalarına və obyektlərinə məhdudiyyətsiz buraxılış;

d) azadlıqdan məhrum edilmiş şəxslərlə şahidsiz, şəxsən və ya zərurət olduqda, tərcüməçi vasitəsilə, habelə Altkomitənin fikrinə görə aidiyyəti məlumatı verə biləcək istənilən digər şəxslə fərdi qaydada söhbətlər aparmaq imkanı;

e) baş çəkmək niyyətində olduğu yerləri və söhbət etmək niyyətində olduğu şəxsləri maneəsiz seçmək hüququ.

2. Konkret saxlanma yerinə başçəkməyə münasibətdə etirazlar yalnız təcili surətdə baş vermiş və başçəkməyə müvəqqəti maneə törədən milli müdafiə, dövlət təhlükəsizliyi, təbii fəlakət və ya baş çəkilməsi ehtimal edilən yerdə ciddi iğtişaşla bağlı inandırıcı mülahizələrə əsaslana bilər. Elan olunmuş fövqəladə vəziyyətin mövcudluğu başçəkmənin həyata keçirilməsinə etiraz səbəbi kimi gətirilə bilməz.

*Maddə 15*

Heç bir orqan və ya vəzifəli şəxs Qarşısını alma üzrə Altkomitəyə və ya onun üzvlərinə verilən hər hansı, istər doğru, istərsə də yalan, məlumatın bildirilməsinə görə istənilən şəxs və ya təşkilata münasibətdə hər hansı sanksiyanı teyin edə, tətbiq edə, icazə verə və ya yol verə bilməz və heç bir belə şəxs və ya təşkilat digər şəkildə sıxışdırıla bilməz.

*Maddə 16*

1. Qarşısını alma üzrə Altkomitə öz tövsiyə və iradlarını konfidensial qaydada iştirakçı dövlətə və zərurət olduqda, milli preventiv mexanizminə göndərir.
2. Qarşısını alma üzrə Altkomitə öz hesabatını iştirakçı dövlət tərəfindən müvafiq xahişin daxil olduğu təqdirdə, iştirakçı dövlətin iradları ilə birlikdə dərc edir. İştirakçı dövlət hesabatın bir hissəsini açıqladığı təqdirdə Altkomitə hesabatı tam və ya qismən dərc edə bilər. Bununla yanaşı şəxsi xarakter daşıyan məlumatlar müvafiq şəxsin birbaşa ifadə edilən razılığı olmadan dərc edilə bilməz.
3. Qarşısını alma üzrə Altkomitə fəaliyyəti haqqında açıq illik hesabatını İşgəncələrə qarşı Komitəyə təqdim edir.
4. İştirakçı dövlətin 12-ci və 14-cü Maddələrə uyğun olaraq Qarşısını alma üzrə Altkomitə ilə əməkdaşlıq etməkdən və ya Qarşısını alma üzrə Altkomitənin tövsiyələrinə müvafiq olaraq vəziyyətin yaxşılaşdırılması üçün tədbirlər görməkdən imtina etdiyi təqdirdə, İşgəncələrə qarşı Komitə Qarşısını alma üzrə Altkomitənin xahişi ilə iştirakçı dövlətə öz mülahizələrini ifadə etmək imkanı verdikdən sonra açıq bəyanatla çıxış etmək və ya Altkomitənin hesabatını dərc etmək barədə öz üzvlərinin səs çoxluğu ilə qətnamə qəbul edə bilər.

## IV HİSSƏ

## MİLLİ PREVENTİV MEXANİZMLƏR

*Maddə 17*

Hazırkı Protokolun qüvvəyə minməsindən, və ya onun ratifikasiyasından, yaxud ona qoşulmasından sonra bir ildən gec olmayaraq hər bir iştirakçı dövlət milli səviyyədə işgəncələrin qarşısının alınması üçün bir və ya bir neçə müstəqil milli preventiv mexanizmləri dəstəkləyir, teyin və ya təsis edir. Mərkəzsizləşdirilmiş orqanlar tərəfindən təsis edilmiş mexanizmlər hazırkı Protokolun məqsədləri üçün, Protokolun tələblərinə cavab verdiyi təqdirdə, milli preventiv mexanizmlər qismində teyin edilə bilər.

*Maddə 18*

1. İştirakçı dövlətlər milli preventiv mexanizmlərinin funksional müstəqilliyinə, habelə onların işçi heyətinin müstəqilliyinə təminat verir.

2. İştirakçı dövlətlər milli preventiv mexanizmlərinin ekspertlərinin zəruri potensiala və peşə biliklərinə malik olmasının təmin edilməsi üçün zəruri tədbirlər görür. Onlar gender balansını və ölkədə mövcud olan etnik və azlıq qruplarının bərabər təmsilçiliyini təmin edir.

3. İştirakçı dövlətlər milli preventiv mexanizmlərin fəaliyyəti üçün zəruri resursları təqdim etməyi öhdələrinə götürür.

4. Milli preventiv mexanizmlərin yaradılması zamanı iştirakçı dövlətlər insan hüquqlarının müdafiəsi və təşviq edilməsi üzrə milli təsisatların statusuna dair Prinsipləri nəzərə alır.

*Maddə 19*

Milli preventiv mexanizmlərə ən azı aşağıdakı səlahiyyətlər verilir:

a) zərurət olduqda, işgəncələrdən və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiənin gücləndirilməsi məqsədilə 4-cü Maddədə müəyyən olunmuş saxlanma yerlərində azadlıqdan məhrum edilmiş şəxslərlə rəftarla bağlı məsələyə müntəzəm olaraq baxılması;

b) Birləşmiş Millətlər Təşkilatının müvafiq normaları nəzərə alınmaqla azadlıqdan məhrum edilmiş şəxslərlə rəftarın və onların saxlanma şəraitinin yaxşılaşdırılması məqsədilə müvafiq qurumlara tövsiyələrin təqdim edilməsi, işgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması;

c) qüvvədə olan qanunvericilik və qanun layihələrinə dair təklif və qeydlərin təqdim edilməsi.

*Maddə 20*

Milli preventiv mexanizmlərin öz mandatının yerinə yetirə bilməsi məqsədilə, hazırkı Protokolun iştirakçı dövlətlər onlara aşağıdakıları təqdim etməyi öhdələrinə götürür:

a) 4-cü Maddədə müəyyən olunmuş həbsdə saxlanma yerlərində olan azadlıqdan məhrum edilmiş şəxslərin sayı, həmçinin belə yerlərin sayı və yerləşdiyi yer haqqında istənilən məlumatı əldə etmək imkanı;

b) belə şəxslərlə rəftar, habelə onların həbsdə saxlanma şəraiti haqqında istənilən məlumatı əldə etmək imkanı;

c) bütün həbsdə saxlanma yerlərinə, onların binalarına və obyektlərinə buraxılış;

d) azadlıqdan məhrum edilmiş şəxslərlə şahidsiz, şəxsən və ya zərurət olduqda tərcüməçi vasitəsilə, habelə milli preventiv mexanizmin fikrinə görə aidiyyəti məlumatı verə biləcək istənilən digər şəxslə fərdi söhbətlər aparmaq imkanı;

e) baş çəkmək niyyətində olduqları yerləri və söhbət etmək niyyətində olduqları şəxsləri maneəsiz seçmək hüququ;

f) Qarşısını alma üzrə Altkomitə ilə əlaqələr qurmaq, ona məlumat ötürmək və onunla görüşmək hüququ.

***Maddə 21***

1. Heç bir orqan və ya vəzifəli şəxs milli preventiv mexanizmə verilən hər hansı, istər doğru, istərsə də yalan məlumatın bildirilməsinə görə istənilən şəxs və ya təşkilata münasibətdə hər hansı sanksiyanı teyin edə, tətbiq edə, icazə verə və ya yol verə bilməz və hər hansı belə şəxs və ya təşkilat digər şəkildə sıxışdırıla bilməz.

2. Milli preventiv mexanizm tərəfindən toplanmış konfidensial məlumat açıqlanmır. Şəxsi xarakter daşıyan məlumatlar yalnız müvafiq şəxsin birbaşa ifadə edilən razılığı olduğu təqdirdə dərc edilir.

***Maddə 22***

Müvafiq iştirakçı dövlətin səlahiyyətli orqanları milli preventiv mexanizmin tövsiyələrini araşdırır və onların tətbiqi üzrə mümkün təbirlərlə bağlı dialoq aparır.

***Maddə 23***

Hazırkı Protokolun iştirakçı dövlətləri milli preventiv mexanizmlərinin illik hesabatlarının dərc etməyi və yaymağı öhdələrinə götürür.

## V HİSSƏ

## BƏYANAT

***Maddə 24***

1. Ratifikasiyadan sonra iştirakçı dövlətlər hazırkı Protokolun III Hissəsinə və ya IV Hissəsinə uyğun olaraq öz öhdəliklərinin yerinə yetirilməsi-nin təxirə salınması ilə bağlı bəyanat verə bilər.

2. Belə təxirə salınma ən çoxu üç il müddətində qüvvədə qalır. İştirakçı dövlət tərəfindən müvafiq materialların təqdim edilməsindən və Qarşısını alma üzrə Altkomitə ilə məsləhətləşmələrdən sonra İşgəncələrə qarşı Komitə bu müddəti daha iki il uzada bilər.

## VI HİSSƏ

## MALİYYƏ MÜDDƏALARI

***Maddə 25***

1. Hazırkı Protokolun həyata keçirilməsi zamanı Qarşısını alma üzrə Altkomitə tərəfindən sərf edilmiş xərclər Birləşmiş Millətlər Təşkilatı tərəfindən ödənilir.

2. Birləşmiş Millətlər Təşkilatının Baş katibi hazırkı Protokola uyğun olaraq Qarşısını alma üzrə Altkomitəni funksiyalarını səmərəli şəkildə yerinə yetirməsi üçün zəruri işçi heyət və vəsaitlə təmin edir.

***Maddə 26***

1. Başçəkmədən sonra Qarşısı alma üzrə Altkomitə tərəfindən iştirakçı dövlətə irəli sürülmüş tövsiyələrin həyata keçirilməsi və milli preventiv mexanizmləri üçün tədris proqramlarının maliyyələşdirilməsi məqsədilə Baş Assambleyanın müvafiq proseduruna uyğun olaraq Birləşmiş Millətlər Təşkilatının maliyyə müddəaları və qaydaları əsasında idarə olunan Xüsusi Fond yaradılır.

2. Bu Xüsusi Fond hökumətlər, hökumətlərarası, qeyri-hökumət və digər özəl və ya dövlət qurumları tərəfindən ödənilən könüllü ödəmələr hesabına maliyyələşə bilər.

## VII HİSSƏ

## YEKUN MÜDDƏALAR

***Maddə 27***

1. Hazırkı Protokol Konvensiyanı imzalamış istənilən dövlətə imzalanmaq üçün açıqdır.

2. Hazırkı Protokol Konvensiyanı ratifikasiya etmiş və ya ona qoşulmuş istənilən dövlət tərəfindən ratifikasiya olunmalıdır. Ratifikasiya fərmanları saxlanılması üçün Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təhvil verilir.

3. Hazırkı Protokol Konvensiyanı ratifikasiya etmiş və ya ona qoşulmuş istənilən dövlətə qoşulmaq üçün açıqdır.

4. Qoşulma bu haqda sənədin saxlanılması üçün Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təhvil verilməsi yolu ilə həyata keçirilir.

5. Birləşmiş Millətlər Təşkilatının Baş katibi hər bir ratifikasiya fərmanının və ya qoşulma haqqında sənədin saxlanılması üçün təhvil verilməsi barədə hazırkı Protokolu imzalamış və ya ona qoşulmuş bütün dövlətləri məlumatlandırır.

*Maddə 28*

1. Hazırkı Protokol 20-ci ratifikasiya fərmanı və ya qoşulma haqqında sənəd saxlanılması üçün Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təhvil verildikdən sonra otuzuncu gün qüvvəyə minir.

2. Hazırkı Protokol iyirminci ratifikasiya fərmanı və ya qoşulma haqqında sənəd saxlanılması üçün təhvil verildikdən sonra onu ratifikasiya edən, yaxud ona qoşulan hər bir dövlət üçün həmin dövlət öz ratifikasiya fərmanını, yaxud qoşulma haqqında sənədini saxlanılması üçün təhvil verdikdən sonra otuzuncu gün qüvvəyə minir.

*Maddə 29*

Hazırkı Protokolun müddəaları heç bir məhdudiyyət və istisna olmadan federativ dövlətlərin bütün hissələrinə şamil olunur.

*Maddə 30*

Hazırkı Protokola dair hər hansı qeyd-şərtlərə yol verilmir.

*Maddə 31*

Hazırkı Protokolun müddəaları saxlanma yerlərinə başçəkmə sisteminə əsaslanan istənilən regional konvensiyalar üzrə iştirakçı dövlətlərin öhdəliklərinə toxunmur. Təkrarlanmadan yayınmaq və hazırkı Protokolun məqsədlərinə səmərəli nail olunmasını təmin etmək üçün Qarşısını alma üzrə Altkomitəyə və belə regional konvensiyalara uyğun olaraq təsis edilmiş orqanlara məsləhətləşmələr aparmaq və əməkdaşlıq etmək təklif olunur.

*Maddə 32*

Hazırkı Protokolun müddəaları 12 avqust 1949-cu il tarixli dörd Cenevrə Konvensiyası və onlara dair 8 iyun 1977-ci il tarixli Əlavə Protokollar üzrə iştirakçı dövlətlərin öhdəliklərinə, habelə beynəlxalq humanitar hüquqla əhatə olunmayan vəziyyətlərdə iştirakçı dövlətin Beynəlxalq Qızıl Xaç Komitəsi tərəfindən saxlanma yerlərinə baş çəkməyə icazə vermək hüququna toxunmur.

*Maddə 33*

1. Hər hansı iştirakçı dövlət Birləşmiş Millətlər Təşkilatının Baş katibinə yazılı bildiriş göndərməklə hazırkı Protokolu denonsasiya edə bilər. Bundan sonra Baş katib hazırkı Protokolun və Konvensiyanın iştirakçı dövlətlərini bu barədə məlumatlandırır. Denonsasiya Baş katib belə bildiriş aldıqdan bir il sonra qüvvəyə minir.

2. Belə denonsasiya iştirakçı dövləti denonsasiya qüvvəyə mindiyi tarixə qədər baş verə bilən hər hansı hərəkətinə və ya vəziyyətinə görə və ya

Qarşısını alma üzrə Altkomitə tərəfindən aidiyyəti iştirakçı dövlətə münasibətdə qət edilən və ya qət edilə bilən tədbirlərə görə hazırkı Protokol üzrə öhdəliklərindən azad etmir və denonsasiya qüvvəyə mindiyi tarixə qədər Altkomitədə baxılmış hər hansı məsələnin davam edən baxışına heç bir halda xələl gətirmir.

3. İştirakçı dövlət tərəfindən bəyan edilmiş denonsasiyanın qüvvəyə mindiyi tarixdən sonra Qarşısını alma üzrə Altkomitə həmin dövlətə aid yeni məsələnin baxılmasına başlaya bilməz.

***Maddə 34***

1. Hər hansı iştirakçı dövlət hazırkı Protokola dair düzəliş təklif edə və onu Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təqdim edə bilər. Bundan sonra Birləşmiş Millətlər Təşkilatının Baş katibi təklif olunmuş düzəlişi hazırkı Protokolun iştirakçı dövlətlərinə göndərərək, bu təklifə baxmaq və onu səsə qoymaq məqsədilə iştirakçı dövlətlərin konfransının çağırılmasına razı olub-olmamalarını ona bildirməyi xahiş edir. Bu məktubun göndərildiyi tarixdən keçən dörd ay ərzində iştirakçı dövlətlərdən ən azı üçdə biri belə konfransın çağırılmasına razılıq verdiyi təqdirdə Baş katib Birləşmiş Millətlər Təşkilatının himayəsi ilə konfrans çağırır. Baş katib bu konfransda və səsvermədə iştirak edən iştirakçı dövlətlərin üçdə ikisinin çoxluğu ilə qəbul edilən hər hansı düzəlişi təsdiq üçün bütün iştirakçı dövlətlərə göndərir.

2. Bu Maddənin 1-ci bəndinə müvafiq olaraq qəbul edilmiş düzəliş hazırkı Protokolun iştirakçı dövlətlərinin üçdə ikisi həmin düzəlişi öz konstitusiya prosedurlarına uyğun qəbul etdiklərini Birləşmiş Millətlər Təşkilatının Baş katibinə bildirdikdən sonra qüvvəyə minir.

3. Düzəlişlər qüvvəyə mindikdən sonra, onları qəbul etmiş iştirakçı dövlətlər üçün məcburi olur, digər iştirakçı dövlətlər üçün isə qəbul etmiş olduqları hazırkı Protokolun müddəaları və əvvəlki düzəlişlər məcburi olaraq qalır.

***Maddə 35***

Qarşısını alma üzrə Altkomitənin üzvlərinə və milli preventiv mexanizmlərinin üzvlərinə onların funksiyalarının müstəqil şəkildə yerinə yetirilməsi üçün zəruri olan imtiyaz və immunitetlər verilir. Altkomitənin üzvlərinə Birləşmiş Millətlər Təşkilatının imtiyaz və immunitetləri haqqında 13 fevral 1946-cı il tarixli Konvensiyasının 23-cü fəslinin müddəalarına əməl olunmaqla, həmin Konvensiyanın 22-ci fəslində sadalanan imtiyaz və immunitetlər verilir.

***Maddə 36***

İştirakçı dövlətə baş çəkərkən Qarşısını alma üzrə Altkomitənin üzvləri hazırkı Protokolun müddəa və məqsədlərinə və istifadə edə biləcəkləri imtiyaz və immunitetlərə xələl gətirmədən:

a) baş çəkilən dövlətin qanun və normalarına riayət edir;

b) vəzifələrinin qərəzsiz və beynəlxalq xarakteri ilə bir araya sığmayan hər hansı hərəkət və fəaliyyətdən çəkinir.

***Maddə 37***

1. İngilis, ərəb, ispan, çin, rus və fransız dillərindəki mətnləri bərabər olaraq autentik olan hazırkı Protokol saxlanılması üçün Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təhvil verilir.

2. Birləşmiş Millətlər Təşkilatının Baş katibi hazırkı Protokolun təsdiq edilmiş nüsxələrini bütün dövlətlərə göndərir.

**"İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokoluna dair Azərbaycan Respublikasının**

**BƏYANATI**

Azərbaycan Respublikası bəyan edir ki, o, Ermənistan Respublikası tərəfindən işğal olunmuş ərazilərində Protokolun müddəalarının yerinə yetirilməsinə işğal olunmuş ərazilər azad olunana qədər təminat vermək iqtidarında deyildir.